Xalqın qəzeti!

# Xalq qəzeti

№ 93 (30787) 8 may 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Vyetnam da Azərbaycanın strateji tərəfdaşı oldu



Səhifə ⇨ 2

Bir tarixin izi ilə

## Azərbaycan əvvəlki Azərbaycan deyil

**SSRİ-nin son çağlarında erməni millətçiləri və onlara qoşulmuş hay "ziyalıları" ölkə rəhbəri Mixail Qorbaçovdan Qarabağın Azərbaycandan alınaraq Ermənistana verilməsi üçün, belə demək mümkünsə, elçi düşdülər. O vaxt bu məqsədlə müxtəlif açıq toplantılar və gizli təmaslar təşkil olunurdu. Yəni, böyük ehtimalla, yazımızda ayrı-ayrı fraqmentlərini diqqətə çatdıracağımız toplantı nə birinci, nə də sonuncu idi. Söhbət 1988-ci il iyulun 18-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş geniş növbədənkənar iclasından gedir.**



Erməni ziyalıların SSRİ rəhbəri M.Qorbaçovla deyişməsi kimi xarakterizə olunan həmin iclasda akademik Sergey Ambartsumyanın ağzını açar-açmaz dediyi bu olur ki, erməniləri sıxışdırırlar. Onun sözünü yarımçıq qoyan Qorbaçov bildirir: "Mənə deyin görək, əsrin əvvəlində (XX əsr nəzərdə tutulur – red.) İrəvanda azərbaycanlı əhalinin sayı nə qədər idi? Ambartsumyan gözünü döyür və xatırlamadığını bildirir. Qorbaçov: "Siz bilməlisiniz. Mən sizə xatırladım. İrəvanda əhalinin 43 faizi azərbaycanlılar idilər. Bəs indi onların sayı neçə faizdir? İndi çox azdır. Yəqin, 1 faiz olar. Siz ki, alimsiniz, informasiyalarda dəqiq olmaq lazımdır. Həqiqətlərdə də düz olmaq şərtdir. Sizin və ya mənim həqiqətim hələ həqiqət demək deyil".

M.Qorbaçov replikasını "insanları normal həyata qaytarmaq lazımdır" deməklə yekunlaşdırır və bununla da, əslində, Ambartsumyanın "erməniləri sıxışdırırlar" məntiqinin cəfəng mahiyyət daşıdığını sübuta yetirir. SSRİ rəhbərinin diqqətə çatdırdıqları ermənilərin deyil, azərbaycanlıların sıxışdırıldığının sübutudur. Əlbəttə, belə sübutların sayı-hesabı yoxdur. 1988-ci ildən sonra isə həmin sübutların sırasına əlavələr oldu. Söhbət 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasından, daha sonra isə torpaqlarımızın işğalı nəticəsində bir milyona yaxın vətəndaşımızın məcburi köçkün həyatı yaşamağa məruz olmasından gedir.

**(ardı 5-ci səhifədə)**

## Azərbaycan–Vyetnam əlaqələrində perspektivli mərhələ başlanır

**Bu gün Azərbaycanın xarici siyasətində Asiya istiqamətinin yeni konturlarının görünməsinə Bakının beynəlxalq müstəvidə, həqiqətən də, Qərblə Şərq, Cənubla Şimal arasında körpü missiyasına qlobal yanaşmasının məntiqi nəticəsi kimi baxa bilərik. Əslində, son illər "kollektiv Qərb"in Cənubi Qafqaza, xüsusilə, ölkəmizə münasibətdə sərgilədiyi yanlış, Bakının strateji əməkdaşlıq çağırışlarına adekvat olmayan davranışları fonunda Azərbaycanın Asiya qitəsində özünə etibarlı və səmimi dostlar qazanması qanunauyğunluq kimi qəbul edilməlidir.**



Asiya nəhəngi Çindən sonra Vyetnamın da bu dost düşərgədə yer alması Azərbaycanın dünyanın yeni güc mərkəzinə çevrilməkdə olan Cənub–Şərqi Asiya regionu ilə əməkdaşlığın coğrafiyasını daha da genişləndirmək yönündə atdığı uğurlu diplomatik addımlarındandır. Azərbaycan və Vyetnam arasında münasibətlər milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına sadiqlik prinsipləri əsasında qurulub. Bu əlaqələrin tarixi keçən əsrə gedib çıxır. Bakı Hanoyla bir çox sahələr üzrə əməkdaşlıq edir, beynəlxalq və regional təşkilatlarda, o cümlədən BMT-də, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə ölkələrimiz bir-birini dəstəkləyirlər.

Bütün bunları nəzərə alsaq, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri təsadüfi sayılmamalıdır. Bu xüsusda onu da qeyd etmək lazımdır ki, Vyetnam rəhbərinin iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından sonra Azərbaycana ilk, eləcə də baş katib To Lam vəzifəyə başladıqdan sonra birinci səfəridir.

**(ardı 5-ci səhifədə)**

## Afina Cənubi Qafqazda sülhə niyə mane olur?



**Ermənistanın müdafiə naziri Suren Papikyan növbəti dəfə Yunanıstana işgüzar səfər edib. O, səfər çərçivəsində ölkənin milli müdafiə naziri Nikos Dendiasla görüşüb. Hayastanın Afinadakı səfiri Tiqran Mkrtçyanın da iştirak etdiyi görüşdə Ermənistanla Yunanıstan arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.**

Tərəflər qarşılıqlı fəaliyyətin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə edərək, hərbi təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə, müxtəlif istiqamətlərdə və digər sahələrdə təcrübə mübadiləsinin aparılmasına hazır olduqlarını vurğulayıblar. Görüş zamanı regional və beynəlxalq təhlükəsizlik məsələləri də müzakirə edilib.

S.Papikyan səfər çərçivəsində "DEFEA–2025" beynəlxalq müdafiə sərgisinin açılışına həsr olunmuş təntənəli mərasimdə də iştirak edib. Sonra o, Ermənistan Respublikasının sərgidəki pavilyonuna baş çəkib və iştirakçı şirkətlərin nümayəndələri ilə görüşüb.

**(ardı 5-ci səhifədə)**

## Xalqımızın Şuşa dərdi və Şuşa dərsi




Səhifə ⇨ 12

## Hindistan–Pakistan: "hərbi zərbələr mübadiləsi" fəlakət saçır

Səhifə ⇨ 15

## "Odlar yurdu" "Bir kəmər, bir yol"un mərkəzi vəsiləsidir

**Çinin İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsinin bu ölkənin Ticarət və Xarici İşlər nazirlikləri ilə birgə hazırladığı İpək yolunun inkişafı ilə bağlı hesabatda "Bir kəmər, bir yol" təşəbbüsü uzaq perspektivə hesablanıb və 35 ildən sonra başa çatdırılması planlaşdırılıb.**

Hesabatda "Bir kəmər, bir yol" layihəsinin Çini Cənub-Şərqi Asiya, Mərkəzi Asiya, Cənubi Qafqaz, Rusiya və Avropa ilə birləşdirərək transkontinental mahiyyətə malik iqtisadi marşrut olacağı bildirilir. Hazırda bu layihəyə 150 dövlət qoşulub ki, bu da Çindən başqa dünya əhalisinin 65 faizinin yaşadığı bir coğrafiyanı əhatə edir.

**(ardı 10-cu səhifədə)**



# Vyetnam da Azərbaycanın strateji tərəfdaşı oldu

## Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri

### Rəsmi qarşılanma mərasimi







**Azərbaycana dövlət səfərinə gələn Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın 7-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamı və xanımı No Fon Lini qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinə raport verdi.

Vyetnam Sosialist Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın qarşısından keçdi.

Sonra rəsmi foto çəkdirildi.

### Məhdud tərkibdə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 7-də Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə məhdud tərkibdə görüşü olub.**

### Geniş tərkibdə görüş



**Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə geniş tərkibdə görüşü keçirilib.**

Görüşdə Azərbaycanla Vyetnam arasında diplomatik münasibətlərin 30 il ərzində mövcud olmasına baxmayaraq, ölkələrimizin dostluq təmaslarının hələ keçən əsrin 50-ci illərinin sonlarına təsadüf etdiyi vurğulanıb, həmin dövrdən etibarən Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Azərbaycana, Ulu Öndər Heydər Əliyevin isə SSRİ rəhbərliyində olduğu zaman Vyetnama səfərləri məmnunluqla xatırlanıb.

Dövlətimizin başçısı özünün Vyetnama səfərinə toxunub, Baş katib To Lamın ölkəmizə səfəri zamanı strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunmasını əlaqələrimizin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına xidmət etdiyini vurğulayıb.

Söhbət zamanı Hökumətlərarası Komissiyanın iclasının tezliklə keçirilməsinin və qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində əməli fəaliyyətin vacibliyi vurğulanıb.

Enerji və birgə investisiya layihələri müzakirə olunub, mədəni, humanitar sahələrdə əməkdaşlığın böyük perspektivinin olduğu qeyd edilib. Həmçinin müxtəlif sahələrdə təhlükəsizlik, müdafiə və kibercinayətkarlığa qarşı mübarizə sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, bütün sahələrdə təmasların artırılmasının vacibliyi vurğulanıb.

Görüşdə, həmçinin BMT, AQEM, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq qeyd edilib.

Vyetnam tərəfinin öz ixrac marşrutlarının şaxələndirilməsində maraqlı olduğu vurğulanıb və bu baxımdan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaxşı imkanlar yaratdığı qeyd edilib.

Görüşdə Vyetnamın öz tarixində işğaldan əziyyət çəkdiyi, azadlıq müharibəsi nəticəsində ərazi bütövlüyünün və suverenliyinin təmin olunduğu xatırlanıb. Eyni zamanda, Azərbaycanın da 30 ilə yaxın dövr ərzində Ermənistanın işğalından əziyyət çəkdiyi, Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünü və suverenliyini təmin etdiyi vurğulanıb.

Baş katib To Lam Vyetnamın azadlığı uğrunda mübarizəsində və bu ölkənin birləşməsi prosesindən sonra quruculuq və bərpa işlərində Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib.

Söhbət zamanı vyetnamlı tələbələrin Azərbaycanda təhsil aldığı xatırlanıb, bu gün də həmin şəxslərin Vyetnamın inkişafında mühüm rol oynadıqları bildirilib, Vyetnamda Azərbaycanda təhsil almış tələbələrin Assosiasiyasının fəaliyyət göstərdiyi vurğulanıb.

Görüşdə Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

Baş katib To Lam Prezident İlham Əliyevi Vyetnama səfərə dəvət edib. Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul edib.

### Sənədlərin mübadiləsi

**Mayın 7-də Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ı qəbul etdilər.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Sənaye və Ticarət Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Vyetnamın sənaye və ticarət nazirinin müavini Nguyen Hoang Long mübadilə etdilər.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Milli Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Vyetnamın milli müdafiə naziri Phan Van Giang mübadilə etdilər.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Ədliyyə Nazirliyi arasında 2025-2027-ci illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycanın ədliyyə naziri Fərid Əhmədov və Vyetnamın ədliyyə naziri Nguyen Hai Ninh mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Sənaye – Enerji Qrupu ("PetroVietnam") arasında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "PetroVietnam" Şirkətinin Müşahidə Şurasının sədri Le Mahn Hung mübadilə etdilər.

"SOCAR Trading Singapore PTE LTD" ilə "Binh Son Refining and PetrochemicaI JSC" arasında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Binh Son Refining" Şirkətinin Müşahidə Şurasının sədri Bui Ngoc Duong mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm, texnologiya, innovasiya və rəqəmsal inkişaf sahələrində Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Vyetnamın elm və texnologiya naziri Nguyen Manh Hung mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Mədəniyyət, İdman və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Vyetnamın mədəniyyət, idman və turizm naziri Nguyen Van Hung mübadilə etdilər.

Səfər çərçivəsində, həmçinin "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Vyetnam Dövlət Qeydiyyatı və Arxiv İdarəsi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə Vyetnam İnformasiya Agentliyi arasında əməkdaşlıq Sazişi" və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Sosialist Respublikasının Milli Sahibkarlıq Assosiasiyası (VİNEN) arasında Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanıb.





# Vyetnam da Azərbaycanın strateji tərəfdaşı oldu

## Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər



**Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

**– Hörmətli cənab Baş katib.**

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hörmətli cənab Baş katib, Sizi Azərbaycanda bir daha salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Sizin səfəriniz Vyetnam-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Əminəm ki, səfərin nəticələri uğurlu olacaq və əldə edilmiş razılaşmalar konkret layihələrə çevriləcək. Bu gün imzalanmış sənədlər arasında Azərbaycan ilə Vyetnam arasında qəbul edilmiş Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatı xüsusilə qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir. Bu, əslində, Vyetnam-Azərbaycan əlaqələrini daha yüksək pilləyə qaldıran bir sənəddir. Əminəm ki, artıq bu yüksəksəviyyəli münasibətlər gələcək ikitərəfli əməkdaşlıq üçün də ən vacib rol oynayacaqdır. Gördüyünüz kimi, bu gün imzalanmış sənədlər arasında bir çox istiqamətlər üzrə sənədlər var. Bu gün apardığımız danışıqlar və əldə edilmiş razılaşmalar deməyə əsas verir ki, biz qarşılıqlı əməkdaşlıq istiqaməti üzrə çox ciddi addım atmışıq. Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana dövlət səfəri çərçivəsində bu sənədlərin imzalanması, əlbəttə ki, onların əhəmiyyətini daha da artırır.

Bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var. Bu gün bu və digər istiqamətlər üzrə məsələlər geniş müzakirə edildi. Energetika sahəsində imzalanmış sənədlər və apardığımız müzakirələr deməyə əsas verir ki, biz yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Bu gün bu əməkdaşlıq var və daha çox ticarət əməkdaşlığı formasında aparılır. Ancaq qarşılıqlı sərmayə qoyuluşu məsələləri də müzakirə edildi. Həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələləri müzakirə olundu və göstəriş verildi ki, aidiyyəti qurumlar bu məsələlərlə bağlı konkret addımlar atsınlar.

Hökumətlərarası Komissiyanın iclasının tezliklə keçirilməsi bu və digər istiqamətlər üzrə mümkün əməkdaşlığı daha da sürətləndirəcək. Komissiya iclası uzun illərdir ki, keçirilmir və əldə edilmiş razılaşma əsasında tezliklə Komissiyanın iclasının keçirilməsi məsələsi öz həllini tapıbdır.

Əfsuslar olsun ki, iqtisadi-ticari istiqamət üzrə ticarət dövriyyəsinin dinamikası Azərbaycanın Vyetnama neft satışından asılıdır. Neft satışı yüksək səviyyədə olanda ticarət dövriyyəsi artır, azalanda azalır. Əlbəttə, biz ticarət dövriyyəmizi daha da balanslaşdırılmış formada görmək istərdik və bunun üçün, təbii ki, qarşılıqlı informasiya mübadiləsi lazımdır. Hansı layihələr ölkələrimizdə həyata keçirilir, investisiya imkanları nədən ibarətdir, qaydalar, qanunvericilik bazası, vergi inzibatçılığı - bütün bu məsələlər biznes dairələri üçün gərək aydın olsun. Belə olan halda əminəm ki, ticarət dövriyyəsi təkcə neft amilindən asılı olmayacaq.

Biz bu gün, eyni zamanda, bərpaolunan enerji növlərinin istehsalı ilə bağlı fikir mübadiləsi apardıq. Mən hörmətli qonağımıza bildirdim ki, Azərbaycanın bu sahədə çox böyük imkanları, potensialı var. İmzalanmış kontraktlar 5 il bundan sonra bizə 6500 meqavat gücündə yeni enerji, təmiz enerji güclərini qazandıracaq və Vyetnam şirkətlərini investisiya qoymağa dəvət etdik. Eyni zamanda, Azərbaycan tərəfinin Vyetnamda bərpaolunan enerji növlərinə sərmayə qoymağa hazır olduğunu bildirdim.

Müdafiə sənayesi sahəsində çox böyük perspektivlər var. Hər iki ölkədə sənayenin bu istiqaməti kifayət qədər inkişaf edib. Burada da səylərin birləşdirilməsi, birgə müəssisələrin yaradılması və qarşılıqlı əməkdaşlıq fayda gətirə bilər.

Bizim beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimiz də çox ürəkaçandır. Vyetnam bir neçə il bundan əvvəl Azərbaycanı BMT Təhlükəsizlik Şurasında çox ciddi dəstəkləmişdir və buna görə biz minnətdarıq. Eyni zamanda, biz Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyət göstəririk. Azərbaycan bu təsisata 4 il sədrlik etmişdir və çox gözəl bir iz buraxmışdır. Bu gün Qoşulmama Hərəkatının daha da sanballı təsisat kimi fəaliyyəti hər iki ölkənin marağındadır.

Biz bu gün, eyni zamanda, beynəlxalq hüququn aliliyi haqqında fikir mübadiləsi apardıq və burada da heç bir fikir ayrılığı yoxdur. Bütün məsələlər ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı əsasında - beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalıdır. Bütün mübahisəli məsələlər danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmalıdır.

Yəni bu gün bir çox istiqamətlər üzrə apardığımız müzakirələr əsnasında görürük ki, fikir ayrılığı yoxdur. Əksinə, biz demək olar ki, vahid mövqedən çıxış edirik. Baxışlarımızda da bir çox oxşarlıq var. Baxmayaraq ki, aramızdakı məsafə kifayət qədər uzundur, bizi birləşdirən nəqliyyat infrastruktur layihələri haqqında da bu gün danışdıq. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdıra bilərik. Bir sözlə, əminəm ki, səfərin çox gözəl nəticələri olacaq. Bizim hörmətli qonağımız ilk dəfədir ki, Azərbaycanda səfərdədir. Səfər vaxt baxımından qısa olsa da, məzmun nöqteyi-nəzərindən kifayət qədər zəngindir. Bu gün bizim işimiz davam etdiriləcək. Sabah da hörmətli Baş katibin səfəri davam edəcək. Əminəm ki, öz vətəninə Azərbaycandan ən xoş təəssüratlarla qayıdacaq.

Bir daha xoş gəlmisiniz, hörmətli cənab Baş katib. Sizə və bütün vyetnamlı yoldaşlarımıza yeni uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

*

Sonra Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi bəyanatla çıxış etdi.

### Baş katib To Lamın bəyanatı

**– Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.**

Hörmətli xanımlar və cənablar.

Əvvəlcə mən azərbaycanlı dostların səmimi qəbuluna görə cənab Prezidentə dərin təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, Vyetnamın ünvanına söylədiyiniz xoş sözlərə və iki ölkə arasındakı münasibətləri belə yüksək dəyərləndirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Hazırkı səfərim diplomatik münasibətlər qurulduqdan sonra Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana ilk səfəridir. Bu, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində Vyetnamın qətiyyətli olduğunu nümayiş etdirir. Bütün bunlar, öz növbəsində, ölkələrimiz arasında ənənəvi dostluğa və əməkdaşlıq potensialına cavab verir. Biz etimad, dostluq və səmimiyyət şəraitində cənab Prezidentlə uğurlu danışıqlar apardıq və yaxın zamanlarda iki ölkə arasında əlaqələrin strateji istiqamətlər üzrə inkişaf etdirilməsi barədə razılığa gəldik. Şadıq ki, ölkələrimizin münasibətləri Prezident Ho Şi Minin Azərbaycana 1959-cu ildə səfəri ilə başladı.

Onun səfərindən sonra müxtəlif təmaslar və səfərlər olmuşdur. Ölkələrimiz arasında əlaqələr dövlət rəhbərləri və xalqlarımız tərəfindən daim gücləndirilmişdir. Biz siyasi, diplomatik, energetika, müdafiə, ticarət və digər sahələrdə yaxşı nəticələr əldə etmişik. Bu əsasla biz strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı artıq qəbul etdik. Bu isə ölkələrimizin münasibətlərinin tarixində yeni dövr, yeni səhifə açır. Əminəm ki, biz yaxın zamanlarda ikitərəfli münasibətlərimizi dərinləşdirə və genişləndirə biləcəyik, inkişaf naminə üstün cəhətlərimizdən faydalanacağıq.

Birgə Bəyanatda əks olunan müddəaları icra etmək üçün beş məsələni təklif edirəm. Cənab Prezidentin də indicə qeyd etdiyi kimi, birinci məsələ partiya, dövlət, parlament və rayonlar kimi bütün səviyyələrdə əlaqələri və təmasları fəallaşdırmaqdır. İstərdim ki, Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələr fəal olsun, imzalanmış razılaşmalar icra edilsin, mövcud əməkdaşlıq mexanizmlərinin səmərəliliyi artırılsın və yeni mexanizmlərin yaradılması imkanları araşdırılsın. Mən Prezident Əliyevi yaxın zamanlarda Vyetnama səfərə dəvət edirəm. O, artıq dəvətimi qəbul edib.

İkincisi, hökumətlərarası komissiya vasitəsilə ticari-iqtisadi əməkdaşlığı fəallaşdırmaq. Əmtəə dövriyyəsi və sərmayələri artırmaq, iki ölkənin işgüzar dairələrini bir araya gətirmək, energetika, neft və qazla yanaşı, bütün sahələrdə əməkdaşlıq etmək, dəmir yolları, dəniz yolları, kənd təsərrüfatı sahələrində digər əməkdaşlıq imkanlarını araşdırmaq vacibdir.

Biz hökumətlərarası komissiyanın növbəti iclasının tezliklə baş tutması məsələsini nəzərdən keçirəcəyik. Həmin komissiyanın gələcək iclasının nəticələrini səbirsizliklə gözləyirik, çünki o, artıq strateji tərəfdaşlıq əsasında həyata keçiriləcək.

Üçüncüsü, biz müdafiə və təhlükəsizlik sahələrində əlaqələri fəallaşdırmalıyıq, informasiya təhlükəsizliyi, transmilli cinayətkarlıq və kibercinayətkarlıqla mübarizə sahələrində münasibətlərimizi inkişaf etdirməliyik.

Dördüncüsü, mədəniyyət, idman və turizm, təhsil, xalqlararası təmaslar və regionlar sahələrində əməkdaşlığı genişləndirməliyik. Biz məşqlər, idman yarışlarının təşkili sahəsində təcrübə mübadiləsi barədə razılığa gəldik, eləcə də turizmi təşviq edəcəyik, tələbələri sizin güclü olduğunuz ixtisaslara yiyələnmək üçün göndərəcəyik. Xalqlararası təmaslara gəldikdə, istərdim ki, Dostluq Cəmiyyəti yaradılsın.

Beşincisi, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparmalıyıq və BMT, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Toplantısı kimi təşkilatlarda bir-birimizi dəstəkləməliyik.

Biz, həmçinin sülhsevər yanaşmanı dəstəklədiyimizi qeyd etdik. Biz mübahisələrin dinc yolla həllini, beynəlxalq hüquqa, o cümlədən BMT-nin 1982-ci il tarixli Dəniz Hüququ Konvensiyasına uyğun olaraq, gücdən istifadə etməmək və onun istifadəsi ilə hədələməmək kimi prinsiplərin vacibliyini bildirdik. Əminəm ki, iki ölkə rəhbərlərinin qətiyyəti ilə ikitərəfli münasibətlərimiz bundan sonra da xalqlarımızın rifahı, eləcə də regionda və dünyada sülh, sabitlik və əməkdaşlıq naminə inkişaf edəcək.

Təşəkkür edirəm.

## Vyetnam rəsmləri sərgisi



**Mayın 7-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam və xanımı No Fon Li Vyetnam rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar**.



## Ali qonağın şərəfinə dövlət ziyafəti



**Mayın 7-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın və xanımı No Fon Linin şərəfinə dövlət ziyafəti verilib.**

Ziyafətdə Azərbaycan və Vyetnam musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

## Mehriban Əliyeva Vyetnam KP MK Baş katibinin xanımı ilə görüşüb



**Mayın 7-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşü olub.**

***AZƏRTAC***

# Sənaye parklarının bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatına dair əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, sənaye parklarında bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının artırılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. sənaye parklarının elektrik enerjisinə ümumi tələbatına (o cümlədən bərpa olunan enerji mənbələrindən zəmanətli tariflə elektrik enerjisinin istehsalı həyata keçirilən layihələr üzrə) uyğun həcmdə elektrik enerjisinin sənaye parklarının idarəedici təşkilatına ayrılmasının enerji balansında nəzərdə tutulmasını təmin etsin;

1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**2.** Dövlət tərəfindən yaradılan sənaye parklarının idarəedici təşkilatı həmin parkların rezidentləri və qeyri-rezidentləri ilə bağlanılacaq müqavilələrə uyğun olaraq və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 19.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla, onların bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatını təmin etsin.

**3.** "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq sənaye parklarının idarəedici təşkilatı tərəfindən ötürücü və (və ya) paylayıcı şəbəkədən istifadə etməklə elektrik enerjisi təchizatının həyata keçirilməsi üçün zəruri müqavilələrin bağlanılmasını təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 may 2025-ci il**

# Daxili işlər nazirinin sıra baxışı





**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 7-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 215 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 16 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# Ceyhun Bayramov İraqda



**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov bu ölkənin Baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseyn ilə görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Ceyhun Bayramov iki ölkə arasında mövcud əməkdaşlıq mexanizmlərinin, xüsusilə də iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyanın və Azərbaycan–İraq Biznes Şurasının önəmlərinə diqqət çəkərək, ikitərəfli iqtisadi münasibətlərin, xüsusilə də enerji və qarşılıqlı sərmayə qoyuluşu sahələrində əməkdaşlığın inkişaf perspektivlərindən istifadənin vacibliyini vurğulayıb.

Humanitar və təhsil sahələri üzrə əməkdaşlığın inkişafından bəhs olunub, İƏT və Qoşulmama Hərəkatına üzv dövlətlərdən olan tələbələr üçün təqaüd proqramları, o cümlədən Heydər Əliyev Beynəlxalq Təhsil Təqaüdü kimi təşəbbüslərin faydalılığı vurğulanıb. Səfər çərçivəsində, həmçinin ADA Universiteti və İraq Respublikasının Diplomatik Xidmət İnstitutu arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının da təhsil sahəsində əməkdaşlığın genişləndirilməsində əlamətdar hadisə olduğu qeyd edilib.



**Mayın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İraqa rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Əbdüllətif Camal Rəşid tərəfindən qəbul edilib.**

Görüş zamanı Azərbaycan və İraq arasında dostluq, əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri, o cümlədən qarşılıqlı maraq doğuran regional, beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ölkələrimiz arasında yüksəksəviyyəli səfərlərin, intensiv siyasi dialoqun əməkdaşlığın siyasi, iqtisadi, ticarət, enerji, sərmayələr, nəqliyyat, təhsil, mədəniyyət, turizm və digər sahələrdə müsbət şəkildə irəliləməsinə mühüm töhfə verəcəyinə əmin olduğunu qeyd edib.

Beynəlxalq təşkilatlar, xüsusilə də BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində mövcud birgə fəaliyyətin məmnunluq doğurduğu bildirilib və qarşılıqlı dəstəyin davam etdiriləcəyi ifadə olunub. Qarşı tərəfə postmünaqişə dövründə bölgədə yaranmış yeni reallıqlar, azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə və regional sülh gündəliyi barədə ətraflı məlumat təqdim edilib.

İraq Prezidenti Əbdüllətif Camal Rəşid Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), habelə Davos İqtisadi Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən görüşlərini məmnunluqla xatırlayıb, bu kimi ali səviyyəli təmasların əhəmiyyətindən bəhs edib, ölkə başçısına öz salamlarını çatdırıb.

*

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İraqın Baş naziri Məhəmməd Şiə əl-Sudani ilə görüşüb.**

Görüş zamanı Azərbaycan-İraq əməkdaşlığının müxtəlif aspektləri, Yaxın Şərqdə cari vəziyyət, habelə qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan və İraq arasında diplomatik münasibətlərin əsasının müstəqilliyimizin bərpasından sonra qoyulmasına baxmayaraq, xalqlarımız arasında əlaqələrin tarixinin daha qədim olduğu məmnunluqla qeyd edilib. Bu dinamikanın qorunub saxlanılması məqsədilə bütün, o cümlədən dövlət, parlament, hökumət, xarici işlər nazirlikləri səviyyələrində qarşılıqlı səfər və təmasların artırılmasının əhəmiyyəti vurğulanıb.

Görüşdə əməkdaşlığın siyasi, iqtisadi, ticarət, enerji, humanitar aspektləri müzakirə olunub, ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu və hər iki tərəfin bu istiqamətdə maraqlı olduğu diqqətə çatdırılıb.

Tərəflər, həmçinin Yaxın Şərq, xüsusilə Qəzza bölgəsi ətrafında mövcud vəziyyətdən bəhs edərək, münaqişənin sülh yolu ilə həllinə ümidvar olduqlarını bildiriblər. Azərbaycanın İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüquq normaları, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun şəkildə "iki dövlət" prinsipi əsasında həllinə göstərdiyi dəstək bir daha qeyd edilib.

*

**Xarici işlər naziri Ceyhun Bayramov İraq Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Nümayəndələr Şurasının sədri Mahmud əl-Məşhədani ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan və İraq arasında ikitərəfli münasibətlər, parlamentlərarası əməkdaşlıq və qarşılıqlı maraq doğuran regional məsələlər müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan ilə İraq arasında tarixən dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin müxtəlif, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə inkişaf etdiyini və parlamentlərarası əlaqələrin bu münasibətlərin mühüm komponentlərindən biri olduğunu qeyd edib.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma




**Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam mayın 7-də Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamı və xanımı No Fon Lini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

# Sahibə Qafarovanın BƏƏ Prezidenti ilə görüşü



**Milli Məclisin sədri Sahibə Qafarova rəsmi səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşüb.**

Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan, bu səfərin parlamentlərimiz arasında əlaqələrin daha da genişləndirilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Spiker Sahibə Qafarova göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi və digər sahələrdə sıx əməkdaşlığın mövcud olduğu qeyd edilərək, bu əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanların mövcud olduğu diqqətə çatdırılıb.

Bildirilib ki, ölkə başçıları arasında fəal siyasi dialoq və müntəzəm təmaslar əməkdaşlığın inkişafında çox mühüm rol oynayır. Dövlət başçılarımızın müəyyən etdiyi strateji istiqamətlərin dövlət qurumları tərəfindən ardıcıl şəkildə reallaşdırılması əlaqələrimizin müxtəlif sahələr üzrə inkişafına imkan yaradıb və ölkələrimiz arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Qeyd olunub ki, ölkələrimizin liderlərinin uğurlu rəhbərliyi ilə dövlətlərimiz və xalqlarımız böyük nailiyyətlər əldə ediblər.

Görüşdə dövlətlər arasında əməkdaşlığın mühüm bir istiqaməti kimi parlamentlər arasında da əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olunub. Spiker Sahibə Qafarova bu səfərin onun Milli Məclisin sədri kimi Birləşmiş Ərəb Əmirliklərinə ilk səfəri olduğunu bildirərək, səfər çərçivəsində apardığı danışıqlar barədə məlumat verib. O, dünən imzalanan Azərbaycan Respublikası Milli Məclisi ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası arasında Anlaşma Memorandumunun əhəmiyyətini qeyd edərək deyib ki, bu sənəd tərəflər arasında əməkdaşlığın daha da genişlənməsinə imkan verəcək.

***XQ***

# Mərakeşin xanım Şahzadəsi Bakı məktəblərində

**Mayın 7-də Mərakeş Krallığının xanım Şahzadəsi, Rabat Mədəni İrsinin Qorunması Fondunun prezidenti Lalla Hasnaa Azərbaycana işgüzar səfəri çərçivəsində 132–134 nömrəli Təhsil Kompleksini ziyarət edib.**



Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, deputat Soltan Məmmədov, Mərakeş Krallığının gənclər, mədəniyyət və kommunikasiya naziri Mohammed Mehdi Bensaid, Mərakeş Krallığının ölkəmizdəki səfiri Məhəmməd Adil Embarş, Rabat Mədəni İrsinin Qorunması Fondunun Baş katibi Nouzha Alaoui, eləcə də digər rəsmilər və məktəb kollektivi iştirak edib.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, bu gün UNESCO-nun Assosiasiyalı Məktəblər Şəbəkəsinin üzvü olan 132–134 nömrəli Təhsil Kompleksi ilə Rabatın Oum El Banine məktəbi arasında başlayan qardaşlaşma proqramı mədəni mübadilə, ortaq dəyərlər və təhsil əməkdaşlığına əsaslanan yeni bir mərhələnin əsasını qoyur. Nazir vurğulayıb ki, Rabat Mədəni İrsinin Qorunması Fondu, Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin birgə tərəfdaşlığı ilə həyata keçirilən bu təşəbbüs növbəti tədris ilindən etibarən Bakının və Rabatın beş məktəbini əhatə edəcək. Nazir bildirib ki, bu təşəbbüs şagirdləri mədəni irslərini araşdırmağa, qorumağa və paylaşmağa təşviq etməklə yanaşı, onlar arasında mədəni dialoqu gücləndirəcək.

Səfər çərçivəsində şagirdlər tərəfindən qardaşlaşma proqramının təməli olan "Mən irsimi kəşf edirəm – Bakı" adlı təhsil proqramı təqdim olunub. Eyni zamanda, Rabatın Oum El Banine məktəbinin şagirdləri tərəfindən ünvanlanan videomesaj nümayiş etdirilib.

Səfər çərçivəsində xanım Şahzadə sinif otaqlarında tədris prosesi ilə də tanış olub, şagirdlərlə söhbət edib və onların təqdimatlarını dinləyib. Həmçinin məktəbin Tarix Muzeyi təqdim olunaraq Azərbaycan tarixi barədə məlumat verilib.

Tədbir şagirdlər tərəfindən hazırlanan Rabat və Bakı şəhərlərinin görkəmli abidələrinə həsr olunmuş rəsmlərin sərgisi, musiqili konsert proqramı və xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşıb.

***XQ***

# Azərbaycan–Vyetnam əlaqələrində perspektivli mərhələ başlanır

*(əvvəli 1-ci səhifədə)*

Dünən Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə geniş tərkibdə görüşü keçirildi.

Bu səfər çərçivəsində iki ölkə arasında turizm, təhsil, informasiya texnologiyaları, nəqliyyat, kənd təsərrüfatı və ətraf mühit kimi bir çox sahələrdə əməkdaşlığı gücləndirmək üçün qərarlar qəbul edildi.

Azərbaycanın yeni strateji tərəfdaşına çevriləcək Vyetnam Asiya qitəsində, öz coğrafiyasında yerləşən mühüm ölkələrdən biri kimi qiymətləndirilməlidir. İkitərəfli səmimi və səmərəli münasibətlər daha vacib sayıldığından, bu coğrafiyada Vyetnam həm də müəyyən çəkiyə malik dövlət kimi qəbul olunur. Bu nöqteyi-nəzərdən Azərbaycan və Vyetnam arasında diplomatik münasibətlərin yeni mərhələyə keçməsi perspektivini gələcəyə qoyulan sərmayə kimi dəyərləndirmək mümkündür. Yeri gəlmişkən, rəsmi Bakı Vyetnamın tezliklə ölkəmizdə səfirliyinin açılmasını gözləyir.

Xalq təsərrüfatının müxtəlif sahələrində əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə Azərbaycan–Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Bu komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli şəkildə reallaşdırılması üçün mühüm platforma rolunu oynayır. Bundan başqa, xarici işlər nazirlikləri xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu ilin aprel ayında keçirilib. Hər iki ölkənin parlamentində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir.

İki ölkənin hakim partiyaları arasında sıx əməkdaşlıq bu müstəvidə də münasibətlərin inkişafına təkan verir. 2023-cü ilin noyabrında Hanoyda Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq sazişinin imzalanması münasibətlərdə gələcəyə yönəlik müsbət perspektivdən xəbər verir.

Yaxın tarixə nəzər salsaq, görərik ki, Azərbaycanla Vyetnam Sosialist Respublikası arasında diplomatik münasibətlər 23 sentyabr 1992-ci ildə qurulub. Sonrakı illərdə iki ölkə arasında bir çox sahələr üzrə əməkdaşlıq bağları inkişaf etdirilib. Qeyd etdiyimiz kmi, Vyetnam Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq genişlənməkdədir. Son illər ərzində Azərbaycan ilə Vyetnam arasında siyasi dialoq özünün yüksək səviyyəsinə çatıb, hər iki tərəfdən rəsmi şəxslərin qarşılıqlı səfərləri mütəmadi olaraq həyata keçirilir. Eyni zamanda, Vyetnamla beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan konstruktiv əməkdaşlığımızı xüsusi qeyd etmək lazımdır.



**HAŞİYƏ:** 1959-cu ilin iyulunda keçmiş SSRİ-yə səfər edən Vyetnam Prezidenti Xo Şi Min ölkəsinin əsas təbii sərvətlərindən olan neft yataqlarının kəşfiyyatı və işlənməsi üçün yollar axtarırdı. Bu axtarış onu həmin il iyulun 23-də Bakıya gətirib çıxarır. Təyyarə Bakının səmasında olarkən Ho Şi Min tərcüməçini yanına çağırıb deyir: "Bax, aşağıda nə görürsən? Dəniz! Amma, bu, adi dəniz deyil, neft dənizidir". Xo Şi Min Xəzər dənizində böyük neft-qaz platformalarının olduğunu bilirdi. Təyyarəsi Bakıya enəndən sonra onu paytaxt ətrafındakı neft-qaz yataqları ilə tanış edirlər. "Vyetnamda da dəniz var, inanıram ki, bizim də mütləq neftimiz olacaq. Amma ölkəmiz müharibə şəraitindədir və biz neft çıxarılmasını da gerçəkləşdirə bilmərik. Ümid edirəm və inanıram ki, Vyetnamın müqavimət müharibəsi uğurla başa çatdıqdan sonra siz bizə neft tapmaqda kömək edəcək, sonra neftin istismarına və emalına yardım göstərəcəksiniz. Bakıdakı kimi neft-qaz sənayesi parkı tikəcəksiniz", - deyə Xo Şi Min Azərbaycan mühəndisləri və neftçiləri qarşısında çıxış edərkən söyləmişdi.

Həqiqətən də, tam azad olandan və birləşəndən sonra Vyetnamda neft-qaz sənayesinin qurulmasında Azərbaycan neftçiləri tarixi xidmətlər göstəriblər. Vyetnamın neft yataqlarının kəşfiyyatı və işlənilməsi məqsədilə 1981-ci ildə "Vietsovpetro" birgə müəssisəsi yaradılıb. Bu məqsədlə Azərbaycanın qabaqcıl neft mühəndisləri, geoloqları, ixtisaslaşmış işçiləri Vyetnama ezam olunublar. Bundan başqa, Azərbaycandan bu ölkəyə neft sənayesinə aid xeyli sayda texnika və avadanlıq göndərilib. Maraqlı faktlardan biri də budur ki, birgə şirkətin 1981-1984-cü illərdə ilk baş direktoru azərbaycanlı mütəxəssis Cəlal Məmmədov, geologiya bölməsinin ilk rəhbəri isə Müslüm Vəliyev olub.

1983-cü ildə Vyetnamın böyük dostu Heydər Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyəti bu ölkəyə səfər edib. Həmin səfər keçmiş SSRİ-nin Vyetnamla münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyırdı. Sovet hökumətinin rəhbərlərindən biri kimi Heydər Əliyev Vyetnamın birləşməsindən sonra bu ölkəyə qədəm qoyan ilk yüksək vəzifəli xarici qonaq idi. Əslində, bu səfər Vyetnam üçün həyati əhəmiyyət daşıyırdı. Ona görə ki, uzun sürən Fransa işğalından, ABŞ ilə qanlı müharibədən sonra yenicə sülh, sabitlik və inkişaf yoluna qədəm qoyan Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda Heydər Əliyevin Hanoya səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi.

Azərbaycanla Vyetnam arasında mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığın kökləri də sovet dövrünə gedib çıxır. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk SSRİ–Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib və onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959–1962-ci illərdə Prezident Xo Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada üç film çəkib. Bu xidmətlərinə görə o, Vyetnam Sosialist Respublikasının ali "Əmək" ordeni ilə təltif edilib. Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı tələbə təhsil alıb. Onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələrdə işləyir. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam–Azərbaycan Dostluq Assosiasiyası təsis edilib.

Bəli, keçmiş təcrübə öz bəhrəsini verir və hazırda Vyetnam Azərbaycanın yeni strateji tərəfdaşı olmağa namizəddir. Qarşılıqlı istək və marağa söykənən bu əməkdaşlığın yalnız uğurlara imza atacağını indidən söyləyə bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan əvvəlki Azərbaycan deyil

*(əvvəli 1-ci səhifədə)*

...S.Ambartsumyan sözügedən toplantıda tək deyildi. Orada başqa nələrin yaşandığına nəzər salacağıq. Hələlik isə bir neçə faktın üzərində dayanaraq bildirək ki, sovet Ermənistan əhalisinin tərkibi ötən əsrin 47-50-ci illərində dramatik şəkildə dəyişdi. Bunu edən hazırda erməni iqtidarının bəyənmədiyi SSRİ rəhbəri İosif Stalin oldu. Əlbəttə, Stalinin qərarına təsir göstərənlər var idi. Məsələn, o zamankı Ermənistanın SSR-in birinci katibi Qriqori Arutinov. Məhz Arutinov 1947-ci ildə SSRİ Nazirlər Sovetinin azərbaycanlıların Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə bağlı qərarının çıxarılmasına nail oldu. Qərar nəticəsində 100 minədək azərbaycanlı köçürülməyə, əslində isə deportasiyaya məruz qaldı. Bu deportasiya, miqyasına görə, 1944-cü ildə Krım tatarlarının və çeçenlərin, habelə Pont yunanlarının üzləşdiyi durumdan heç nə ilə fərqlənmədi...

Qeyd edək ki, qərarda azərbaycanlıların Ermənistandan köçürülmələri "əsaslandırımışdı" da. Sən demə, xaricdəki ermənilər öz vətənlərinə dönməyi arzulayırdılar. Bu yerdə haşiyə çıxaq ki, İkinci dünya müharibəsindən sonra SSRİ-dən köçmüş emiqrantların yenidən ölkəyə qayıtmaları ilə bağlı siyasət həyata keçirilirdi. Mövcud siyasət həm xaricdəki ruslara, həm də digər millətlərin təmsilçilərinə şamil olunurdu.

Lakin tezliklə Stalin ani demokratizm simptomlu və xalqların tarixi vətənlərində vəhdəti kimi qəbul edilən siyasəti yarımçıq saxladı. Amma erməni avantüristlər fürsəti fövtə vermədilər. Haqqında söz açdığımız Arutinov hiyləgərlik edərək, "vətənə geri dönmək arzusunu ifadə edən" ermənilərin harada yerləşdiriləcəyinə dair məsələ qaldırdı. O, Ermənistan SSR-də bunun üçün şəraitin olmadığını bildirərək mərkəzi rəhbərliyi, müəyyən mənada, fakt qarşısında qoydu.

Əlbəttə, Arutinov hər şeyi hesablamışdı. O, vəziyyətdən çıxış yolu kimi, azərbaycanlıları Ermənistandan çıxarmağın üzərində dayandı. Beləliklə, deportasiya başladı. Nəticədə, İrəvanın əhalisi, demək olar, tamamilə ermənilərdən ibarət oldu. Əlbəttə, həmin dövrdə Ermənistana qayıtmaq istəyən ermənilər tapıldı. Amma onların sayı Arutinovun bildirdiyi kimi, heç də 100-200 min deyil, xeyli az idi. Ancaq şəhərdəki azərbaycanlıların sırası əhəmiyyətli dərəcədə seyrəldi. Ümumən, Ermənistanda türk-müsəlman əhalinin sayı, təxminən, cəmi 100 mindən bir qədər artıq civarda müəyyənləşdi. Doğrudur, bu rəqəm 1988-ci ilədək, yəni deportasiyanın növbəti dalğasınadək, 200 mini keçdi və hətta daha çox oldu.

*

Əlbəttə, M.Qorbaçov ermənilərlə söz oynadarkən əsl deportasiya barədə danışmadı. Çünki mövzu, əvvəldə də bildirdiyimiz kimi, Qarabağı Azərbaycandan alıb Ermənistana vermək, daha doğrusu, belə bir sərsəmliyi əsaslandırmaq idi. Sərsəmlərdən biri də erməni yazıçısı Vaqdes Petrosyan idi. O bildirdi ki, Qarabağ problemini ancaq bölgəni Ermənistana verməklə həll etmək mümkündür. Qorbaçov bu avantürist alimin də sözünü ağzında qoymuş və arqument səsləndirmişdi: "Tutalım, siz təklif etdiyiniz kimi qərar qəbul etdik. Axı Azərbaycanda 400 min erməni qalır. Onlardan 207 mini Bakıdadır. 500 min erməni Gürcüstanda yaşayır. Bəs onlarla nə edək? Onları da Ermənistana yerləşdirməliyik?"

Bu yerdə Gürcüstan SSR Ali Sovetinin sədri Pavel Gelaşvili, görünür, özü qəsdən söhbətə replika ilə müdaxilə edir və Gürcüstanda 500 min azərbaycanlının yaşadığını bildirir. Cənab Gelaşvili belə bir ritorik sual da səsləndirir: "Marneuli rayonu tamamilə azərbaycanlılardan ibarətdir. O zaman bu rayonu Azərbaycana vermək lazımdır?.."

Qorbaçov sözünə davam edərək Xankəndidə əhalinin təchizatı üçün lazımi mallarla dolu qatarın dayandığını deyir. Onun bildirdiyinə görə, vaqonlar boşaldılmır və ekstremistlər xəbər yayırlar ki, guya Xankəndidə insanlar aclıq çəkirlər. Beləliklə, ermənilərdə Azərbaycan idarəçiliyinə qarşı nifrət yaratmaq yolu tutulur. Qorbaçov bunun vəziyyəti gərginləşdirmək üçün edildiyini bildirir. O, sual da verir: "Siz istənilən yolla qələbə qazanmağı necə etmək istəyirsiniz? Ermənistan Dağlıq Qarabağı öz ərazisinə daxil etmək istəyir? Azərbaycan buna yol vermək istəmir. Bir millimetr də geri çəkilmək fikrində deyil... Axı, bu, real deyil. Hamını razı salacaq kompromis tapmaq lazımdır. Qələbə ancaq ümumi olmalıdır. Problemləri siyasi dalana salmaqla həll etmək olmaz. Sumqayıt və Dağlıq Qarabağ ətrafındakı digər hadisələr onsuz da iki xalqın bir-birinə münasibətində dərin izlər buraxıb. Vaxt lazımdır ki, bunu necəsə yoluna qoyaq. Elə indi görüşmək, müzakirə etmək, kompromis tapmaq lazımdır".

Əlbəttə, əli yüzlərlə azərbaycanlının qanına batmış M.Qorbaçov mələk deyildi, nə etdiyini, nə danışdığını çox yaxşı bilirdi. O, həm erməniləri, bir növ, danlayır, müəyyən mənada, onlara minnət qoyurdu. Digər yandan isə həmin erməni millətçilərinin əməllərini gerçəkləşdirmələrinə şərait yaradırdı. Yəni, bir tərəfdən erməni təxribatçıları həbsə atılır, başqa bir tərəfdən onların tezliklə azadlığa çıxmaları təmin olunurdu. Hər halda, bu başıpozuqlar elə-belədən öz mənfur əməllərini təkrarlamırdılar. Mütləq dəstəkçiləri var idi və şübhəsiz ki, həmin dəstəkçilər göydən gəlməmişdilər. Beləlləri məhz Qorbaçovun ətrafında qaynaşırdı.

Ümumən, M.Qorbaçov kənardan Dağlıq Qarabağ məsələsində siyasi həll yollarını üstün tutan kimi görünürdü. O, bölgənin iqtisadi, sosial və mədəni inkişafı üçün təkliflər hazırlanmalı olduğunu və azərbaycanlılarla ermənilərin birgə problemi həll etmələrinin vacibliyini vurğulayırdı. Halbuki, Qorbaçov belə deməməli və güzəşt gündəliyini rəhbər tutmamalı, Dağlıq Qarabağ ətrafında baş verənləri dövlətin bütövlüyünə qarşı qəsd adlandırmalı idi.

*

Bu gün Ermənistan və havadarları müxtəlif beynəlxalq tribunalarda anti-Azərbaycan fəaliyyəti ilə məşğuldur. Qarabağ ermənilərinin etnik təmizləməyə məruz qaldıqlarını bildirir, vay-şivən qaldırırlar. Halbuki Qarabağ ermənilərinin bölgəni tərk etmələrinin səbəbkarı Azərbaycan və azərbaycanlılar olmayıblar. Ölkəmizin rəsmiləri dəfələrlə Qarabağ ermənilərinə vətəndaş kimi yanaşıldığını bəyan ediblər. Lakin qarşı tərəf bununla razılaşmayıb. Eynilə 1988-ci ildə olduğu kimi.

Bəli, hazırda Ermənistanın Azərbaycanla sülhə gəlməməsi fonunda gözlər önündə ayrı-ayrı fraqmentlərini təqdim etdiyimiz iclas canlanır. Həmin iclasda erməni nümayəndələrin azğınlığı, əvəzində Azərbaycan təmsilçilərinin izaholunmaz susqunluğu da həmçinin. Lakin Azərbaycan 1993-cü ildən – ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra susmadı və mübarizə apardı. Mübarizə yekunda torpaqlarımızın işğaldan qurtulması və iki yüz illik erməni planının iflası reallığını doğurdu.

Yekunda belə qənaətə gəlirik ki, erməni qövmünün Vətənimizdən nə isə qopartmaq istəyi rüsvayçılıqla nəticələndi. Axı Azərbaycan əvvəlki Azərbaycan deyil. Yəni, mövcud şəraitdə Ermənistan da əvvəlki Ermənistan olmağa çalışmamalıdır.

Həm də o səbəbdən ki, indi Ermənistanın əvvəlki Ermənistan olmaq istəyi Azərbaycanı daha əvvəlki, məsələn, 1918-ci ilə qədərki Azərbaycan olmağa həvəsləndirir. Əslində, buna həvəslənmə demək də doğru deyil. Bir cəmiyyət ki, ölkəmizə qarşı çıxır, bir dövlət ki, daim silahlanma yolunu tutub nəyəsə nail olmaq "eşqinə" düşür, dinc yaşamağı deyil, təfriqəni rəhbər tutur, deməli, belə düşüncəyə son qoyulmalıdır. Başqa yol yoxdur!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Afina Cənubi Qafqazda sülhə niyə mane olur?

*(əvvəli 1-ci səhifədə)*



Qeyd edək ki, Yunanıstanla Ermənistan arasındakı hərbi və hərbi-texniki sahədə əməkdaşlıq son illərdə xeyli inkişaf edib. Afina və İrəvan bəyan edirlər ki, bu əməkdaşlıq "hər iki ölkənin təhlükəsizlik maraqlarını gücləndirmək və regional sabitliyi təmin etmək" məqsədini daşıyır. Ölkələr arasında hərbi əməkdaşlıq 2023-cü ilin martında imzalanan proqramla daha da möhkəmlənib. Proqram çərçivəsində xüsusi təyinatlı qüvvələrin, radioelektron mübarizə vasitələri ilə birgə təlimləri, sülhə dəstək əməliyyatları üzrə çoxmillətli təlim mərkəzində iştirakı, hava hücumundan müdafiə sistemləri sahəsində təcrübə mübadiləsini, habelə hərbi kəşfiyyat sahəsində əməkdaşlıq həyata keçirilir.

Yunanıstanla Ermənistan ikitərəfli hərbi əməkdaşlıq qurmaqla kifayətlənmir, bura üçüncü tərəfi – Kipr Respublikasını da daxil edirlər. 2021-ci ilin avqust ayında onlar arasında üçtərəfli müdafiə əməkdaşlığı proqramı imzalanıb. Bu proqram çərçivəsində xüsusi təyinatlı qüvvələrin birgə təlimləri, simulyatorlar vasitəsilə birgə təlimlər, hava hücumundan müdafiə sistemləri və pilotsuz uçuş aparatları sahəsində təcrübə mübadiləsi, idarəetmə və liderlik mövzularında birgə təlimlər, hərbi kadr mübadiləsi və qarşılıqlı görüşlər keçirilir.

Hərbi sənaye sahəsində əməkdaşlığa gəldikdə isə qeyd etmək lazımdır ki, 2023-cü ilin avqustunda Afina və İrəvan bu istiqamətdə əməkdaşlıq müqaviləsi imzalayıblar. Müqavilə çərçivəsində texnologiyaların transferi, təcrübə mübadiləsi, partlayıcı maddələrin istehsalı sahəsində əməkdaşlıq, birgə sənaye müəssisələrinin yaradılması, hərbi təyinatlı məhsulların tədqiqatı həyata keçirilir.

Yunanıstan Fransa və Hindistan kimi Ermənistanın silahlanmasında xüsusi rola malik ölkəyə çevrilib. Bu isə ölkəmizdə haqlı olaraq narazılıq doğurur. Çünki Ermənistanın bir gün həmin silahları ölkəmizə doğru tuşlayacağı gün kimi aydındır. Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlamış bir dövlətin demilitarizasiyasının həyata keçirilməsini müşahidə etməli olduğumuz bir vaxtda tamamilə fərqli mənzərəyə şahidlik edirik.

Yunanıstanın Ermənistanı silahlandırması təkcə Cənubi Qafqazda deyil, Şərqi Aralıq dənizi bölgəsində də geosiyasi balansı dəyişdirən vacib məqamdır. Bu, təkcə hərbi texnologiya mübadiləsi ilə məhdudlaşmır, həm də strateji ittifaqların qurulmasına xidmət edir.

Bir müddət öncə Yunanıstan mediasında yayılan məlumatda bildirilirdi ki, Afina Rusiyanın istehsalı olan "S-300", "Tor-M1" və "Osa-AK" hava hücumundan müdafiə sistemlərini Ermənistana verməyi planlaşdırır. Bu qərar Yunanıstanın silahlanma strategiyasının bir hissəsi olaraq, köhnəlmiş sovet istehsalı olan silahları daha müasir və Qərb istehsalı olan texnologiyalarla əvəz etməyi hədəfləyirdi. Yeni sistemlər arasında İsrail istehsalı olan "David's Sling", "Barak MX" və "Spyder" hava müdafiə sistemləri yer alır. Bu dəyişikliyin əsas məqsədi Yunanıstanın hava hücumundan müdafiə qabiliyyətini gücləndirmək və Rusiya silah sistemlərindən asılılığı azaltmaq idi.

Ermənistan isə Rusiya istehsalı olan bu silah sistemlərini yaxşı tanıyır və əvvəlki illərdə bu sistemlərin istifadəsi üzrə təlimlər keçib. Ekspertlər hesab edirlər ki, bu səbəbdən Yunanıstanın verdiyi silahların Ermənistana inteqrasiyası nisbətən asan olacaq. Bundan əlavə, Fransa da Ermənistanı əlavə hərbi avadanlıqla təmin etməyi planlaşdırır.

*

Ermənistan–Yunanıstan hərbi yaxınlaşması bir sıra səbəblərdən Azərbaycan və Türkiyə üçün potensial strateji təhdid kimi qiymətləndirilə bilər. Aydındır ki, Yunanıstanın Cənubi Kipr və Ermənistanla birgə müdafiə alyansı formalaşdırması Türkiyənin Aralıq dənizi və Cənubi Qafqazdakı mövqeyinə qarşı balanslaşdırıcı güc yaratmaq cəhdidir. Ermənistan isə bu ittifaq vasitəsilə Azərbaycanla rəqabətdə öz mövqeyini möhkəmləndirmək niyyətindədir.

Afinanın bu əməlləri həm də İrəvanın revanşist siyasətinə psixoloji dəstəkdir. İrəvanın son aylarda hərbi modernizasiya səyləri fonunda Yunanıstan və Cənubi Kipr kimi aktorlarla yaxınlaşması, İkinci Qarabağ müharibəsindəki məğlubiyyətin revanşını almağa hesablanan psixoloji üstünlük yaratmaq məqsədi daşıya bilər. Bu da regionda sülh prosesini riskə ata bilər. Yunanıstanın NATO üzvü olması da bu əməkdaşlığa əlavə həssaslıq qatır. Hərçənd ki, bu əlaqələr NATO-nun rəsmi mandatına daxil deyil, amma Yunanıstanın bəzi təlim və texniki imkanları bu struktur vasitəsilə formalaşır.

Beləliklə, Yunanıstan–Ermənistan hərbi yaxınlaşması sadəcə, iki ölkənin təhlükəsizlik gündəmi deyil, həm də regionda güc balanslarını dəyişmək potensialına sahib bir siyasi mesajdır. Bu prosesin diqqətlə izlənməsi və ehtiyac yaranarsa, strateji cavab mexanizmlərinin aktivləşdirilməsi Azərbaycanın milli maraqları baxımından vacib görünür.

*

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən politoloq, yunanşünas İlyas Hüseynov bildirdi ki,** Ermənistan müdafiə nazirinin Yunanıstana səfəri iki ölkə arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, eyni zamanda, "DEFEA-2025" beynəlxalq müdafiə sərgisinin açılış mərasimində iştirak etmək məqsədi daşıyır. Afina özünün müdafiə sənayesinə aid innovativ texnologiyalarını da təqdim etmək imkanı qazanır. Ermənistan və Yunanıstan arasında uzun illərdir ki, müdafiə sənayesi sahəsində işbirliyi var: "Rəsmi Afinanın təkidi və dəstəyi ilə NATO-nun müxtəlif təlim və seminarlarında erməni hərbçilər də iştirak edirlər. Onlar bu təlim və seminarlarda NATO standartlarına uyğun şəkildə təcrübə keçir, seminarlarda yeni bilik və bacarıqlar qazanırlar.

Burada xüsusi vurğulamaq lazımdır ki, Ermənistan 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlamış dövlətdir. İşğal etdiyi ərazilərdə vandallıq, barbarlıq hərəkətləri törədib, çoxsaylı cinayətlərə imza atıb. Bu cinayətlərə mülki infrastrukturun məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdılması (urbisid), mədəni irsin dağıdılması, saxtalaşdırılması və talan edilməsi (kultursid), ətraf mühitə və biomüxtəlifliyə sağalmaz yaralar vurulması (ekosid), mülki əhalimizə, girov və ya əsir götürülmüş vətəndaşlarımıza münasibətdə törədilən əməllər, ərazilərimizin minalarla kütləvi şəkildə çirkləndirilməsi və sair mənfur əməllər daxildir. Yunanıstan isə Ermənistanın yanında dayanaraq işğalçının əməllərinə dəstək nümayiş etdirib".

Politoloq bildirdi ki, Vətən müharibəsi zamanı və lokal xarakterli antiterror əməliyyatınınn gedişində də Afina tərəfindən İrəvana dəstək ifadə olunmuşdu. Bütün bunlar Cənubi Qafqazda sülhə, sabitliyə və təhlükəsizliyə təhdid törədir: "Biz anlayırıq ki, Yunanıstan və Ermənistanın ortaq düşməni Türkiyədir. Afina Ankaranın Cənubi Qafqazda möhkəmlənməsini qəbul edə bilmir. Məhz türk düşmənçiliyinə, türkofobiyaya qarşı Yunanıstan Ermənistanı silahlandırır və ona hərbi dəstək, yeni növ silah-sursat verir. Məhz buna görə də NATO daxilində fikir ayrı-seçkiliyi mövcuddur".

İ.Hüseynov onu da bildirdi ki, bu gün Avropanın bir sıra ölkələrində türkofobiya geniş yayılıb. Onun sözlərinə görə, biz Türkiyənin Suriyada qazandığı uğurlar əleyhinə ayrı-ayrı qrupların, koalisiyaların formalaşdığını görürük: "Vətən müharibəsindən öncə də Cənubi Kipr–Yunanıstan–Ermənistan geosiyasi oxu formalaşmışdı. Bu xüsusda Prezident İlham Əliyev Yunanıstanın ölkəmizə yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edərkən narahatlığı ali səviyyədə diplomatın diqqətinə çatdırmışdı. Odur ki, hazırda cərəyan edən proseslər, daha sıx əməkdaşlıq, intensiv səfərlər, hərbçilərin mütəmadi görüşləri, heç şübhəsiz, Azərbaycanı da narahat edir. Bizi daha ayıq-sayıq olmağa, operativ reaksiyalara sövq edir".

Türkiyənin Azərbaycanın strateji müttəfiqi olduğunu vurğulayan müsahibimiz 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsini bölgədə sülhü, təhlükəsizliyi, dayanıqlı sabitliyi təmin edən ən önəmli dövlətlərarası sənəd adlandırdı: "Əgər Yunanıstan–Ermənistan hərbi əməkdaşlığı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı təhdidlər formalaşacaqsa, bu dövlətlər anlamalıdırlar ki, qarşılarında Türkiyə–Azərbaycan birliyi dayanacaq. Bu baxımdan bölgədə sülhə töhfə verən addımların müşahidə olunması daha yaxşı olardı".

İ.Hüseynov onu da bildirdi ki, hazırda Yunanıstanın müdafiə naziri Nikos Dendias Vətən müharibəsinin gedişi zamanı xarici işlər naziri idi: "O, çox tez-tez İrəvana telefon zəngi edir, Ermənistana səfərlərin təşkil olunmasına səy göstərir və xüsusi canfəşanlığı ilə seçilirdi. Biz bütün bunları unutmamışıq. Ölkəmizdəki ciddi analitik təhlil mərkəzləri baş verən bütün prosesləri qeydə alır və əlbəttə, üçtərəfli, habelə çoxtərəfli müstəvidə həyata keçirilən əməkdaşlıqda bunu qarşı tərəfin diqqətinə çatdırır. Ermənistan–Yunanıstan hərbi əməkdaşlığı heç də sülhə xidmət etmir. Hərbçilərin görüşləri ayrı-ayrı gərginliklərin yaranmasına, eskalasiyaya gətirib çıxarır. Rəsmi Afina bu cür addımlardan çəkinməlidir".

***Səxavət HƏMİD***
***XQ***

# Heydər Əliyev: şəxsiyyət və lider



**III məqalə**

### *Üçüncü keyfiyyət*

Heydər Əliyevin liderlik məharətinin növbəti keyfiyyəti uzun sürən fasilədən sonra Azərbaycanda müstəqil dövlətçiliyin uğurlu nümunəsini yaratmaq qüdrəti ilə bağlıdır.

Bunun daxili ideya aspektini yuxarıda vurğuladığımız iki parametr müəyyən edirsə (əlbəttə, şəxsi keyfiyyətləri, məsələn, yüksək zəka və yenilməz siyasi iradə), qlobal miqyasda H.Kissincerin “6 qəhrəman” siyasi liderinin fəaliyyətləri ilə müqayisədə aydınlaşa biləcək özəlliklər təşkil edəcəkdir. Onu da bir daha vurğulayaq ki, H.Kissincerə görə, həmin liderlər XX əsrdə dünya strategiyasının müəyyənləşməsinə ciddi təsir edən əsas siyasi fiqurlar kimi təqdim olunurlar. Yəni onları H.Kissincer “dünyanın ən güclü siyasi liderləri” hesab etmişdir. Böyük strateq və diplomat ciddi bir məqamı nəzərdən qaçırmışdır. İzah etməyə çalışaq.

### *Konrad Adenauer*

XX əsr Almaniya tarixində “Adenauer erası” reyxin II Dünya müharibəsində fəlakətli məğlubiyyətindən sonra dövləti yenidən qurmaq mərhələsindən başlamışdır. Hitler Almaniyası XX əsrin 40-cı illərinə çox güclü dövlət kimi qədəm qoymuşdu. Öz güclərindən almanlar Avropanın digər güclü dövlətlərindən heyif almaq üçün istifadə etməyə çalışdılar. Almaniya faktiki olaraq 6-7 il dünya ilə savaşdı. Ayrıca SSRİ ilə böyük müharibəyə baş vurdu. Nəticədə cəmi bir neçə il əvvəl çox güclü olan bir Avropa nəhəngi çökdü. Qısa müddətdə Almaniyada Amerika – Böyük Britaniya – Fransa – SSRİ ortaqlığının hakimiyyəti quruldu. Almaniya üçün, bu, əsl dövlətçilik faciəsi idi. Üstəlik, vahid Almaniya parçalandı. Deməli, 1945-ci ildə alman dövlətçiliyi, faktiki olaraq, yox edilmişdi. 1949-cu ildə Almaniya siyasi tarixinin səhnəsinə ictimai-siyasi quruluşun xristian-sosial modelini hazırlamış Konrad Adenauer çıxdı. Təcrübə göstərdi ki, bu seçim “minillik reyx”in xilası oldu.

Həmin dönəmdə Almaniya, sözün həqiqi mənasında, sosial xaos içində idi. Müharibədən sonra müxtəlif ölkələrdən almanlar buraya axışırdılar. İşsizlik, psixoloji uyğunsuzluq, uduzan cəmiyyətin psixoloji natamamlığı, ölkənin parçalanması, hakimiyyətdə yadların üstünlük təşkil etməsi kimi problemlər alman siyasi şüurunu tam məhvə aparırdı.

K.Adenauerin iki əsas strateji tezisini vurğulayırlar: Birincisi, Almaniya sosial bazar iqtisadiyyatı məkanı olmalıdır; İkincisi, “yeni Avropada yeni Almaniya”! H.Kissincer ikinci tezisi strateji anlamına açır. Vurğulayır ki, “Yeni Almaniya” ideyası alman şüurunda yüzilliklə hökm sürən “Avropada ağalıq” iddiasına son qoymuşdur. K.Adenauer faşist Almaniyasının məğlubiyyətindən sonra Avropada ağalıq deyil, birləşmə kursunu seçmişdir. Birləşmiş Avropanın “alman formulu” isə mütləq Almaniyanın öncəki mərhələlərinə qiymət verilməsini tələb edirdi. H. Kissincer yazır ki, K.Adenauer ağıllı və realist formada yeni strateji ideya irəli sürdü: “Barış!” Onun üç aspekti vardı: Birincisi, Almaniya II Dünya müharibəsində aldığı zərbələri təbii qəbul edərək, onlarla barışmalıdır; ikincisi, Almaniya minillik liderlik və ağalıq iddiasından əl çəkməli və taleyinin bir qisməti ilə qane olmalıdır, üçüncüsü, Almaniya bu iki prinsip əsasında özü Avropanı yeniləşdirməlidir ki, əsas məqsəd Avropanın birləşməsi olmalıdır!

Bu məqamı H.Kissincer böyük Avropa fəlakətindən sonra qitənin müharibədən sonrakı mərhələdə strateji inkişafının başlıca ideya qaynağı hesab edir. Təsadüfi deyildir ki, postmüharibə mərhələsində Avropa İttifaqının yaranmasında başlıca rolu oynayan dövlət Almaniya oldu!

Doğrudan da, Almaniya və Avropa üçün çox böyük dəyişiklik idi. Dünyanın strateji geosiyasi dinamikasının müəyyən edilməsində əsas rol oynayan proseslər idi. Burada K.Adenauerin məharətlə Avropada regional miqyasla dünya miqyası arasında siyasi və geosiyasi aspektlərdə, sabit inkişaf və təhlükəsizlik məsələlərində bir ahəngdarlıq yarada bildiyi şübhəsizdir! Buna görə də o, dünya miqyasında sayılmalı olan liderdir. Ancaq Almaniya və konkret K.Adenauer nümunəsinin bir neçə siyasi, tarixi və geosiyasi fərqliliyini unutmaq olmaz.

Birincisi, K.Adenauerə qədər Almaniyada əsrlərlə müstəqil və güclü alman dövlətləri kəsintisiz mövcud olmuşdu. Ayrıca XX əsrə Almaniya dünya miqyasında sözü keçən və böyük güclərlə mübarizə aparan nəhəng dövlət kimi daxil olmuşdu. Bu o deməkdir ki, K.Adenauerə məğlub olmuş və parçalanmış ölkə qalsa da, onun sosial, iqtisadi, hərbi, ideoloji bazası kifayət qədər güclü idi.

İkincisi, Almaniyanı dünyanın böyük gücləri məhv etmək, tamamilə xəritədən silmək kimi bir planları yox idi. Onlar Almaniyanın güclü olmasını, lakin aqressiv olmamasını, ancaq həm də anqlo-saks və fransız imperialist ideyalarından asılı olmasını istəyirdilər. Rusların qarşısını da məhz bu özəllik kəsdi.

Üçüncüsü. Almaniya ancaq 1945-ci ildə parçalanmışdı. Yəni tarixi baxımdan “təzə alman problemi” idi. Bu “yaranın sağalması”nda isə bütün Qərb dünyasının dövləti maraqları vardı.

Deməli, “almanların xilaskar lideri” itirilənləri bərpa etməli və yeni siyasi-diplomatik münasibətlər əsasında həm öz dövlətlərini yeniləşdirməli, həm də yenidən “alman modeli” əsasında Avropanı yeniləşdirməli idi. Bu, faktiki olaraq, “qapalı siyasi-diplomatik dairədir” – məğlubiyyətdən başlayan dövlət yenidən aparıcı olmalı və hətta bütün qitəni siyasi, geosiyasi, sosial-iqtisadi, təhlükəsizlik aspektlərində birləşdirməli idi!

Buna görə də bir fundamental, lakin bu məqsədlərə çatmağa imkan verəcək ideya tapmaq lazım idi. Onu K.Adenauer tapdı – “Barış!” H.Kissincer bu məqamı gözəl tutmuşdur.

Buradan siyasi-nəzəri və geosiyasi olaraq iki nəticə çıxara bilərik. Birincisi, K.Adenauerin yenilikçi lider olması üçün dövlətçilik baxımından böyük bazası vardı. İkincisi, Almaniya XX əsrin birinci yarısında etdiyi bütün dağıdıcı fəaliyyətinə rəğmən, yüzilin ikinci yarısından onun dövlətçiliyini məhv etməkdə qərarlı olan düşmənlərlə əhatə olunmamışdı. Əksinə, hadisələr göstərdi ki, Qərb dövlətləri Almaniyanın yeniləşməsinə nəinki əngəl olmadılar. Hətta onun bu fəaliyyətini təşviq edərək, həvəslə “yeni birləşmiş Avropa quruculuğunda iştirak etdilər. Avropa İttifaqında “alman ruhu” ciddi yer tutur. NATO-ya Almaniya hətta parçalanmış vəziyyətdə dərhal daxil edildi. Üstəlik, Almaniyanın birləşməsi xətti NATO-nun hərbi ruhunda daim olmuşdur.

Bu iki nəticəni bir fəlsəfi müddəada birləşdirə bilərik: XX əsrin ikinci yarısında öncə Almaniyanın aqressiyasının qarşısını alan Qərb imperialist dairələri postmüharibə mərhələsində onun yenidən qurulması, sosial-iqtisadi dirçəldilişi və təhlükəsizliyinin təmini üçün kollektiv iradə nümayiş etdirdilər. Bir sözlə, bütün Qərb Almaniyanın yenidən güclənməsi üçün səfərbər oldu.

Almaniya 1949-cu ildə cəmi 1 səs üstünlüyü ilə hakimiyyətə gələn K.Adenauer milli dirçəliş və inkişafın simvoluna çevrildi. Onun bu obrazının yaranmasında Qərbin siyasi dairələri ciddi rol oynadılar. Çünki onlar alman liderə qarşı informasiya müharibəsi aparmadılar, əksinə hər addımını təşviq etdilər və buna görə də sadə almanlar haqlı olaraq K.Adenauerin uğurlu lider kimi legitimliyini tam qəbul etdilər!

### *Müqayisə: liderimizin misilsiz şücaəti*

Razılaşaq ki, XX əsrin son onilliyində Cənubi Qafqazda yerləşən və ölkə olaraq potensial baxımından Almaniyadan dəfələrlə zəif olan Azərbaycanda uğurlu lider olmağın fonunda K.Adenauerin fəaliyyəti xeyli sadə görünür. Bəli, K.Adenauerin Almaniya üçün etdikləri son dərəcə böyük əhəmiyyəti olan haldır. Lakin, o, SSRİ şinelindənn çıxmış, hər tərəfdən fiziki, siyasi, geosiyasi və hərbi aqressiyalara məruz qalan, müstəqil olmasını Türkiyədən başqa regionda yerləşən heç bir dövlətin istəmədiyi Azərbaycanda nə dərəcədə uğurlu ola bilərdi?

Əslində, Azərbaycan o vəziyyətə Qərbin və Rusiyanın imperialist dairələrinin uzun müddət apardıqları antitürk dövlətçiliyi siyasəti salmışdı (yeri gəlmişkən, Almaniya da o sırada idi, lakin müəyyən yumşaq fərqlərlə). İran isə Azərbaycanı, ümumiyyətlə, müstəqil dövlət kimi görmək istəmirdi və hər cür təxribatlara əl atırdı (indi münasibət müsbətə doğru dəyişmişdir ki, bu da Heydər Əliyevin dövlət quruculuğu kursunun uğurlarından irəli gəlir).

Üstəlik, dünyanın böyük gücləri (ABŞ, Fransa, Böyük Britaniya, Almaniya və Rusiya) süni yaratdıqları Ermənistana Azərbaycan torpaqlarını işğal etməkdə ciddi dəstək verirdilər.

Bu proses 1989-cu ildə alovlandı və gedişat Azərbaycanı müstəqil dövlət kimi xəritədən silməyə doğru apardı. BMT miqyasında belə, Azərbaycana təzyiqlər getdikcə artırdı. Bu təşkilat ədalətli qətnamələr qəbul edərək, işğalçıların Azərbaycan ərazisindən çıxarılmasını təmin etmək əvəzinə, qərəzli oyuna başladı.

Lakin Avropanın özündə bu qərəzli oyun daha təhlükəli və şantajçı xarakterdə idi. ATƏT, Minsk qrupu və onun həmsədrləri bütün bu oyunların tam içində idilər. Yəni, faktiki surətdə bəzi istisnalar olmaqla dünyanın bütün gücləri Azərbaycanın dövlət kimi müstəqilliyini və ölkə kimi inkişafını istəmirdilər. Bunun üçün də ermənilərdən maşa kimi istifadə edərək mübarizə aparırdılar.

1991-1993-cü ilin iyununa qədər hakimiyyətdə olan səriştəsiz qruplar ölkəni daxildən parçalayır və onu fəlakətə sürükləyən ssenarilərin təsir dairəsinə salırdılar. Ölkə daxilində siyasi qüvvələrin münasibətləri qanuna yox, hərbə-zorbaya əsaslanırdı, hətta Azərbaycanı yenidən SSRİ-yə oxşar bir Rusiyapərəst quruma sürükləmək və bunun üçün müstəqilikdən belə imtina etməyə təhrik etmək tendensiyası hiss olunurdu.

Cəmiyyətin sosial aspektdə birliyi və aydın hədəfi yox idi. Kənardan cəmiyyəti etnik və dini məzhəbçilik əsasında parçalamağa çalışanlara qarşı tutarlı addımlar atılmırdı. Ümumiyyətlə, konkret dövlət quruculuğu kursu və strategiyası mövcud deyildi. Azərbaycan cəmiyyətini necə birləşdirmək xətti işlənməmişdi. Ənənəvi çağırışlar XX əsrin sonları üçün sadəcə populist təsir göstərirdi.

Bu qısa faktlar bizə, K.Adenauerlə Heydər Əliyevin lider kimi hansı şərtlər altında, hansı problemləri uğurla həll etməli olduqlarının müqayisəsini aparmağa imkan verir. Bu müqayisə, sadəcə olaraq, bizim milli qürurumuza sığal çəkmək üçün deyildir, onun vacibliyi məsələnin uğurlu liderlik nümunəsi kontekstində ciddi fəlsəfi-elmi və siyasi-nəzəri obrazını yaratmaqla əlaqəlidir.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Bədnam “Yaş senzisi”nə qarşı mitinqlərdə bir ailənin fədakarlığı



**1990-cı illərin əvvəllərində Azərbaycanın siyasi səhnəsində dərin təlatümlər yaşanırdı. SSRİ-nin dağılması ilə yaranan yeni reallıqlarda xalqın lider axtarışı da gün kimi ortadaydı. Lakin bu axtarış bəzilərini narahat edir, ictimai iradəni süni hüquqi baryerlərlə boğmaq cəhdləri güclənirdi. Belə bir anda, 1992-ci ilin aprel-may aylarında Azərbaycan tarixində mühüm bir epizod yaşandı – “yaş senzisi” adlandırılan məhdudiyyətə qarşı ilk ictimai etiraz mitinqləri.**

Bu senzura Azərbaycan Respublikasının Prezidenti seçkiləri haqqında Qanuna əlavə olunan məhdudlaşdırıcı maddə ilə həyata keçirilirdi: “Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının o vətəndaşı seçilə bilər ki, yaşı 35-dən aşağı və 65-dən yuxarı olmasın...” Bu müddəa şəksiz şəkildə Ulu Öndər Heydər Əliyevin prezidentliyə namizədliyinin qarşısını almağa hesablanmışdı.

Ancaq xalq öz sözünü deməyə qərarlı idi. İlk etirazlar Azərbaycan Respublikası Ali Sovetinin qarşısında baş tutdu. Bu, hələ hakimiyyətdə olmayan, lakin xalqın yaddaşında xilaskar simvoluna çevrilmiş bir liderə sədaqətin nümayişi idi.



Mitinqin qeyri-adi səhnələrindən biri də iki azyaşlı uşağın – əllərində Azərbaycan bayrağı və Heydər Əliyevin portreti ilə meydana çıxması idi. Onlar kim idi? Uşaqlar mərhum ictimai fəal Arif Rüstəmovun oğulları – Ramin və Tural idi.

Arif Rüstəmov bu mitinqlərin təşəbbüskarlarından biri idi. Onun həyat yoldaşı Həvva Həsənova o günləri belə xatırlayır:

– Arif bəy Heydər Əliyevi böyük sevgi ilə sevirdi. Təhdidlərə, evimizin yandırılmasına baxmayaraq, mitinqlərdə iki azyaşlı oğlumuzla birlikdə iştirak edirdi. Hətta bir aksiyada uşaqlarımız fiziki zorakılığa məruz qaldılar. Amma Arif geri çəkilmədi.

Bu gün o azyaşlı uşaqlar – Tural və Ramin Rüstəmov artıq uzun illərdir ki, Daxili İşlər Nazirliyində zabit kimi çalışırlar. Onlar atasının miras qoyduğu dəyərləri yaşadır, dövlətə və xalqına sədaqətlə xidmət edirlər.

Heydər Əliyevin məşhur fikri bu məqamda yenidən canlanır: “İnsanda iki keyfiyyət var ki, sonradan öyrənilmir – sədaqət və cəsarət. Bunlar insanın qanında olur.”

Bəli, tarix təkcə sənədlərdə deyil, ailələrin, fərdlərin yaddaşında və həyat seçimlərində yaşayır. Rüstəmovlar ailəsinin hekayəsi bu həqiqətin canlı sübutudur.

# “Heydər Əliyev və Türk dünyası”

**Ankarada Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci illiyi münasibətilə “Heydər Əliyev və Türk dünyası” mövzusunda panel müzakirələri keçirilib.**



Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) işlər müdiri Əvəz Səfərovun XQ-yə verdiyi məlumatda bildirilir ki, TADİV-in və Azərbaycanın Türkiyədəki səfirliyinin təşkilatçılığı keçirilən tədbirdə Türkiyə Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin məsul şəxsləri, Türkiyə Böyük Millət Məclisinin deputatları, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasının Ankaradakı səfirləri, sabiq diplomatlar, SOCAR və bir sıra qeyri-hökumət təşkilatlarının nümayəndələri, həmçinin qardaş ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

TADİV rəhbəri, professor Aygün Attar və ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov açılış çıxışları edərək Ümummilli liderin Azərbaycan tarixindəki danılmaz rolundan danışıb, XX əsr tariximizin 50 ildən çox bir dövrünün Heydər Əliyev şəxsiyyəti və onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlı olduğunu, dahi şəxsiyyətin, sadəcə, Azərbaycana deyil, bütün türk xalqlarına xidmət etdiyini vurğulayıblar.

Panel müzakirələrdə çıxış edən Türkmənistan, Qırğızıstan, Qazaxıstan və Şimali Kipr Türk Respublikasının Ankaradakı səfirləri, Türkiyə XİN nümayəndəsi Ayşə Üzər, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç və digərləri Heydər Əliyevi dövrünün dahi lideri və siyasət ustası adlandırıb, onun uzaqgörən siyasətindən, Türk dövlətləri ilə münasibətlərə verdiyi xüsusi önəmdən danışıblar.

Panel müzakirələri jurnalist Aysel Sadak İltaşın qələmə aldığı “İnsan ürəyi ilə Heydər Baba” kitabının təqdimatı ilə yekunlaşıb.

*XQ*

# Heydər Əliyev: şəxsiyyətin miqyası və missiyası

İsa HƏBİBBƏYLİ,
AMEA-nın prezidenti, akademik

**Azərbaycan xalqının ümummilli lideri, dünya siyasətinin əsas simalarından biri olmuş görkəmli dövlət xadimi Heydər Əliyev fenomeni böyük siyasətin müstəqil dövlətçilik tariximizin, elm, ədəbiyyat və incəsənətin əbədi mövzusudur. Bu dahi şəxsiyyətin həyatı, mübarizəsi və idealları həm mənsub olduğu xalqın, ölkənin tarixində və taleyində, həm də geniş mənada dünyanın siyasi-tarixi gedişatında mühüm yer tutmuşdur.**

XX əsrin ikinci yarısından sonrakı Azərbaycanın və SSRİ-nin siyasi-tarixi proseslərini Heydər Əliyev faktorundan bəhs etmədən obyektiv və tam halda izah və əhatə etmək mümkün deyildir. Həm Azərbaycan Respublikasının və həm də Sovet İttifaqının dünyanın aparıcı dövlətləri, siyasi müttəfiqləri, qonşu ölkələr, dost xalqlarla əlaqələrində görkəmli dövlət xadimi Heydər Əliyevin iştirakı, münasibəti, mövqeyi, əməli addımları, baxışları xüsusi yer tutmuşdur. Beləliklə, ölkəsində milli iftixar mənbəyi və əsl xilaskar səviyyəsində ümumxalq ehtiramı qazanmış ulu öndər Heydər Əliyev SSRİ miqyasında görkəmli dövlət xadimi kimi və beynəlxalq miqyasda böyük siyasətin qrossmeysterlərindən biri olaraq qəbul edilən nəhəng simalardandır.

SSRİ dağıldıqdan sonra sovet rəhbərlərinin, Siyasi Büro üzvlərinin əksəriyyətinin müstəqillik qazanmış Rusiya Federasiyasının və ya mənsub olduqları keçmiş müttəfiq respublikaların, yaxud beynəlxalq təşkilatların siyasətində, idarəetməsində nəzərəçarpacaq səviyyədə təmsil oluna bilməmələri az sonra onların unudulub getmələrinə səbəb olmuşdur. Heydər Əliyev isə böyük çətinliklərdən, maneələrdən keçərək xalqın tələbi ilə yenidən böyük siyasətə qayıtmış, müstəqillik epoxasının da dünya miqyasında əsas simalarından biri olmuş, Azərbaycan xalqının Ümummilli lideri səviyyəsinə yüksəlmişdir. Haqlı olaraq Heydər Əliyev obrazlı şəkildə "Zəmanəmizin qəhrəmanı" adlandırılmışdır. Bununla da Heydər Əliyev dünya miqyasında və mənsub olduğu xalqın tarixində və yaddaşında qüdrətli dövlət xadimi kimi əbədi yaşamaq haqqı qazanmışdır. Bütün bunlara görə görkəmli dövlət xadimi və böyük siyasətçi Heydər Əliyevin müdrik siyasəti, zəngin təcrübəsi, dönməz iradəsi, böyük idealları və mübarizəsi tarixin sınaqlarından çıxmış dərsləri kimi daim öyrəniləcək, tədqiq olunacaq, ölkələrin və xalqların irəliyə doğru inkişafına işıq saçacaqdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halı ilk növbədə mənsub olduğu xalqın tarixinin və həm də XX əsrin ikinci yarısından XXI əsrin əvvəllərinə qədərki ümumdünya salnaməsinin parlaq səhifəsidir. Heydər Əliyevin mənalı və keşməkeşli ömür yolu və müstəqil dövlətçilik idealları, mübarizəsi Azərbaycan xalqı üçün əsl milli dövlətçilik məktəbi, azərbaycançılıq dərsləridir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Atası Əlirza Kərbəlayi Cəfər oğlu Əliyev Bakıda və Naxçıvan şəhərində dəmir yolu nəqliyyatında çalışmışdır. Anası İzzət xanım Əliyeva evdar qadın olmuş və böyük ailənin qayğısını çəkmişdir. Bu ailə Azərbaycan dövlətçiliyinə, elm, maarif və mədəniyyətimizə görkəmli simalar bəxş etmişdir. Əliyevlər ailəsini təmsil edən görkəmli elm xadimi, akademik Həsən Əliyev (1907-1993), Xalq rəssamı Hüseyn Əliyev (1911-1991), Əməkdar müəllim Şəfiqə Əliyeva (1930-2008), AMEA-nın müxbir üzvü Aqil Əliyev (1926-2006), akademik Cəlal Əliyev (1928-2016) və akademik Rəfiqə Əliyeva (1932-2017) istər ölkəmizdə və istərsə də onun hüdudlarından kənarda tanınan görkəmli şəxsiyyətlərdirlər.

Heydər Əliyevin orta məktəb dövrü haqqında az məlumat vardır. Lakin artıq məlumdur ki, Heydər Əliyev Naxçıvan şəhərindəki 1 saylı Beynəlmiləl orta məktəbdə oxumuş və orada yeddinci sinfi bitirənədək təhsil almışdır. Ulu öndərin orta məktəb illəri haqqında dediyi aşağıdakı fikirlər onun Naxçıvan şəhər 1 saylı Beynəlmiləl məktəbində aldığı təhsil və ona dərs demiş müəllimlər haqqında real təsəvvür yaradır: "Tez-tez məndən soruşurlar ki, gənc vaxtlarından ən çox hörmət etdiyiniz adamlar kimlərdir? Həmişə cavab vermişəm ki, orta məktəbdə mənə dərs deyən müəllimlər. Mənim müəllimlərim daha çox olubdur. Mənə çox müəllimlər, alimlər dərs deyiblər… Ancaq Naxçıvanda orta məktəbdə oxuyarkən müəllimlərimdən aldığım bilik, tərbiyə və təəssürat qəlbimdə daim yaşayır. O müəllimlərin hər birinin siması bu gün mənim gözümün qabağındadır".

"Hər birinin siması" onun üçün əziz olan orta məktəbin müəllimləri arasından Heydər Əliyev Naxçıvan şəhər 1 saylı Beynəlmiləl orta məktəbində ona Azərbaycan dili və ədəbiyyat fənnindən dərs demiş görkəmli romantik şair Hüseyn Cavidin böyük qardaşı Məhəmməd Rasizadənin xidmətlərini yüksək qiymətləndirmişdir: "Çox yaxşı müəllim idi. Son dərəcə tələbkar idi, bizi çox sıxışdırırdı, amma yaxşı da öyrədirdi. Bizə Azərbaycan dili və ədəbiyyatdan dərs deyirdi. Sonra iş elə gətirdi ki, mən uzun illər əsasən rus dilini işlətdim. Dövlət Təhlükəsizlik Komitəsində işləyəndə də, Mərkəzi Komitədə olanda da rus dili aparıcı idi. Moskvada yalnız rusca danışıb, rusca yazırdım. Əgər bütün bunlardan sonra mən Azərbaycan dilində səlis, rəvan danışmaq, yazmaq vərdişlərini yadırğamamışamsa, bunun səbəblərindən biri müəllimim Şeyx Məhəmməddən aldığım dil və ədəbiyyat tərbiyəsidir".

Heydər Əliyev 1936 – 1939-cu illərdə Naxçıvan Pedaqoji Məktəbində təhsil almışdır. Müəllimlik ixtisası qazanmaq üçün o, bütün fənləri dərindən öyrənmiş müəllimlərinin və tələbə yoldaşlarının böyük rəğbətini qazanmışdır. Naxçıvan Pedaqoji Məktəbində Heydər Əliyev istedadı, mütaliəsi və bacarığı ilə tələbə yoldaşlarından fərqlənmişdir. Onunla eyni vaxtda Naxçıvan Pedaqoji Məktəbində təhsil almış Zərqələm Əliyevanın dedikləri Heydər Əliyevin gənclik illərindən müstəsna qabiliyyəti ilə diqqəti cəlb etdiyini göstərir: "Bizim hərbi rəhbərimiz Akim Abbasov (sonralar general-mayor oldu) deyirdi ki, Heydər gələcəyin ən böyük hərbçisi, general, marşal olacaq.



Lətif Hüseynzadə (Azərbaycan dili və ədəbiyyat müəllimi – İ.H.) isə deyirdi ki, Heydər, sən gələcəyin dahi şəxsiyyətlərindən olacaqsan, hamı səninlə fəxr edəcək. Yəni Heydər Əliyevin böyüklüyü, qeyri-adiliyi elə o vaxt da hamının diqqətini çəkirdi… Heydərdə bənzərsiz rəhbərlik, liderlik xüsusiyyəti var idi".

Naxçıvan Pedaqoji Məktəbində Heydər Əliyev müəllimlik peşəsinə yiyələnməklə bərabər, həm də dram və rəsm dərnəyində də fəal iştirakı bu sahələrdə də yüksək qabiliyyətə malik olduğunu nümayiş etdirmişdir. Onun çəkdiyi rəsmlərdən biri hazırda Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində mühafizə olunur. Naxçıvan Pedaqoji Məktəbində keçirilən rəsm müsabiqəsində Heydər Əliyev böyük rus şairi Aleksandr Puşkinin əsərlərinə çəkdiyi illüstrasiyalara görə birinci yeri tutmuşdur. Bundan başqa, Heydər Əliyev Naxçıvan Dram Teatrının rejissoru İbrahim Həmzəyevin rəhbərlik etdiyi dram dərnəyində Xalq şairi Səməd Vurğunun tamaşaya qoyulmuş "Vaqif" dramında Qacar rolunu məharətlə ifa etmişdir. Bütün bunlara görə, Ulu öndər özü də dünyagörüşünün formalaşmasında, gələcəyə baxışlarında Naxçıvan Pedaqoji Məktəbinin və orada dərs deyən müəllimlərin mühüm rol oynadığını həmişə minnətdarlıq hissi ilə qeyd etmişdir: "O dövrdə aldığım təhsil gələcək həyatının bütün mərhələlərində mənə yardım edibdir".

Heydər Əliyev Naxçıvan Pedaqoji Məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. O, Şahbuz rayonunun Qışlaq kənd məktəbinə təyinat almış, burada cəmisi 2-3 ay müəllim işləmişdir. Bundan sonra Heydər Əliyev 1939-cu ildə qəbul imtahanlarından əla qiymətlər alaraq, Azərbaycan Sənaye İnstitutunun (indiki Neft və Sənaye Akademiyasının – İ.H.) Memarlıq fakültəsinə daxil olmuş və ailəsinin maddi çətinliklərinə görə birinci kursu bitirib, lakin təhsilini davam etdirməyərək, Naxçıvana qayıtmışdır. O, Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının 15 oktyabr 1941-ci il tarixli əmri ilə Naxçıvan Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsində işə qəbul edilmişdir. Təxminən 7 aya yaxın bu vəzifədə işləyən Heydər Əliyevə Naxçıvan Mərkəzi Dövlət Arxivinin Məxfi şöbəsinin müdiri vəzifəsində işləmək etibar olunmuşdur. Az keçməmiş, o, 14 iyul 1943-cü il tarixdən Naxçıvan MSRP Xalq Komissarları Sovetinin Ümumi şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir.

Gənclik illərindən dövlət təhlükəsizlik orqanlarında işə başlayan Heydər Əliyev 1944-cü ilin may ayından etibarən rəsmi olaraq leytenant rütbəsi almaqla Naxçıvan MSSR Təhlükəsizlik Nazirliyində işə başlamışdır. Əməliyyat işçisi kimi o, muxtar respublikanın İranla sərhəd ərazilərinə nəzarət etmiş, həmin illərdə Cənubi Azərbaycanda gedən prosesləri izləmiş, bu sahə üzrə xüsusi tapşırıqları bacarıqla yerinə yetirmişdir. Göstərdiyi bacarığa görə Heydər Əliyev Naxçıvan MSSR Təhlükəsizlik Nazirliyinin şöbə rəisi vəzifəsinə irəli çəkilmiş, baş leytenant rütbəsi almışdır. Peşə bacarığı və ictimai fəallığı nəzərə alınaraq, Heydər Əliyev 1945-ci ildə Kommunist Partiyası sıralarına daxil edilmişdir. O, SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqrad şəhərindəki Ali Əməliyyat İşçilərinin Hazırlıq Məktəbində ixtisas təhsili almış, 1950-ci ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Təhsili başa çatdıran kimi Heydər Əliyev Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi vəzifəsində fəaliyyətini davam etdirmişdir.



Xüsusi qabiliyyətləri ilə diqqəti cəlb edən Heydər Əliyev 1950-ci ilin avqust ayından etibarən mərkəzi təşkilata keçirilərək, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyində fəaliyyətə başlamışdır. O, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 2-ci şöbəsinin 6-cı bölməsinin rəisi vəzifəsində nümunə göstərmişdir. Heydər Əliyev, eyni zamanda, 1951-1957-ci illərdə Azərbaycan Dövlət Universitetində tarix ixtisası üzrə qiyabi ali təhsil almış, universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

Azərbaycan Dövlət Universitetində onunla eyni qrupda oxumuş Dövlət Məmmədovun xatirələrindən öyrənirik ki, Heydər Əliyev bu ali təhsil ocağında da "qrupun liderinə çevrilmiş, …bütün universitetdə nüfuz qazanmışdır".

Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin məsul əməkdaşı kimi həm ölkə daxilində, həm də xaricdə bir sıra dövlət əhəmiyyətli tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirmişdir. Ona görə də qısa müddətdə irəli çəkilərək, 1958-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

O, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyat işi sahəsində mühüm dəyişiklərin edilməsinə nail olmuş, bir çox dövlət əhəmiyyətli tapşırıqları böyük bacarıqla yerinə yetirərək, əsl peşəkar kadr kimi tanınmışdır. Bu məsuliyyətli sahədəki mühüm xidmətləri nəzərə alınmaqla 1959-cu ildə II dərəcəli "Nümunəvi xidmətə görə" medalı, 1960-cı ildə isə "DTX-nın Fəxri əməkdaşı" medalı ilə təltif olunmuşdur. Bundan başqa, 26 may 1962-ci ildə "SSRİ-nin Dövlət təhlükəsizliyinin təmin edilməsində xidmətlərinə görə" dövrün mühüm təltiflərindən olan "Qırmızı Ulduz" ordeninə layiq görülməsi ilə onun artıq Dövlət Təhlükəsizlik Xidməti üzrə Sovet İttifaqı səviyyəsində yüksək professional qabiliyyətlərə malik kadr kimi qəbul olunduğunu nümayiş etdirirdi. Bunun ardınca gənc kəşfiyyatçının 1964-cı ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanına layiq görülməsi də Heydər Əliyevin çətin və məsuliyyətli iş sahəsindəki mühüm xidmətlərinə verilən yüksək qiymətin ifadəsi olmaqla yanaşı, həm də ona göstərilən etimadın da ifadəsi idi.

Heydər Əlirza oğlu Əliyev 2 mart 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini təyin olunmuşdur. Bununla Heydər Əliyev azərbaycanlıların da dövlət təhlükəsizliyi xidməti sahəsində yüksək vəzifə tutmasına yol açmışdır. O, 1964-1967-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışaraq, bu mühüm strukturda azərbaycanlıların şəbəkəsini genişləndirmiş və onların rolunu artırmışdır. Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsi anti-Azərbaycan qüvvələrdən təmizlənmiş və əsl peşəkar kadrlarla möhkəmləndirilmişdir. Bu mənada göstərdiyi xüsusi xidmətlərə görə 1964-cü ildə "Nümunəvi xidmətə görə" medalı, 1965-ci ildə isə "1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 20 illiyi" yubiley medalı ilə təltif olunması







və polkovnik hərbi rütbəsi alması Heydər Əliyevin pillə-pillə yüksəlişində mühüm addımlara çevrilmişdir. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Moskvadakı F. Dzerjinski adına Ali Məktəbində 1966-cı ilin fevral-may aylarında rəhbər kadrların təkmilləşdirilməsi kursunda iştirak etməsi də onun daha yüksək nomenklatura üçün nəzərdə tutulduğunu büruzə verən əhəmiyyətli faktdır.

Bütün bunlardan sonra Heydər Əlirza oğlu Əliyevin 1967-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə təyin edilməsi həm Sovet İttifaqı miqyasında və həm də respublikada onun böyük nüfuza malik olduğunu aşkar şəkildə nümayiş etdirmişdir. Xüsusən, nəzərə alsaq ki, sovet hakimiyyətinin qurulduğu dövr ərzində Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində sədr vəzifəsinə təyinat alan ilk azərbaycanlı idi, onda bu təcrübəli və bacarıqlı şəxsiyyətin nəyə nail olduğunu daha aydın şəkildə təsəvvür etmək olar.

Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə yüksəlməsi ilə sovet hakimiyyəti illərində xalqımıza bəslənilən ehtiyatlı münasibəti aradan qaldırmağa, SSRİ ilə yanaşı, respublikamızın və xalqımızın da mənafeyinə də xidmət etməsinə nail olmuşdur. Bununla Heydər Əliyevin həyatının yeni yüksəliş dövrü başlamışdır.

**(ardı var)**

# Heydər Əliyev və hüquqi dövlət quruculuğu



**Azərbaycan polisi öz tarixi kökləri, keçdiyi şərəfli yol və bugünkü fəaliyyəti ilə dövlətin hüquqi dayaqlarından biri kimi hər zaman mühüm rol oynayıb. Xüsusilə müstəqillik illərində ölkədə ictimai asayişin qorunması, cinayətkarlığa qarşı mübarizə, ərazi bütövlüyünün müdafiəsi və dövlətçiliyin möhkəmləndirilməsində polis orqanlarının əvəzsiz xidmətləri xüsusilə diqqət çəkib. Bu sistemin formalaşması, güclənməsi və təkmilləşməsində isə ümummilli lider Heydər Əliyev misilsiz fəaliyyət göstərib.**

**Daxili İşlər Nazirliyi, polis Azərbaycan dövlətçiliyinin keşiyində durub, bundan sonra da duracaqdır. Bir daha deyirəm, mən Azərbaycan Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

Ölkəmizdə polis sisteminin əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulsa da, onun dövlətçiliyin əsas sütunlarından birinə çevrilməsi, bu sahədə möhkəm nizam-intizamın, yüksək peşəkarlığın bərqərar olunması Ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci mərhələsinin (1969-1982-ci illər) ilk vaxtlarından başlayıb. Bu dövrdə daxili işlər orqanları təşkilati və ideoloji cəhətdən möhkəmləndirilib, şəxsi heyətin milli ruhda formalaşdırılması diqqət mərkəzində saxlanılıb.

1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin müdrik siyasəti ilə polisin fəaliyyətində yeni bir inkişaf mərhələsi başlanıb və kadrların peşəkarlığının artırılmasına, bu sahədə hüquqi və institusional islahatların davamlı xarakter almasına önəmli amillər kimi yanaşılıb. Bu prosesdə Daxili İşlər Nazirliyi və ona tabe qurumların yenidən təşkili, peşəkar kadrların hazırlanması və polis sistemində hüquqi və institusional islahatların keçirilməsinə xüsusi yer verilib. Məhz dahi şəxsiyyətin təşəbbüsü ilə 2 iyul – Azərbaycan Polisi Günü kimi təsis olunub və bu tarix dövlət tərəfindən rəsmi qeyd olunmağa başlanıb. Bu, həm də polisə göstərilən yüksək etimadın və dəyərin simvoluna çevrilib.

Onu da qeyd edim ki, müstəqilliyin ilk illərində respublikamız siyasi, sosial-iqtisadi problemlərlə üzləşmişdi, ölkədə hakimiyyət uğrunda gedən mübarizə vətəndaş qarşıdurmasına gətirib çıxarmışdı, sabitlik, əmin-amanlıq pozulmuşdu. Qarabağ savaşının başlanması isə çətinlikləri daha da ağırlaşdırmış, nəticədə xarici qüvvələrin dəstəklədiyi Ermənistanın Azərbaycana qarşı təcavüzü genişlənmişdi.

O dövrdə torpaqlarımızın qorunması üçün nizami ordu yox idi. Azərbaycan daxilində hökm sürən hərc-mərclik isə belə bir ordunun yaradılmasını çətinləşdirirdi. Ona görə də yeganə ümid polisin qüvvəsindən yararlanıb qanunsuz silahlı dəstələrlə mübarizə apararaq həm ictimai-siyasi sabitliyi möhkəmləndirmək, həm də ön cəbhədə erməni faşizminə qarşı vuruşub hücumun qarşısını almaq idi.

Bəli, o ağır illərdə Azərbaycan polisi həm torpaqlarımızı erməni faşizmindən mərdliklə, cəsarətlə qoruyur, həm də ölkə daxilində sabitliyi, əmin-amanlığı bərqərar edirdi. Dahi şəxsiyyət respublika rəhbərliyinə yenidən qayıdandan sonra isə nizami ordunun yaradılmasını diqqət mərkəzində saxlamaqla, bu istiqamətdə ciddi islahatlar gerçəkləşdirməklə bərabər, eyni zamanda, hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının sıralarının saflaşdırılmasına, dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılmasına, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsinə xüsusi önəm verdi.

Bu məqamda fikrimin təsdiqi məqsədilə bir tarixi faktı xatırlatmaq istərdim. Belə ki, Heydər Əliyev 1994-cü il aprelin 29-da Daxili İşlər Nazirliyinin rəhbər heyətinin iştirakı ilə keçirilən müşavirədə xidməti fəaliyyətdə yol verilən nöqsanları açıq şəkildə diqqətə çatdırdı, çatışmazlıqların qısa bir zamanda aradan qaldırılması üçün dəyərli tapşırıq və tövsiyələrini verdi.

Eyni zamanda, Ümummilli liderin, 1994-cü ilin avqust ayında imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərman isə polis orqanlarında təşkilati-hüquqi bazanın əsasını qoydu. Bundan sonra "Polis haqqında" "Əməliyyat-axtarış fəaliyyəti haqqında" (28.10.1999-cu il) qanunlar, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında" (30.06.2001-ci il) və "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" (18.07. 2001-ci il) Əsasnamələr qəbul edildi.

Bu məqamda mühüm bir tarixi hadisəni də xatırlatmaq istərdim. Ulu öndər 1921-ci ilin sentyabrın 28-də Bakı Milis Məktəbi kimi təsis edilən, 1957-ci il fevralın 23-də Bakı Xüsusi Orta Milis Məktəbi kimi fəaliyyətini davam etdirən bu təhsil müəssisəsinin bazasında 1992-ci il mayın 23-də Azərbaycan Polis Akademiyasının yaradılmasına nail oldu. Bununla da, respublikada polis sisteminin beynəlxalq səviyyəyə yüksəlməsi, daxili işlər orqanlarında kadr siyasətinin yenilənməsi istiqamətində böyük əhəmiyyətə malik uğurlu bir addım atıldı.

Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdışından sonra polis sistemində möhkəm hüquqi baza yaratmaqla bərabər, "Daxili İşlər Nazirliyinin hər bir əməkdaşının sosial müdafiəsini təmin etməliyik. Bu əməkdaşlar, ilk növbədə, öz vəzifə borclarını şərəflə yerinə yetirməlidirlər, ikinci növbədə isə onların mənafeyi müdafiə olunmalıdır" – deməklə daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsini də diqqət mərkəzində saxlayır, onların problemlərinin həllinə həssaslıqla yanaşırdı. Məhz bu sistemdə fəaliyyət göstərənlərin sosial müdafiəsinin gücləndirilməsi, onların xidmət şəraitinin yaxşılaşdırılması, yeni informasiya texnologiyalarının tətbiqinin gerçəkləşdirilməsi məqsədilə 1993-cü illə müqayisədə 2003-cü ildə Daxili İşlər Nazirliyi büdcəsinin 6 dəfə artması da bunun bariz ifadəsi idi.

Nazirlik sistemində şəxsi heyətin sosial müdafiəsinə yönələn tədbirlər haqqında danışarkən bir faktı da qeyd etmək yerinə düşərdi. Belə ki, 1996-2002-ci illərdə vəzifə və rütbəyə görə maaşların artırılması ilə baglı 5 sərəncam imzalandı, dövlətçiliyin qorunmasında, cinayətkarlıga qarşı mübarizədə xüsusi xidmətlərinə, göstərdikləri igidlik və xidməti borca sədaqətə görə yüzlərlə polis əməkdaşı yüksək dövlət mükafatlarına, habelə ali xüsusi rütbələrə layiq görüldü.

Yeri gəlmişkən, burada diqqətçəkən bir məqamı da qeyd etmək yerinə düşərdi. Belə ki, erməni faşizmi Azərbaycana qarşı işğalçılıq siyasəti yürütdüyü ilk vaxtlardan, başqa sözlə, 1988-ci ildən etibarən qəsbkarın respublikamıza yönələn hərbi təcavüzü başlayanda əvvəlcə polis (o zaman milis) qüvvələri, daha sonra isə Daxili Qoşun hissələri səfərbərliyə alındı. Azərbaycan polisi düşmənlə döyüşlərdə mərdlik, qəhrəmanlıq nümayiş etdirdi.

Hazırkı dövrdə isə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə hüquq – mühafizə sistemi daha da təkmilləşdirilib. Beynəlxalq standartlara cavab verən mükəmməl infrastruktura və müasir maddi-texniki bazaya malik polis sistemi vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanına çevrilib. Bu inkişaf və modernləşmə insanların qanunla qorunan hüquq və mənafelərinin etibarlı müdafiəsinə, cinayətkarlığa qarşı mübarizəyə yönləndirilib.

Ötən müddətdə Daxili İşlər Nazirliyi struktur baxımından müasirləşdirilib, polis əməkdaşlarının sosial müdafiəsi gücləndirilib, informasiya texnologiyalarının tətbiqi genişləndirilib. Bütün bunlar, təbii ki, hüquqi dövlətin möhkəmlənməsi, ictimai təhlükəsizliyin və vətəndaş rifahının təmin olunmasında əhəmiyyətli rol oynayır.

Xüsusilə 44 günlük Vətən müharibəsində Azərbaycan polisi həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq, şücaət və fədakarlıq göstərdi, çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirərək düşmənin yüzlərlə canlı qüvvəsini və döyüş texnikasını məhv etdi, misilsiz qəhrəmanlıq salnaməsi yaratdı. 30 il işğal altında saxlanılan torpaqlarımızın qəsbkardan xilas olunması naminə döyüşlərdə şücaət göstərən Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla müxtəlif orden və medallara, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü. 2023-cü il sentyabrın 19-da Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin başladığı lokal xarakterli antiterror tədbirləri zamanı isə qarşıya qoyulan tapşırıqların mərdliklə yerinə yetirilməsində polis əməkdaşları tərəfindən yüksək peşəkarlıq göstərildi.

Azərbaycan polisi hazırda təkcə daxili sabitliyin təminatçısı deyil, həm də beynəlxalq təhlükəsizlik sisteminin fəal iştirakçısına çevrilib. İnterpol, Europol və digər qurumlarla əməkdaşlıq nəticəsində transmilli cinayətkarlıq, terrorçuluq, insan alveri və narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində mühüm nəticələr əldə olunub.

Yeni dövrün çağırışlarına uyğun olaraq, Daxili İşlər Nazirliyi e-xidmətlər, şəffaf idarəçilik və vətəndaş məmnunluğuna yönələn sistemləri geniş tətbiq edir. "ASAN xidmət" modelinə uyğunlaşdırılmış proseslər, ictimai nəzarət və hesabatlılıq prinsipləri müasir hüquq-mühafizə modelinə keçidi gerçəkləşdirir.

Azərbaycan polisi bu gün peşəkarlığı, vətənpərvərliyi və insanlara nümunəvi xidmət prinsipi ilə tanınır, müstəqil Azərbaycanın təhlükəsizliyinin təminatında önəmli rolu ilə diqqət çəkir. Ölkə rəhbərliyinin göstərdiyi davamlı diqqət və qayğı nəticəsində polis sisteminin güclü, çevik və müasir çağırışlara cavab verən qurum olaraq nüfuzu getdikcə güclənir. Bir sözlə, Azərbaycan polisinin keçdiyi bu yol həm şərəfli keçmişi, həm də etibarlı gələcəyi özündə ehtiva edir.

***Elnur MEHDİYEV,***
***polis polkovniki***

# Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru" mövzusunda tədbir keçirilib.**



Tədbirdə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni səsləndirilib.

YAP Sədrinin müavini, Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında qeyd edib ki, güclü dövlətçiliyin və siyasi varisliyin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun rəhbərliyi ilə qəbul olunmuş ilk Konstitusiya müasir Azərbaycanın hüquqi əsaslarını formalaşdırıb. Prezident İlham Əliyevin liderliyi isə bu siyasi irsi davam etdirərək ölkəmizin ərazi bütövlüyünün bərpasına, regional güc mərkəzinə çevrilməsinə imkan verib.



Azərbaycan Milli Elmlər Akademiyasının professoru, YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov vurğulayıb ki, 1969-cu ildən başlayan liderlik dövrü ölkənin hərtərəfli inkişafına təkan verdi. Ulu öndərin SSRİ dövründə və müstəqillik illərində həyata keçirdiyi siyasi kurs Azərbaycana sabitlik, iqtisadi dirçəliş və beynəlxalq nüfuz qazandırdı. 1993-cü ildə xalqın təkidli çağırışı ilə yenidən hakimiyyətə qayıdışı isə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində dönüş nöqtəsi oldu.

Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan zabit Amil Sefiyev çıxışında qeyd edib ki, Heydər Əliyevin qurduğu dövlətçilik sistemi, İlham Əliyevin qətiyyəti və Azərbaycan xalqının milli həmrəyliyi Zəfərlə nəticələndi. O, özünün döyüş iştirakçısı olduğunu xatırladaraq, gənc nəslin və partiya üzvlərinin həm cəbhədə, həm informasiya savaşında ön sırada olduğunu bildirib.

YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova isə çıxışında gəncliyin Heydər Əliyev ideyalarına sadiqliyindən, şəhid gənclərin örnək həyatlarından danışaraq qeyd edib ki, bu ideyalar Azərbaycan gəncliyinin milli özünüdərki və gələcək quruculuq yoluna işıq tutur.

***XQ***

# Ulu öndərin multikulturalizm və tolerantlıq ideologiyası

**Azərbaycan Dillər Universitetində (ADU) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" VIII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.**






ADU-nun rektoru, akademik Kamal Abdulla qeyd edib ki, "Ulu öndər Heydər Əliyevin işığı bu gün də bizimlədir. Belə tarixi şəxsiyyətlər heç vaxt unudulmurlar, onlar mənsub olduğu xalqların, eləcə də bütün bəşəriyyətin qəlbində əbədi yaşayırlar. Heydər Əliyev məhz belə xoşbəxt siyasətçilərdən idi!"

Ankara Universitetinin rektoru Necdet Ünüvar, Pakistan Milli Müasir Dillər Universitetinin rektoru, general-mayor Şahid Mahmud Kayani, Peruca Əcnəbilər Universitetinin rektoru Valerio de Cesaris, Pakistanın ölkəmizdəki səfiri Qasım Mohiuddin, tədbirə onlayn qoşulan Almaniyanın Auqsburq Universitetinin professoru Klaus Vulf Heydər Əliyevin dünya siyasətində silinməz iz qoymuş dahi siyasətçilərdən olduğunu vurğulayıblar.

Konfransda Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, Arzu Nağıyev, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Özbəkistan Dünyəvi Dillər Universitetinin kafedra müdiri Dusmurod Djuraev və başqaları Heydər Əliyevin şərəfli ömür yolunun siyasi irsinin zənginliyindən söhbət açıblar.

***Ana TURAN***
***XQ***

# “Sədd”ini yıxıb keçdik, Ohanyan!

## İrəvanda düşmən siyasətçiləri separatizm birləşdirir

**Ermənistanın daxili siyasətini ziqzaqvarı adlandıranlar qətiyyən yanılmırlar. Bu ölkənin nə hakimiyyətinin, nə də müxalifətinin ardıcıl, sabit siyasi xətti var. Əgər bu iki düşərgənin məhz diplomatik müstəvidə dəyişməz bir göstəricisi varsa, o da işğalçılığa meylin, “böyük Ermənistanın” sərhədlərini cızmağın, revanşist xəyalların hələ də beyinlərindən silinməməsidir.**



O ki qaldı, sülh istəyi, qonşularla yaxın münasibətlərin qurulması meyillərinə, o zehniyyətdə bunların yeri görünmür. Bir ölkənin ki, bütün müstəvilərdə nümayiş etdirdiyi ikiüzlü, təxribatçı hərəkətləri qonşular üçün təhlükə mənbəyinə çevrilir, o cəmiyyət üçün sülhün də arxa plana keçməsi təəccüblü deyil. İqtidarlı-müxalifətli Ermənistan dünya birliyinə özünü sülhpərvər, bölgənin “aborigen xalqı” olduğunu car çəkməklə bütün günahları qonşuların, konkret olaraq, Azərbaycanın ayağına yazmaqla məşğuldur. Elə daxildəki siyasi ab-hava da buna köklənib.

“Qarabağ klanı” Paşinyana qarşı revanşa hazırlaşdığını və arsenalında olan bütün vasitələri işə saldığını gizlətmək belə istəmir. Son vaxtlar “demokratik” (“Sərhədsiz reportyorlar” təşkilatı söz azadlığı indeksində Ermənistanı bölgənin “ən azad və demokratik ölkəsi” kimi göstərib – red.) Hayastanın yazılı və elektron “azad” mediası bu klanın nümayəndələrinə, deputatlarına səxavətlə yer ayırır. Artıq qəzet səhifələrində və onlayn mediada ehtiyatla ölkənin növbəti rəhbərinin adları müzakirə olunmağa başlanılıb. Proseslərin bu şəkildə davam etməsi Paşinyanın istefası və ya devrilməsinə doğru apara bilər.

*

Qoca diplomat Vardan Oskanyanın sərsəm açıqlamaları soyumamış Ermənistanın keçmiş müdafiə naziri, parlamentdəki “Ermənistan” fraksiyasının lideri Seyran Ohanyan mikrofonu ələ keçirib. Qarabağ ermənisi Seyran deyir ki, Azərbaycanla müharibəyə səbəb Ermənistanın indiki rəhbərliyinin əməlləri olub. Bu iqtidarı “diplomatik varisliyi” məhv etdiyini bildirən Ohanyan bununla Azərbaycana İrəvandakı hakimiyyətin zəifliyini və qeyri-kafiliyini göstərdiyini ərz edib. Onun sözlərinə görə, Nikol Paşinyan hökuməti son 30 ildə danışıqlar prosesində toplanmış bütün “baqajı”, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin “səylərini” öz addımları ilə məhv edib.

“Diplomatik varislikdən” dəm vuran hay generalının diqqətinə bəzi məqamları çatdırmağa ehtiyac var. “Varislik” məsələsi Qarabağ klanının uydurması, fantaziyasıdır. Rəsmi Bakı əvvəldən Azərbaycanın ərazi bütövlüyünü təmin etməyən hər hansı planı rədd edirdi. Eyni zamanda, Qarabağda yaşayan ermənilərə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusu təklif edilmişdi. Amma bu təklifdən İrəvanda ardıcıl və sistemli şəkildə, həm də təkəbbürlə imtina olunurdu. Əgər ortada “miras” varsa, bu, Bakının Xankəndidəki separatçı rejimin “hökmdarlarının” təkəbbürlü inadından qıcıqlanması, Qarabağı geri qaytarmağın gücdən başqa yolunun qalmadığını başa düşməsidir. Təbii ki, bu “mirasa” Azərbaycan Ordusunun topladığı hərbi bacarıqları və müasir silahları da əlavə etsək, nəhayət, ədalətin bərpasının reallığa çevriləcəyi qaçılmaz idi.

Seyran Ohanyan Ermənistan hakimiyyətini sərhəddə vəziyyəti qəsdən gərginləşdirməkdə, o cümlədən Tovuz döyüşlərində (2020-ci ilin yayında Tovuz istiqamətində ermənilərin təxribatını nəzərdə tutur – red.) ittiham edib. Onun sözlərinə görə, Paşinyan bu hərəkətləri ilə Bakını münaqişənin hərbi yolla həllinin mümkünlüyünə inandırıb: “Azərbaycan başa düşdü ki, adekvat olmayan hökumətlə – nə özünü müdafiə edə, nə də danışıqlar apara bilən səriştəsiz rəhbərliklə üz-üzədir”. Bu məqamda Ohanyanın diqqətinə faktoloji dəqiqləşməni çatdırmalı olacağıq. Rəsmi Bakı, onun dediyi kimi, bu “kəşfiyyatı” 2020-ci ilin yayında deyil, 2016-cı ilin aprelində, Qarabağ klanının nümayəndəsi Serj Sarkisyanın Ermənistan prezidenti olduğu dövrdə həyata keçirib.

### Ekspert rəyi



*Fikrət SADIXOV,*
*Qərbi Kaspi Universitetinin professoru, politoloq*

– Separatçı Seyran Ohanyanın elementar diplomatiyadan xəbəri olsaydı, ən azı, Bakıda məhkəməsi davam edən erməniəsilli təqsirləndirilən şəxslərin ifadələrini dinləyər, yaxud oxuyar və belə səbatsız açıqlamalar verməzdi. Onda dediyi “diplomatik varisliy”in nədən ibarət olduğunu anlayardı. Birdəfəlik ləğv edilmiş “dqr” liderlərinin o zaman hansı işlərlə məşğul olduqlarını onların öz dilindən eşitməsi Ohanyanın gözündəki pərdəni qaldırardı. Qarabağda separatçı rejimin mövcud olduğu vaxt hansı “diplomatik varislik”dən söhbət gedə bilərdi?

ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr, eləcə də Qərbin bir sıra dövlətləri uzun müddət həmin separatçıların başlarını sığalladılar. Görünür, Azərbaycanın siyasi iradəsi, peşəkar diplomatik fəallığı, regional və beynəlxalq amilləri nəzərə alaraq, öz torpaqlarını öz gücü ilə işğaldan azad etməsi hay siyasilərin və hərbçilərin beyinlərində müəyyən təlatümlər yaradıb. Ohanyan bu reallığı çox yaxşı başa düşür, sadəcə, qəbul etməkdə çətinlik çəkir. Əgər söhbət ohanyanların mübarizə apardıqları Paşinyandan gedirsə, o da anlayış üçün heç bir şey etməyib. Əksinə, Xankəndidəki separatçı rejimə həm siyasi, həm hərbi, həm də maliyyə köməkliyi göstərib. Məhkəmədə bütün bunlar fakt və sübutlarla üzə çıxır. Yəni, 5 il bundan əvvəl Paşinyanın yerində həmin Ohanyan olsaydı belə hadisələrin axarı dəyişə bilməzdi. Azərbaycan gec-tez öz torpaqlarını işğalçılardan azad etməli idi və etdi. Nəticələr göz qabağındadır. Qarabağ ermənisi Seyran Ohanyan bu bəyanatı ilə başqa məsələlərə də toxunmağa çalışırsa, bu zaman özünü peşəkar diplomat kimi qələmə verməyə çalışmasın. Bizim üçün, o, əli dinc xocalıların qanına bulaşmış hərbi canidir. Hesab edirəm ki, vaxt gələcək, o da “Qarabağ klanı”nın rəhbərləri və üzvləri kimi Bakıda müttəhimlər kürsüsündə oturmalı olacaq. Məhkəmə isə onlar barəsində ədalətli hökmünü mütləq verəcək.

*

Əlahəzrət fakt onu da deyir ki, Aprel döyüşləri təkcə Azərbaycan üçün deyil, həm də dörd il sonrakı müharibədə müqavimətin mənasızlığını “kəşf edərək”, siyasi səhnədən geri çəkilməyə, hakimiyyəti “xalqın içindən gələn inqilabçı hərəkat”a təslim etməyə tələsən Sarkisyanın özü üçün də “kəşfiyyat döyüşü” oldu.

Topal Ohanyanın növbəti qənaətinə diqqət yetirək: “Əgər siyasi iradə və təşkilatçılıq olsaydı, Ermənistan və “Artsax”, heç olmasa, dağlıq və meşəlik ərazilərdə düşmənin irəliləyişini dayandıra bilərdi. Lakin hakimiyyət müdafiə olunmaq əvəzinə təxribatlara və hərəkətsizliyə əl atıb”. S.Ohanyanın bu şərhində, məlum olduğu kimi, bir hissəsi dağlıq və meşəlik ərazidən deyil, qarışıq, hətta düzənlikdən keçən müdafiə istehkamlarını nəzərdə tutduğu məlumdur. Görünür, Azərbaycan Ordusunun bir neçə yerdə, o cümlədən düzənlikdə asanlıqla üzə çıxardığı, onun özünün adını daşıyan “keçilməz müdafiə xətti”ni darmadağın etməsi faktı ilə “strateq-general” razılaşmaq istəmir. Əgər Ohanyan, doğrudan da, dağlıq və meşəlik ərazidəki üstünlüyündən danışmaq istəyirsə, onu da xatırladaq ki, Azərbaycanın bu cinahda da qələbəsi heç də erməni hərbçilərinin səhvləri ucbatından olmayıb. Bu qələbə Azərbaycan əsgərinin yüksək peşəkarlığı və qəhrəmanlığı sayəsində əldə olunub. Üstəlik, dağlıq və meşəlik ərazini yarmağın ilk presedenti 2016-cı ilin aprelində Lələtəpədə – yəni, Ermənistanda Qarabağ klanının hakimiyyətdə olduğu dövrdə baş verib. Ohanyan, nədənsə, bu faktı da nəzərə almır.

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci ilin noyabrında Koçaryanın, Sarkisyan ehtiyatsız cəfəngiyyatını qabaqcadan görərək demişdi: “Biz Koçaryanın, Sarkisyanın ordusunu məhv etdik. Onlar torpaqlarımızda hər şeyi məhv etdilər. Bu dəfə Qarabağ ərazisində üzlərini göstərməkdən çox qorxdular. Medallarını çıxarıb gizlətdilər. Hanı? Bu dəmir parçaları indi uzaq bir yerdədir. Biz sizi məğlub etdik! Sizi – Koçaryanı, Sarkisyanı, Azərbaycan xalqının cəlladlarını, Xocalı cəlladlarını məğlub etdik. Ordunuzu məhv etdik”.

Ola bilsin ki, Seyran Ohanyan Ali Baş Komandanımızın bu sözlərini unudub. Eybi yoxdu, bundan sonra ona bunu tez-tez xatırladırıq.

### Ekspert rəyi



*Tofiq ABBASOV,*
*siyasi şərhçi*

– Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan, sonra Robert Koçaryan, dalınca Serj Sarkisyan çox təhlükəli, mənfur risklərlə müşayiət olunan siyasət yürüdüblər. Məqsəd Azərbaycan torpaqlarının işğalını “əbədiləşdirmək”, dünya birliyinə özlərinin “tarixi torpaqlarına” qayıtdıqlarını göstərmək olub. Əlbəttə ki, Azərbaycan bu siyasətə özünün sərt və məntiqi cavabını verdi. Uzun müddət bu oyunlara, Minsk qrupunun sülhlə siyasi manipulyasiyalarına da göz yumurduq ki, təki dinc danışıqlar prosesi bir nəticə versin. Amma İrəvan sülhə apara biləcək bütün prosesləri çökdürdü və bölgədə təhlükəli və problemli vəziyyət yaratdı.

İndi Ermənistan siyasi isteblişmentinin gəlişigözəl ibarələri, hiyləgər tezisləri, pafosa bürünmüş vədləri, niyyətləri düşünülmüş təbliğatın elementləridir. Orada daxili ictimai-siyasətin gərildiyi, xaosun öz konturlarını göstərdiyi aşkardır. Və hakimiyyət uğrunda amansız mübarizənin başlanmasını müşahidə etməkdəyik. Qərbpərəst siyasətə “hə” deyən baş nazir Paşinyanı hakimiyyətdən uzaqlaşdırmağı hədəfləyən rusiyameyilli qüvvələrin daha da fəallaşması gözdən yayınmır. Bu qüvvələr “Ermənistanı Paşinyandan xilas etmək” kampaniyasına start veriblər. Onun yerini tutmaq istəyənlərin yenidən revanşizmi körükləndirəcəkləri gözlənilən ən neqativ perspektivdir. Bu yolla, guya, həm Qarabağı, həm də oranı tərk edənləri geri qaytarmaq barədə düşünürlər.

Aydın məsələdir ki, bunların hamısı xülyadır. Dünyada hamını aldada bilsələr də, bizimlə, bu, baş tutmayacaq. Daha onların oyunbazlıqlarına, bütün hiyləgər gedişlərinə yaxşı bələdik. Onu da bilirik ki, Qərbin bəzi dairələrində haylara züy tutanlar, Bakını Qarabağda “etnik təmizləmədə” ittiham edənlər var. “Könüllü tərketmənin” məqsədi elə bu imiş. Koçaryanların, sarkisyanların, ohanyanların dövrü arxada qalıb. Erməni xalqının ən düzgün seçimi sülhdür və Bakı buna alternativ görmür.

***İmran BƏDİRXANLI,***
***XQ***

# Qlobal güc paritetinin dəyişən koordinatları

## Posttransatlantik münasibətlər müstəvisində baxış

**(III məqalə)**



Avropa İttifaqı (Aİ) son illərdə dəyişən qlobal nizam, artan qeyri-müəyyənliklər və geosiyasi təzyiqlər fonunda öz gələcəyinə dair daha müstəqil və suveren yanaşma sərgiləməkdə qərarlıdır. Bu kontekstdə "strateji muxtariyyət" ideyası təkcə müdafiə deyil, həm də iqtisadi, texnoloji və diplomatik sahələrdə Aİ-nin özünü daha dayanıqlı və təsirli qlobal aktor kimi yenidən mövqeləndirməsinin ifadəsinə çevrilmişdir.

Avropa İttifaqının son illərdə daha qabarıq şəkildə vurğuladığı “strateji muxtariyyət” konsepsiyası təşkilatın qlobal arenada daha müstəqil, çevik və təsirli aktora çevrilmək istəklərinin bariz göstəricisidir. Bu ideya təkcə təhlükəsizlik və müdafiə sahəsində deyil, həm də iqtisadi, texnoloji və diplomatik sahələrdə Aİ-nin xarici təsirlərə qarşı dayanıqlığını artırmaq, daxili vahidliyi gücləndirmək və qlobal aktor kimi rolunu möhkəmlətmək niyyətini əks etdirir. Ənənəvi olaraq, ABŞ-ın təhlükəsizlik çətiri altında fəaliyyət göstərən Aİ üçün bu yanaşma geosiyasi müstəqilliyin və strateji məsuliyyətin təşəkkülü baxımından fundamental bir dönüş nöqtəsidir.

Strateji muxtariyyət ideyasının formalaşmasına və populyarlaşmasına səbəb olan bir neçə mühüm amil mövcuddur. Birincisi, ABŞ-ın qlobal liderlik modelindəki dəyişikliklər və müttəfiqləri ilə münasibətlərindəki qeyri-müəyyənliklər Avropada təhlükəsizliklə bağlı narahatlıqları artırmışdır. Xüsusilə, Donald Trampın prezidentliyi dövründə NATO-ya olan skeptik münasibət, Avropa ölkələrinin “yetərincə töhfə vermədikləri” ittihamları və ABŞ-ın birtərəfli qərarları Aİ liderləri üçün strateji suallar doğurmuşdur: Avropa ABŞ olmadan öz təhlükəsizliyini təmin edə bilərmi? Vaşinqtonun dəyişkən xarici siyasəti fonunda Avropa nə dərəcədə dayanıqlıdır?

Bu sualların fonunda Aİ-nin daxili debatlarında “strateji muxtariyyət” ideyası tədricən əsas diskurslara çevrildi. Avropa Komissiyası və Avropa Xarici Fəaliyyət Xidməti dəfələrlə qeyd etmişdir ki, Avropa öz təhlükəsizliyinin təminatçısı olmaqla yanaşı, rəqəmsal texnologiyalar, enerji təhlükəsizliyi, tədarük zəncirləri və səhiyyə kimi sahələrdə də öz suverenliyini artırmalıdır.



Fransa prezidenti Emmanuel Makron bu diskussiyaların ön sıralarında yer alan liderlərdən biridir. Onun "Avropa ordusu" fikri yalnız hərbi potensialın artırılması ilə deyil, həm də Aİ-nin beynəlxalq məsələlərdə vahid və suveren təhlükəsizlik aktoru kimi çıxış etməsi ilə bağlıdır. Makronun bu çağırışı ABŞ-dan asılılığın tədricən azaldılması və NATO ilə paralel şəkildə fəaliyyət göstərə biləcək bir avro-sentrik təhlükəsizlik arxitekturasının qurulması ideyasına əsaslanır. O, Avropanın “geosiyasi yetkinlik” mərhələsinə keçməsi üçün təhlükəsizlikdə daha çox məsuliyyət daşımalı olduğunu dəfələrlə vurğulamışdır.

Makronun təklifi Almaniya kimi əsas Aİ üzvləri tərəfindən əvvəlcə ehtiyatla qarşılansa da, son illərdə qitə boyunca artan qeyri-müəyyənliklər – Rusiya-Ukrayna müharibəsi, Transatlantik münasibətlərdəki dalğalanmalar və enerji təhlükəsizliyi böhranları – bu yanaşmanın daha geniş mənimsənilməsinə səbəb olmuşdur. 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi fonunda Aİ-nin hərbi imkanlarını gücləndirmək və Daimi Strukturlaşmış Əməkdaşlıq çərçivəsində daha konkret layihələr həyata keçirmək cəhdləri intensivləşmişdir.

Avropa İttifaqının strateji yönelimlərini dəyişdirən mühüm hadisələrdən biri də 2016-cı ildə baş vermiş Brexitdir. Böyük Britaniyanın Aİ-dən ayrılması İttifaqın güc balansında və institusional dinamikasında dərin təsir buraxdı. London Avropada həm hərbi, həm də diplomatik baxımdan ən güclü aktorlardan biri olmaqla yanaşı, Transatlantik münasibətlərin möhkəm tərəfdarı kimi çıxış edirdi. Böyük Britaniyanın ayrılması ilə Aİ-nin təhlükəsizlik və müdafiə siyasətində ABŞ və NATO ilə yaxın əməkdaşlığa yönəlmiş “atlantikist” yönümü zəifləməyə başladı. Daha çox “kontinentalist” yanaşma – yəni Avropa mərkəzli təhlükəsizlik arxitekturası düşüncəsi ön plana çıxdı.

Brexit, eyni zamanda, Aİ üçün bir oyanış çağırışı oldu. Avropa liderləri bu çıxışı təşkilatın gələcək möhkəmliyini və suverenliyini yenidən qiymətləndirmək üçün bir fürsət kimi dəyərləndirdilər. Strateji muxtariyyət konsepsiyası da bu mənada Aİ-nin postbrexit mərhələdə öz gələcəyini ABŞ-dan və keçmiş üzvlərindən asılı olmadan formalaşdırmaq niyyətinin ifadəsidir. Aİ-nin strateji muxtariyyət axtarışları yalnız təhlükəsizlik arzusundan deyil, qlobal nizamdakı transformasiyalardan doğan zərurətdən qaynaqlanır. Transatlantik münasibətlərin zəifləməsi, ABŞ-ın prioritetlərinin dəyişməsi, Rusiya ilə artan qarşıdurma, Çinlə rəqabət və pandemiya sonrası dəyişən qlobal təchizat sistemləri Aİ üçün yeni reallıqları diktə edir. Strateji muxtariyyət bu mənada Avropanın öz gələcəyini daha çox öz əlində saxlamaq və qlobal aktor kimi formalaşmaq istəklərinin siyasi və institusional ifadəsidir.

Strateji muxtariyyət Avropa İttifaqının enerji və rəqəmsal texnologiyalar kimi mühüm sahələrində də özünü göstərməyə başlamışdır. Xüsusilə son onillikdə yaşanan geosiyasi gərginliklər – Krımın ilhaqı, Rusiya-Ukrayna müharibəsi və enerji bazarındakı qeyri-sabitlik – Aİ-nin enerji sahəsindəki asılılıqlarını gün üzünə çıxarmış və bu asılılıqların doğurduğu riskləri daha da kəskinləşdirmişdir.

Rusiya qazına yüksək səviyyədə etibar edilməsi enerji təhlükəsizliyini yalnız iqtisadi məsələ deyil, eyni zamanda, siyasi və strateji məsələ kimi gündəmə gətirdi. Bu kontekstdə Aİ, enerji sahəsində strateji muxtariyyətini artırmaq üçün bir sıra təşəbbüslər irəli sürdü. Bunların başında "Aİ-nin enerji müstəqilliyi və yaşıl keçid planı" dayanır. Bu planın məqsədi Rusiya enerji daşıyıcılarına olan asılılığın azaldılması, bərpa olunan enerji mənbələrinin genişləndirilməsi və enerji infrastrukturunun diversifikasiyasıdır. Xüsusilə, Günəş və külək enerjisinin payının artırılması, enerji saxlanması texnologiyalarına sərmayələrin artırılması və “yaşıl hidrogen” kimi innovativ həllərə yönəlmə Aİ-nin enerji sahəsində həm müstəqilliyini, həm də davamlılığını gücləndirməyi nəzərdə tutur. Bununla yanaşı, üzv dövlətlər arasında enerji şəbəkələrinin birləşdirilməsi, enerji ehtiyatlarının paylaşılması və fövqəladə hallarda kollektiv cavab mexanizmlərinin yaradılması da bu yeni strategiyanın tərkib hissəsidir.

Enerji təhlükəsizliyi ilə yanaşı, rəqəmsal suverenlik də Aİ-nin strateji muxtariyyət gündəliyində önəmli yer tutur. ABŞ və Çin texnologiya şirkətlərinin qlobal bazarda dominant mövqeyə sahib olması, Avropanı kritik texnoloji infrastrukturlar sahəsində xarici aktorlardan asılı vəziyyətə salmışdır. Bu asılılıq yalnız iqtisadi deyil, həm də informasiya axını, şəxsi məlumatların qorunması və milli təhlükəsizlik məsələlərində suallar doğurur. Aİ-nin cavabı isə “Rəqəmsal Kompas 2030” layihəsi ilə öz rəqəmsal transformasiyasını idarə və texnoloji müstəqilliyini təmin etmək olmuşdur. Bu yanaşma çərçivəsində Avropa İttifaqı rəqəmsal infrastrukturunu (bulud texnologiyaları, 5G şəbəkələri, süni intellekt platformaları) daxili güclərə əsaslanaraq qurmağa çalışır. Bu təşəbbüslər Avropanın texnologiyada həm innovasiya yaratmaq, həm də öz qaydalarını müəyyənləşdirmək istəklərini simvolizə edir. Bütövlükdə, enerji və rəqəmsal texnologiyalar sahəsindəki bu inkişaflar Aİ-nin strateji muxtariyyət ideyasını daha konkret və əməli çərçivəyə gətirir. Avropa İttifaqı bu şəkildə təkcə mövcud qlobal güc münasibətlərinə cavab vermir, həm də özünü gələcəyin çoxqütblü dünyasında davamlı və müstəqil bir aktor kimi formalaşdırır ki, bu da Avropanın daxili konsolidasiyası üçün deyil, eyni zamanda, qlobal sabitlik və dəyərlər sistemi üçün də əhəmiyyətli bir strateji istiqamətdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# "Odlar yurdu" "Bir kəmər, bir yol"un mərkəzi vəsiləsidir

(əvvəli 1-ci səhifədə)

Bu ölkələr tərəfindən dünya ümumi daxili məhsulunun (ÜDM) 30 faizi istehsal olunur. Yeni yaradılan və ilkin olaraq büdcəsi 40 milyard dollardan ibarət "İpək yolu fondu"nun qarşısına isə təşəbbüs çərçivəsində həyata keçirilən işlərin maliyyələşməsi kimi mühüm vəzifə qoyulur.

Dünya Bankının sözügedən təşəbbüsə dair hazırladığı hesabatda deyilir ki, əgər "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində həyata keçirilən nəqliyyat layihələri tam olaraq reallaşsa, ümumdünya ticarət dövriyyəsinin həcmi 6,2 faizə çatar. Nəticədə isə gəlirlər 2,9 faizə qədər artar. Dövriyyənin və gəlirlərin çoxalması isə iştirakçı ölkələrdə yoxsulluğun aradan qalxmasına, yeni iş yerlərinin açılmasına və sərmayələrin səmərəliliyinin artmasına müsbət təsir göstərər.

Ekspertlər bildirirlər ki, Azərbaycan özünün nəqliyyat infrastrukturu və tranzit imkanları ilə qlobal əhəmiyyətə malik bu layihənin mərkəzində yer alıb. Rəsmi Bakı "Bir kəmər, bir yol" təşəbbüsünə Prezident İlham Əliyevin irəli sürdüyü Orta və Zəngəzur dəhlizləri layihələri ilə qoşulub. Bakı – Tbilisi – Qars dəmir yolu və Bakı Beynəlxalq Ticarət Limanları artıq Çindən Avropaya yük daşımalarında fəal iştirak edir.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) məlumatına əsasən, 2024-cü ildə Orta Dəhlizlə 4,1 milyon ton yük daşınıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hesablamasına görə, 2030-cu ilə kimi isə Orta Dəhlizlə yükdaşımaların həcmi 10 milyon tona çatacaq.

Prezident İlham Əliyevin bu il aprelin 4-də Çinə dövlət səfəri zamanı iki ölkə arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq planının və Beynəlxalq multimodal daşımalar haqqında sazişin imzalanması da təsadüfi xarakter daşımır. Çin öz təşəbbüsünü reallaşdırmaqda Azərbaycana, Orta Dəhlizə və gələcəkdə fəaliyyətə başlayacaq Zəngəzur Dəhlizinə ehtiyacının olacağını bilir.

Azərbaycan Çin ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Hər iki dövlət "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.

Prezident İlham Əliyev hələ 2023-cü il iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində müxbirin "Azərbaycanın "Bir kəmər, bir yol" kimi nəhəng infrastruktur layihəsini qısa müddətdə –307 günə icra etməsinə necə nail olub" sualına cavabında da bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə bir təşəbbüsün inkişafımızın sürətlənməsində mühüm rol oynadığını xatırladaraq Azərbaycanın bu cür nəhəng regional bağlantının mərkəzində dayanmasının önəmli üstünlüklərini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: "Xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq…".




Ötən müddətdə Prezident İlham Əliyevin vurğuladığı kimi, ilk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyulub, qonşularla bağlantı körpülərinin qurulması diqqətdə saxlanılıb. Beləliklə, "Bir kəmər, bir yol" layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemi qısa zamanda gerçəkləşib. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yaranıb.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək yolu iqtisadi kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Çin Xalq Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" kimi mühüm sənədlərin imzalanması da ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davamlı genişlənməsini və Çinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Orta Dəhliz) marağının artmasını şərtləndirib.

Bu gün Çin Azərbaycandan kənd təsərrüfatı, kimya və sənaye məhsullarının idxalını daha da artırmağı, "İnternet ipək yolu"nun yaradılması, "İpək yolu" elektron ticarətinin inkişafı məqsədilə respublikamızla əməkdaşlığı dərinləşdirməyi planlaşdırır. Buna uyğun olaraq hər iki dövlət nəqliyyat və tranzit sahəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsini daim diqqətdə saxlayır.

Çinin Avropa ilə ticarət əlaqələrini Azərbaycan üzərindən həyata keçirməyə çalışması təkcə ölkəmizin coğrafi mövqeyindən ibarət deyil. Azərbaycan 15 milyon ton yükaşırma imkanı olan beynəlxalq dəniz limanına və ildə 5 milyon ton yükdaşıma imkanı olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yoluna malikdir. Bu infrastrukturlar Orta Dəhlizin əsasını təşkil edir. Bu il BTQ-də genişləndirmə işlərinin başa çatacağı nəzərdə tutulur. Dəmir yolunun Gürcüstandan keçən hissəsində genişləndirmə işləri yekunlaşandan sonra yolun yükdaşıma imkanının10 milyon tona çatacağı da gözlənilir.

Onu da qeyd edək ki, Çin ilə Avropa arasında dəmir yolu ilə yük daşımalarına 2011-ci ildən başlanılıb. Ötən müddətdə Çindən Avropanın və Asiyanın onlarla şəhərinə və əks istiqamətdə 85 mindən çox qatar səfər edib. Bakı–Tbilisi–Qars dəmir yolu xətti istifadəyə verildikdən sonra Azərbaycandan keçməklə bir neçə yeni Çin – Avropa yük qatarı marşrutu istifadəyə verilib. Rusiya – Ukrayna müharibəsi başlayandan sonra isə şimal xətti üzrə dəmir yolu marşrutlarında yaranan problemlər logistika şirkətlərinin Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə – Orta Dəhlizə marağını əhəmiyyətli dərəcədə artırıb. Son vaxtlar Qırmızı dənizdəki təhlükəsizlik problemləri səbəbindən gəmilərin Çindən Avropaya hərəkət müddəti isə ən azı 12 gün çoxalıb, nəticədə daşıma və sığorta xərcləri 2 dəfədən çox artıb.

Beynəlxalq ticarətdəki gərgin vəziyyət fonunda Çin–Avropa yük qatarları hər 2 istiqamət üzrə sabit, sürətli və sərfəli alternativ yaradıb. Bu kontekstdə Orta Dəhlizin əhəmiyyəti getdikcə daha qabarıq formada özünü göstərib. Məsələn, ötən il Orta Dəhliz üzrə yük daşımalarının həcmi 2 dəfə artaraq 3 milyon tona çatıb. Yaxın illərdə bu rəqəmin 10 milyon tona çatacağı proqnozlaşdırılıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin məlumatında da bu barədə ətraflı bəhs edilib, eyni zamanda, uzaq Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən multimodal Orta Dəhliz Azərbaycanın iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihələrdən biri kimi dəyərləndirilib.

Bir daha xatırladaq ki, iqtisadi və siyasi baxımdan mühüm önəm daşıyan Orta Dəhliz Çinin "Bir kəmər, bir yol" layihəsinin bir parçasıdır, eyni zamanda, tarixi İpək yolunun ən mühüm komponentlərindən biridir. Bu marşrutun sürətli inkişafı istiqamətində Azərbaycan mühüm addımlar atmaqdadır. Belə ki, Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, Zəngəzur dəhlizinin yaradılması bu yöndə görülən ən mühüm işlərdəndir.

Bu məqamda onu da qeyd etmək yerinə düşər ki, son illər ərzində Orta Dəhlizdə yükdaşımaların artımında Azərbaycan önəmli rol oynayıb. Başqa sözlə, respublikamızda dəniz, dəmir yolu, avtomobil, hava nəqliyyatının inkişafı istiqamətində gerçəkləşdirilən genişmiqyaslı layihələr, habelə Şərqlə Qərb arasında ənənəvi ticarət və alternativ yollar üzərində diqqətçəkən geosiyasi, geoiqtisadi proseslər sözügedən marşrutun cəlbediciliyini artıraraq ölkəmizlə bərabər regionun da sürətli tərəqqisini şərtləndirib.

# Türkiyə ilə metroloji əməkdaşlıq



**Azərbaycanda metroloji infrastrukturun gücləndirilməsi və yeni ölçmə imkanlarının artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Görülən tədbirlər ölkədə keyfiyyət infrastrukturunun gücləndirilməsi, ixrac potensialının artırılması və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına hədəflənib.**

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı çərçivəsində Azərbaycan Metrologiya İnstitutu yeni laboratoriya şəbəkəsinin qurulmasına başlanılıb. Bu məqsədlə Azərbaycan Metrologiya İnstitutu ilə Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının Milli Metrologiya İnstitutu arasında müqavilə imzalanıb. Müqaviləni Azərbaycan Metrologiya İnstitutunun baş direktoru Xamis Seyranov və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının Milli Metrologiya İnstitutunun rəhbəri Mustafa Çetintaş imzalayıb. Bu barədə XQ-yə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, imzalanma mərasimində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov, Türkiyə Respublikasının sənaye və texnologiya nazirinin müavini Muhammet Kasım Gönüllü, Türkiyə Elmi və Texnoloji Tədqiqat Təşkilatının Milli Metrologiya İnstitutunun rəhbəri Mustafa Çetintaş, Milli Məclisin komitə sədri Azər Əmiraslanov, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev, Nazirlər Kabinetinin şöbə müdiri Elşən Hacızadə, Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün və Azərbaycan Metrologiya İnstitutunun baş direktoru Xamis Seyranov çıxış edərək tərəflər arasında metrologiya sahəsində strateji əməkdaşlığın əhəmiyyətini vurğulayıblar.

Mərasimdə beynəlxalq standartlara cavab verən laboratoriyaların məhsulların xarici bazarlara sərbəst çıxışına töhfə verəcəyi, bununla da ölkənin ümumi ixrac potensialının artırılmasına müsbət təsir göstərəcəyi qeyd edilib. Həmçinin iki qardaş ölkə ilə metrologiya sahəsində əməkdaşlığın hazırda uğurla həyata keçirildiyi və gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə olunub.

Qeyd edək ki, müqaviləyə əsasən, Azərbaycan Metrologiya İnstitutunun nəzdində 10 yeni laboratoriyanın qurulması, həmçinin 4 mövcud laboratoriyanın təkmilləşdirilməsi işləri nəzərdə tutulub. Yeni laboratoriyalarda qazlarda və mayelərdə kalorifik dəyərlər, qaz metrologiyası, üzvi və qeyri-üzvi kimya, akustik, fırlanma anı, qaz və su sərfiyyatı, gərginlik və cərəyan üzrə ölçmə və kalibrləmə işləri həyata keçiriləcək. Bundan əlavə, sənəddə yeni laboratoriyaların cihaz və avadanlıqlarla təchiz olunması, proqram təminatının tətbiqi və əməkdaşların müvafiq sahələr üzrə təlimlərə cəlb edilməsi də nəzərdə tutulub.

Yeri gəlmişkən, 2023-cü il dekabrın 26-da Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının Milli Metrologiya İnstitutu ilə imzalanmış müqaviləyə əsasən, Azərbaycan Metrologiya İnstitutunda 12 yeni laboratoriyanın qurulması prosesi uğurla davam etdirilir. Belə ki, layihə çərçivəsində ötən ilin noyabr ayında həcm, tibb, müqavimət, vaxt və tezlik, paylanma parametrləri və radiotezlik gücünün ölçmələri üzrə 5 yeni laboratoriya istifadəyə verilib. Digər 7 laboratoriyanın isə bu ilin sonunadək istifadəyə verilməsi planlaşdırılır.

# Qazax buğdasından Bakı unu

**Bakı Taxıl Terminalı Qazaxıstan buğdasının ilk partiyasını qəbul edib. Qazaxıstan mətbuatının məsələ bağlı açıqlamasında bildirilib ki, bu addım iki ölkə arasında ikitərəfli ticarət münasibətlərinin inkişafında yeni mərhələnin başlanğıcını qoyur.**



Bu münasibətlə "Ak Bıday Terminal" ASC-nin İdarə Heyətinin sədri Nurlan Erkojaulı işgüzar səfərlə Bakıya gəlib. Səfər proqramına aqrar logistika və ticarət sahəsində əməkdaşlığın gücləndirilməsinə yönəlmiş bir sıra əsas görüşlər daxil olub. Bakı Taxıl Terminalının rəhbərliyi ilə keçirilən işgüzar görüş çərçivəsində tərəflər terminalın əməliyyat proseslərini, taxılın qəbul və saxlanması ilə bağlı texniki detalları, eləcə də tədarükün genişləndirilməsi imkanlarını müzakirə ediblər.

Tərəflər, həmçinin mövcud logistik problemlərə toxunublar və təchizat zəncirlərinin dayanıqlığının və səmərəliliyinin artırılması üzrə təkliflərlə mübadilə aparıblar. Söhbət zamanı Bakı Taxıl Terminalına taxıl göndərişlərinin həcminin artırılması və infrastrukturun modernləşdirilməsi perspektivləri də diqqət mərkəzində olub.

Bununla yanaşı, Nurlan Erkojaulı səfər çərçivəsində ölkəsinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel ilə görüşü zamanı ticarət-iqtisadi əlaqələrin inkişafına dair ikitərəfli yol xəritəsinin müddəalarına uyğun olaraq ixrac həcmlərinin artırılması perspektivlərini müzakirə edib.

Qazaxıstan mediasının yazdığına görə, "Ak Bıday Terminal" ASC-nin İdarə Heyəti sədrinin işgüzar səfəri Qazaxıstan və Azərbaycanın aqrar əməkdaşlığın inkişafında qarşılıqlı marağını bir daha nümayiş etdirib. "Qazaxıstan buğdasının Azərbaycana tədarükü ixrac marşrutlarının genişləndirilməsi və Qafqaz – Xəzər regionunda, eləcə də onun hüdudlarından kənarda iqtisadi əlaqələrin möhkəmləndirilməsi istiqamətində strateji addım kimi qiymətləndirilir, – deyə məlumatda bildirilib.

# Süni intellektin aqrar məkanı

**Gələn həftə Bakıda təşkil olunacaq "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri çərçivəsində 2-ci Beynəlxalq Aqrar İnnovasiya Forumu keçiriləcək. Bu barədə Kənd Təsərrüfatı Nazirliyinin texnoloji transfer və innovasiya şöbəsinin müdiri Nərmin Kərimli sərgilərin açılışına həsr olunmuş mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, forum çərçivəsində müasir kənd təsərrüfatı yanaşmalarında aqropark modeli, süni intellektin aqrar sahədə tətbiqi, aqrar sığorta sisteminin inkişaf perspektivləri, dayanıqlı qida sistemləri, kənd təsərrüfatı və qida elmləri sahəsində təcrübə mübadiləsi, innovativ kənd təsərrüfatı, aqrar sahədə qadınların rolu və digər vacib mövzular üzrə müzakirələr aparılacaq.

Forumun gedişində, həmçinin davamlı kənd təsərrüfatına investisiya, aqrar sektorda kiçik və orta biznes subyektlərinin gücləndirilməsi, kənd təsərrüfatı ticarəti, dəyər zəncirləri və qida bazarları kimi mövzular yer alacaq. Tədbir zamanı həmçinin ikitərəfli işgüzar görüşlər, eləcə də müxtəlif təlimlər təşkil ediləcək.



Toplantıda 200-dən çox beynəlxalq və yerli nümayəndənin, o cümlədən rəsmi şəxslərin və ekspertlərin iştirakı gözlənilir.

# Dövlət ipoteka kreditləri artıb

**İpoteka və Kredit Zəmanət Fondu tərəfindən indiyədək 54 min 342 borcalana 3 milyard 500 milyon 519 min manat kredit verilib. Bununla yanaşı, qurum bu günə qədər 549 milyon 443 min manat məbləğində biznes kreditlərinə zəmanət verib, 6 min 977 mənzili isə kirayəyə vermək yolu ilə realizə edib.**



Xatırladaq ki, İpoteka və Kredit Zəmanət Fondu 2017-ci ilin sonunda "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" açıq səhmdar cəmiyyətlərinin birləşməsi nəticəsində yaradılıb. Həmin qurumların hüquqi varisi olan fond hazırda milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin verilməsi və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Ağdam Sənaye Parkı böyüyür



**Baş nazir Əli Əsədov və Belarus Respublikasının Baş naziri Aleksandr Turçin Ağdama səfər çərçivəsində rayonda yaradılan sənaye parkının fəaliyyəti ilə tanış olarkən bildirilib ki, bu müəssisə Prezident İlham Əliyevin 28 may 2021-ci il tarixli sərəncamı ilə yaradılıb. Parkın prioritet fəaliyyət istiqamətlərinə tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəzin konservləşdirilməsi, ət və süd məhsulları, yem, gübrə istehsalı, o cümlədən xidmət obyektlərinin, soyuducu kameraların yaradılması və s. daxil olduğu vurğulanıb.**

Qeyd edilib ki, parkın sahəsi 190 hektardır, ərazinin 70 faizdən çoxu artıq sahibkarların sərəncamına verilib. Yeni yaradılmasına baxmayaraq, Ağdam Sənaye Parkı qeydiyyatdan keçən müəssisələrin sayına görə, Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci yerdə qərarlaşıb.

Hazırda burada 27 sahibkarlıq subyekti rezident, daha 5-i isə qeyri-rezident kimi qeydiyyata alınıb. Qeydə alınan 32 layihə əsasında parka 148 milyon ABŞ dollarından çox investisiya yatırılacağı və 2100-dən çox iş yerinin yaradılması nəzərdə tutulub. İnvestorlar tərəfindən artıq 66 milyon dollar sərmayə qoyulub, əsasən Ağdam və ətraf rayonların sakinləri üçün 649 daimi iş yeri yaradılıb. Parkda fəaliyyət göstərən 9 müəssisə tərəfindən indiyədək 50 milyon dollarlıq məhsul satılıb, bu ilin birinci rübdə isə 37 milyon dollara yaxın dəyərində məhsul istehsal olunub.

Ağdam Sənaye Parkında bu gün 10-dan çox yeni müəssisə tikilir, o cümlədən bir neçə yeni zavodun işə salınması planlaşdırılır. Parkda yaradılan əlverişli biznes mühiti sahibkarların əlavə texniki şərtlər əldə etmədən dövlət hesabına hazır infrastrukturdan yararlanmaqla müəyyən layihələr həyata keçirmələrinə imkan verir.

Rezidentlər 10 il müddətinə əmlak, torpaq və gəlir vergilərini ödəməkdən, habelə istehsal avadanlıqları və mexanizmləri idxal edərkən ƏDV və gömrük rüsumlarını ödəməkdən azaddırlar.

Bundan başqa əlavə güzəştlər – sosial sığortaya subsidiyalar, kommunal xidmətlərə 20 faiz endirim, ƏDV-dən və bir sıra xammal və materialların idxalına görə rüsumlardan tam azad olunma (Nazirlər Kabineti tərəfindən təsdiq edilən), güzəştli bank kreditləri və s. nəzərdə tutulur.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir.

Qeyd edək ki, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti həyata keçirilir. Bu məqsədlə ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılır. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Xatırladaq ki, indiyədək respublikamızda 9 sənaye parkı və 4 sənaye məhəlləsi istifadəyə verilib. Eyni zamanda, sənaye zonaları üzrə bugünədək ümumi investisiya həcminin 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib.

Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən artıq daimi iş yeri yaradılıb. Ötən müddətdə sənaye zonaları tərəfindən 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,2 milyard manatlıq hissəsi ixrac edilib.

# İlin "ipək" mövsümü başlandı



**Kənd Təsərrüfatı Nazirliyi 2025-cü il üçün barama istehsalı mövsümünə start verib. Mövsümün ilk günündə Qax Damazlıq İpəkçilik Stansiyasında aran və dağətəyi zonalarda yerləşən rayonlardan olan kümçülərə tut ipəkqurdu toxumu paylanılıb.**

Mərasimdə kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri, Qax Rayon İcra Hakimiyyətinin rəhbərliyi, dövlət aqrar inkişaf mərkəzlərinin direktorları, eləcə də müxtəlif rayonlardan olan kümçülər və media təmsilçiləri iştirak ediblər.

Nazir müavini S.Cəfərov çıxış edərək bildirib ki, kənd təsərrüfatının iqtisadi cəhətdən səmərəli istehsal sahələrindən sayılan baramaçılığın ölkəmizdə inkişaf etdirilməsi Kənd Təsərrüfatı Nazirliyinin qarşısına qoyulan prioritet vəzifələrdən biridir. Azərbaycanda ipəkçiliyin inkişafı üçün böyük potensial mövcudluğunu vurğulayan S.Cəfərovun sözlərinə görə, dövlət başçısının müvafiq tapşırıqlarına uyğun olaraq nazirlik ölkədə ipəkçiliyin müasir infrastrukturunun yaradılması, baramaçılığın yem bazasının formalaşdırılması, barama toxumçuluğunun təşkili istiqamətində lazımi tədbirlər həyata keçirir.

Qeyd olunub ki, nazirlik dövlət aqrar inkişaf mərkəzlərinin məlumatları əsasında qabaqcıl barama istehsalçılarının siyahısını, onlara məxsus kümxanaların vəziyyəti barədə məlumatları toplayaraq təhlil edib və müvafiq tədbirlər planı hazırlayıb. Plana uyğun olaraq mövsümün əvvəlindən kümxanaların aqrozootexniki tələblərə uyğun hazırlanması, ipəkqurdunun düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlər görüldüyünü diqqətə çatdıran S.Cəfərov bildirib ki, ötən müddətdə nazirliyin mütəxəssisləri bütün baramaçılıq rayonlarının məhsul istehsalçıları üçün maarifləndirici təlimlər təşkil edib, kümxanalarda xəstəlik və zərərvericilərə qarşı qabaqlayıcı dezinfeksiya işləri aparıb və kümçülərə yerində məsləhətlər verib.

Diqqətə çatdırılıb ki, 2025-ci ildə ipəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi, barama istehsalı ilə bağlı əhalinin məşğulluğunun artırılması və sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi ölkədə bu il ərzinsə istehsalı planlaşdırılan yaş barama məhsulunun həcmini nəzərə almaqla Çindən 5 min qutu ipəkqurdu sənaye toxumları tədarük edib. Eyni zamanda, ölkəmizdə ipəkçiliyin gələcək inkişafının təmin edilməsində barama toxumçuluğunun təşkili üzrə infrastrukturun yaradılmasının xüsusi əhəmiyyətini nəzərə alaraq ipəkqurdu cins və hibridlərinin yüksək keyfiyyətli ilkin material hazırlanması, çoxaldılması və kümçülərin barama toxumları ilə təmin edilməsi funksiyalarını həyata keçirən, müasir standartlara uyğun şəkildə yenidən qurulmuş Qax Damazlıq İpəkçilik Stansiyasında 1000 qutu hibrid ipəkqurdu toxumu istehsal olunub.

Bununla yanaşı, tut ipəkqurdu toxumları inkubasiya üçün Qax Damazlıq İpəkçilik Stansiyası, Zərdab Baramaqurutma Məntəqəsi, Zaqatala Baramaqurutma Məntəqəsi və Naxçıvan Muxtar Respublikasında inkubasiya kameralarına qoyulub.

Mərasimdə inkubasiya olunmuş tut ipəkqurdu toxumları 40 bölgədən olan kümçülərə paylanıb. Ümumilikdə isə, mayın 5-nə qədər kümçülərə inkubasiyadan sonra 5 min 500 qutu verilib. İpəkqurdu toxumlarının kümçülərə paylanması prosesi davam edir.

# Dəmir yollarımız – dünyaya uzanan dəmir qollarımız

**"Moody's" "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) uzunmüddətli korporativ ailə reytinqini B1-dən Ba3 səviyyəsinə yüksəldib. Bu barədə XQ-yə "Azərbaycan Dəmir Yolları" QSC-dən məlumat verilib.**

Bildirilib ki, qurumun 2024-cü ili əhatə edən fəaliyyəti dövrü ərzində sərnişindaşıma, təhlükəsizlik və dayanıqlı inkişaf istiqamətlərindəki müsbət dəyişikliklər "Moody's" agentliyi tərəfindən kredit reytinqinin verilməsində əsas təsiredici amillər kimi rol oynayıb. "Moody's"in hesabatında ADY-nin gəlirlərinin illər üzrə sabit artımı, maliyyə və iqtisadi göstəricilərinin yaxşılaşması, yükdaşıma həcmlərinin artması, xüsusilə tranzit rejimində yükdaşımaların artırılması istiqamətində ölkə və dəmiryol hədəflərinin olması göstərilib. Bundan əlavə, ADY-nin ölkənin sosial-iqtisadi inkişafında xüsusi əhəmiyyəti vurğulanıb, qurumun gəlirlərinin artması fonunda maliyyə əmsallarının 2024–2025-ci illər üzrə bir neçə dəfə yaxşılaşması qeyd olunub.




Reytinqin yüksəldilməsinin digər əsas səbəbləri kimi ADY-nin borcunun əhəmiyyətli dərəcədə azalması, kredit göstəriciləri və kredit profilinin yaxşılaşması ilə əlaqədar maliyyə göstəricilərindəki müsbət tendensiya, eləcə də şirkətin davamlı inkişafı üçün əsaslı təməl yaradılması göstərilib. Rəqabət qabiliyyətinin yaxşılaşdırılması və potensial inkişafa nail olmaq üçün ADY-nin ciddi islahatlar aparması, investisiya proqramlarının icrası nəticəsində həm infrastrukturun, həm də hərəkət tərkibinin yenilənməsi prosesinin həyata keçirilməsi, Bakı – Tbilisi – Qars dəmiryol xəttinin modernləşdirilməsi layihəsinin yekunlaşması və yük buraxıcılıq qabiliyyətinin il ərzində 1 milyon tondan 5 milyon tona çatdırılması hesabatda qeyd olunan əsas məqamlardandır.

Hesabatda maliyyə və likvidlik göstəricilərinin yaxşılaşmasının ADY-nin yeni investisiya layihələri hesabına gələcəkdə gəlirlərinin daha da artırılmasına və davamlı inkişafın təmin edilməsinə yeni imkanlar yaradacağı qeyd edilir. Likvidlik göstəricilərinin yaxşılaşması ADY-nin maliyyə öhdəliklərinin icrası zamanı hər hansı çətinliyinin olmayacağı barədə əminlik yaradır.

Qeyd edək ki, reytinqin yüksəldilməsi ADY-nin maliyyə etibarlılığını artırır və sabit gəlirliliyi ifadə edir. Bu isə bankların və investorların şirkətə daha aşağı faizlə kredit verməsinə imkan yaradır. Yüksəlmiş reytinq təchizatçılar və biznes müştərilər üçün də maliyyə sabitliyi və ödəniş qabiliyyəti baxımından pozitiv siqnaldır. Bu, daha sərfəli əməkdaşlıq şərtlərinə yol aça bilər.

Bundan əlavə, yüksək kredit reytinqi "Azərbaycan Dəmir Yolları" QSC-nin əməliyyatlarının daha səmərəli həyata keçirilməsinə şərait yaradır, eləcə də qurumun ictimai nüfuzunu və beynəlxalq imicini gücləndirir. Bu, şirkətin beynəlxalq layihələrdə və əməkdaşlıqda daha fəal iştirak etməsinə və strateji tərəfdaşlıqlar qurmasına imkan verir. Eyni zamanda, kredit reytinqinin artırılması nəticəsində ADY-nin maliyyə imkanlarının genişlənməsi, əməliyyat səmərəliliyinin yüksəlməsi və beynəlxalq nüfuzunun güclənməsi, ümumilikdə, Azərbaycanın regional nəqliyyat və logistika mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə də töhfə verəcək.

# Omanda enerji keçidi müzakirəsi

**Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədri Samir Axundov Enerji Tənzimləyicilərinin Regional Assosiasiyasının Omanın paytaxtı Maskat şəhərində Körfəz ölkələrində ilk dəfə keçirilən 22-ci illik konfransında iştirak edib.**

Agentlikdən verilən məlumata görə, əsas mövzusu "Effektiv siyasətlər və tənzimləmə vasitəsilə enerji keçidinin inkişafı" olan tədbirdə enerji təchizatının dayanıqlığı, enerji mənbələrinin şaxələndirilməsi, karbon emissiyalarının azaldılması, eləcə də təmiz enerjinin inkişafının qarşısında duran əsas çağırışlar müzakirə olunub.

Konfransda şəbəkə inteqrasiyası və idarə edilməsi, transsərhəd əməkdaşlıq, bazarların dinamikası, qeyri-sabitliyin qarşısının alınması üçün tələb olunan islahatlar, keçid yanacaqlarının rolu və karbonsuzlaşdırılmış yanacaqların tətbiqi perspektivləri, eləcə də bərpa olunan enerji mənbələrin gələcəyi və onların inkişafına dəstəyə dair təqdimatlar nümayiş edilib.

Xatırladaq ki, 2000-ci il dekabrın 11-də Buxarestdə təsis olunmuş Enerji Tənzimləyicilərinin Regional Assosiasiyası özündə 43 ölkəni təmsil edən 47 tənzimləyici qurumu birləşdirir. Təşkilat enerji tənzimlənməsi sahəsində bilik və təcrübə mübadiləsi üçün platforma rolunu oynayır. Yarandığı ilk vaxtlardan Enerji Tənzimləyicilərinin Regional Assosiasiyası ilə əlaqələr quran Azərbaycanın Enerji Məsələlərini Tənzimləmə Agentliyi 2018-ci ilin aprel ayından bu təşkilatın assosiativ üzvü seçilib.

# Azərbaycan – İran hava yolu açıldı



**Azərbaycanla İran arasında aviadaşımaların bərpası istiqamətində işlər davam etditilir. Artıq gündəlik Tehran – Bakı reyslərinin fəaliyyəti bərpa olunub.**

İran hökumətinin sözçüsü Fatimə Mühacirani mətbuat konfransında bildirib ki, İran prezidenti Məsud Pezeşkianın Azərbaycana ilk səfəri fonunda ikitərəfli siyasi etimadın yaradılması istiqamətində strateji əməkdaşlıq və iqtisadi diplomatiyaya dair hərtərəfli sənəd layihəsinin hazırlanması və özəl sektor investorları ilə çox sayda görüşün keçirilməsi barədə razılıq əldə olunub. Onun sözlərinə görə, səfərin nəticəsi olaraq uzun müddətdir həyata keçirilməyən gündəlik Tehran – Bakı reysləri açılıb.

Bununla yanaşı, hazırda Təbrizdən Bakıya və əks istiqamətdə birbaşa aviareysin bərpası imkanları da nəzərdən keçirilir. Bu barədə qonşu ölkənin Şərqi Azərbaycan vilayətinin rəhbəri Bəhram Sərmast Azərbaycan və İran arasında aviadaşımaların bərpası istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərkən məlumat verib. Onun sözlərinə görə, bu, iki ölkə arasında iqtisadi, o cümlədən turizm əlaqələrinin inkişafına əhəmiyyətli təsir göstərəcək.

İranın yol və şəhərsalma nazirinin müşaviri Amin Tərfe də İran mətbuatına açıqlamasında Tehran, Təbriz və Bakı arasında birbaşa aviareyslərin təşkili planının tamamlandığını bildirib. "Bu məsələ İranın yol və şəhər inkişafı naziri, Azərbaycan – İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri ilə Azərbaycanın nəqliyyat naziri arasında İran prezidentinin Bakıya səfəri çərçivəsində keçirilən görüşdə qaldırılıb və razılaşdırılıb", – deyə o qeyd edib. Onun sözlərinə görə, plana əsasən, Tehran – Bakı reysləri həftədə 4 gün, Təbriz – Bakı reysləri isə həftədə 2 gün həyata keçiriləcək: Amin Tərfe onu da bildirib ki, hazırda İran Mülki Aviasiya Təşkilatı bu reyslərin ən qısa müddətdə işə başlaması üçün Azərbaycanın müvafiq qurumları ilə danışıqlar və ekspert araşdırmaları aparır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Təqvim yada salır**

# Xalqımızın Şuşa dərdi və Şuşa dərsi




## 28 il 6 aylıq itki tarixə gömüldü, Qayıdış isə əbədidir

**Haradan başlamışdı Şuşanın şanlı tarixinə qara hərflərlə yazılacaq, bizi illər boyu mədəniyyət beşiyimizə, qeyrət qalamıza həsrət qoyacaq o acı tarixə – 1992-ci ilin 8 mayına aparan yollar? Günahkar təkcə türk qanına susamış, minillərdən bəri yaşadığımız ata-baba yurdlarımıza, bizim olan, halalımız olan torpaqlarımıza göz dikmiş mənfur ermənilər idimi?**

Bu millət çörəyimizi yeyib, üzümüzə ağ olan nankor erməni işğalçılarına Şuşanı təslim etməmişdi. Ədalətdən, insan haqlarından, demokratiyadan dəm vurub Qarabağda yanan evlərimizin, məscidlərimizin alovuna, qəbiristanlıqlarımızın, tarixi irsimizin dağıdılmasına, Yer üzündən silinməsinə, Xocalıda yaşanan vəhşətlərə, Şuşanın murdar tapdaqlar altında inildəməsinə göz yuman dünya "ağa"larının, nəhayət, "sapı özümüzdən olan baltaların" düşmənçiliyi, laqeydliyi, satqınlığı xalqımıza 28 il Şuşa həsrəti yaşatdı.

Lakin Şuşa acımız notlara çevrilib mahnı-mahnı sızıldadı. Şuşa yuxularımızda yaşadı, Zəlimxan Yaqub misraları ilə qurumayan göz yaşlarımıza çevrildi:

***Bu gecə yuxuma girmişdi Şuşa,***
***Cabbar ağlayırdı, Xan ağlayırdı.***
***Dönmüşdü qanadı qırılmış quşa,***
***Qarabağ başabaş qan ağlayırdı...***

Biz uşaqlı-böyüklü, cavanlı-ağsaqqallı – hamımız bir nəfər kimi Şuşasız ötən illər yaramıza köz basıb, qisas hissilə, ümidlə yaşadıq. Bir an da olsa Şuşaya, işğal altında yolumuzu gözləyən bütün torpaqlarımıza qovuşacağımız günə inamımız azalmadı. İnandıq ki, yuxularımızda göz yaşı tökən Cabbarın, Xanın ruhlarının sevinəcəyi, xarıbülbülün yaxalarımıza taxılacağı an gələcək. İnandıq ki, Şuşa həsrətimizə son qoyacağımız gün bütün dünya heyrət içində bizi izləyəcək.

Bu xalq məqamı çatanda "dəmir yumruğ"a çevrilməyə, haqq yolunda qarşısına çıxanın başını əzməyə qadirdir! Çünki bizim ümidlərimizi gerçəkləşdirən müdrik Prezidentimiz, müzəffər Sərkərdəmiz var. Çünki ölkə başçısı bir gün Şuşada Novruz tonqalı yandıracağımızı inamla demişdi və həmişə olduğu kimi, dediyini etdi, sözünü tutdu:

"Mən bu gün Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

...2020-ci il noyabrın 8-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu sözləri ürəyi vətən eşqi ilə yanan, torpaqlarımızın azadlığı uğrunda can verməyə hazır olan, Şuşa həsrətindən qəlbi qubar bağlamış milyonların sevinc göz yaşlarına çevrildi. Qələbəyə təşnə xalq bayrağına sarılıb küçələrə, meydanlara axışdı. Tanıdı, tanımadı hər kəs bir-birini bağrına basdı, bir-birinə gözaydınlığı verdi. Azərbaycan bir daha özü boyda, bütövləşən sərhədlərinin başı üstünə qalxan yumruğa çevrildi. Şəhid ruhları göy üzündə razılıqla gülümsədi.

Bəs bizi böyük zəfərə aparan bu yol haradan başlamışdı? İlk növbədə, ulu öndər Heydər Əliyevin "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" nidasından, vəsiyyətindən. Üstəlik, "Biz Qarabağımıza qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır" – deyən dövlət başçımızın Vətən sevgisindən, qətiyyətindən, polad iradəsindən. Bu müqəddəs arzu, bu böyük sevgi, sarsılmaz iradə bizi addım-addım o böyük günə yaxınlaşdırırdı. Nəhayət, anidən sükut pozuldu!



Yer yerindən oynadı, göyün bağrı yarıldı, zirvəsində dayanıb üzünü Tanrıya tutan bozqurdun ulartısından dağlar daş yuxusundan oyandı. Ərlərimizin-ərənlərimizin hayqırtısından qorxan haylar pərən-pərən düşdü. Torpaq müqəddəsliyinə qovuşmaq, yenidən öz sahiblərinin vətəni olmaq üçün qanla yoğruldu. Qarabağımızın, Şərqi Zəngəzurumuzun səmasını türkün "əbabil quşları" bürüdü, süzüb-süzüb düşmənin başına öd ələdilər. Elin igidləri böyük Sərkərdənin əmri ilə haqq savaşına yürüdülər, "Eyyy, yurdumu yağmalamış namərd kafir, ölümlərdən ölüm bəyən, hesab çəkməyə, can almağa gəlirik!" dedilər. Yorulmadan, gecə-gündüz qarış-qarış, addım-addım qələbəyə doğru irəlilədilər. Özü də yağıya arxa çevirmədən, dəyib Vətən torpağını incidər, deyə sinəsini düşmənin gülləsinə sipər edərək, canından keçməyi, müqəddəs şəhidlik məqamına ucalmağı xoşbəxtlik, şərəf bilərək, geri qayıtmamaq üçün yarasını gizləyərək!

Böyük Sərkərdənin qətiyyətindən güc alan qəhrəmanlarımız yağı sədlərini aşıb irəlilədilər. Dəmir barmaqlı oğullar quş qonmayan sıldırımları aşıb gözəl Şuşamıza yetişdilər. Əliyalın tankın-topun üstünə yeridilər, düşməni dişləriylə-dırnaqlarıyla parçalayaraq dünyanı heyrətə salan qəhrəmanlıq dastanı, zəfər tarixi yazdılar, canlı əfsanəyə çevrildilər! Vətənin düşmən əsarətində inləyən, dağıdılmış, viran qoyulmuş qeyrət qalasını azad edib hər kəsə qələbə xoşbəxtliyini – Zəfər Gününü yaşatdılar! Vətən müharibəsi bizi sevənlərə də, sevməyənlərə də sarsılmaz birliyimizi, milli həmrəyliyimizi göstərdi. Gördülər ki, bu Vətənin övladı olan hər kəs Azərbaycanın bütövlüyü naminə birləşməyə, lazım gəldiyində canını fəda etməyə qadirdir.

1992-ci ildə ermənilər Şuşanın işğal əməliyyatını "dağlarda toy" adlandırır, havadarlarının hesabına qazandıqları asan "qələbə" ilə öyünürdülər. Lakin 28 il sonra Azərbaycan əsgəri erməni quldurlarına layiqli cavabını verdi. Prezident İlham Əliyevin dediyi kimi: "Biz onlara elə bir toy tutduq ki, bu dərsi əbədi yadda saxlayacaqlar".

Bu gün Şuşa məşhur mahnıda deyildiyi kimi, yenidən qırmızı koftasını geyinib. Azadlığının verdiyi sevinc, doğma sakinlərinin qayıdışının bəxş etdiyi xoşbəxtliklə yeni, daha gözəl simasına qovuşur.

Bu gün daha Şuşanın dağlarının başı dumanlı deyil. Kirs, Qırxqız zirvələrdə dalğalanan bayrağımıza baxıb qürurlanır, müdrik qocalar kimi "heç nəyi unutmaq olmaz!" deyərək, uzaqlara – Qərbi Zəngəzura doğru boylanır. Bu gün azad Şuşadan yüksələn körpə gülüşləri hər kəsə bir daha xatırladır ki, biz əbədi olaraq qayıtmışıq!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Şuşa**






# "Global Media Group"a kiberhücumlar və informasiya savaşının görünməyən cəbhəsi



**Azərbaycanda aparıcı media orqanlarından biri olan "Global Media Group"a qarşı həyata keçirilmiş kiberhücumlar cəmiyyətin informasiya təhlükəsizliyi baxımından ciddi narahatlıq doğuran hadisə kimi qiymətləndirilməlidir. Hədəfə alınan yalnız bir media qurumu deyil – bu hücumlar medianın müstəqilliyi, azad sözün mövcudluğu və ictimai rəyə təsir imkanları üzərində qurulmuş sistemli təzyiq aktı kimi dəyərləndirilməlidir.**

Kiberhücumlar artıq təkcə texnoloji deyil, siyasi və geosiyasi xarakter daşıyan silahlara çevrilib. Media orqanlarına edilən belə hücumlar, əslində, dövlətin informasiya suverenliyini sarsıtmaq və ictimai rəyin manipulyasiyasını asanlaşdırmaq məqsədi güdür. Məsələ təkcə bir saytın fəaliyyətinin iflic edilməsi və ya kontentin silinməsi ilə bitmir – bu, həm də mesajdır: "Sizi izləyirik, susun!"

"Global Media Group"un hədəfə alınması təsadüfi deyil. Bu media qurumu son illərdə yalnız yerli deyil, beynəlxalq informasiya platformalarında da etibarlı tərəfdaş kimi tanınıb. Təkcə xəbərləri təqdim etməklə kifayətlənməyib, eyni zamanda informasiya müharibəsi dövründə milli maraqları müdafiə edən media platformasına çevrilib. Belə bir mövqenin güclənməsi isə müəyyən dairələr üçün arzuolunmaz ola bilərdi.

Hücumların texniki xüsusiyyətləri və zamanlaması bu təzyiqin planlı və peşəkar şəkildə həyata keçirildiyini göstərir. Onlar həmçinin bir çox hallarda regionda və dünyada baş verən müəyyən proseslərlə paralel şəkildə baş verir. Məhz belə vəziyyətlərdə "kiberhücum" təkcə bir hadisə deyil, bir mesaj daşıyır: informasiya axınlarını nəzarətə almaq istəyənlər müstəqil və güclü media institutlarını susdurmağa çalışırlar.

Bu hadisənin ən narahatedici tərəfi isə odur ki, məsələ yalnız "Global Media Group"a yönəlməyib. Bu, bütün müstəqil media qurumlarına, informasiya azadlığına və jurnalist peşəkarlığına qarşı ünvanlanmış təzyiq nümunəsidir. Yəni bu gün "Global Media Group"a yönələn hücum sabah başqa bir media orqanının, bir jurnalistin və ya bütöv bir ictimai institutun hədəfə çevriləcəyini istisna etmir.

Bütün bu proseslərin fonunda vacib olan məsələ yalnız texniki cavab tədbirləri deyil. Hücumlara qarşı informasiya cəbhəsi formalaşdırılmalı, ictimai dəstək və media həmrəyliyi gücləndirilməlidir. Eyni zamanda, dövlət qurumlarının operativ şəkildə araşdırmalara başlaması və bu cinayətlərin izinə düşməsi də vacibdir. Kiberhücumlar artıq milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilməlidir.

Məsələnin başqa bir tərəfi isə beynəlxalq mediada və Qərb institutlarında bu cür hücumların daha geniş şəkildə pislənməsidir. Əgər bu hadisə Avropada və ya ABŞ-da baş versəydi, məsələyə dərhal siyasi qiymət verilərdi. Azərbaycanda baş verəndə isə məsələ ya görməzlikdən gəlir, ya da ikili standartların qurbanına çevrilir. Bu, beynəlxalq ictimaiyyətin informasiya ədaləti mövzusunda ciddi dilemmasıdır.

Yekun olaraq bir daha vurğulamaq lazımdır: "Global Media Group"a qarşı həyata keçirilmiş kiberhücumlar sadəcə bir qurumun deyil, Azərbaycanın informasiya məkanının toxunulmazlığına yönəlib. Bu, ifadə azadlığına və milli informasiya təhlükəsizliyinə qarşı atılmış açıq hücumdur. Belə hallarda həm peşəkar media ictimaiyyəti, həm də dövlət strukturları güclü koordinasiyalı reaksiya göstərməli, cinayətkarların kimliyindən asılı olmayaraq məsuliyyətə cəlb edilməsinə nail olunmalıdır.

***Oğuz ARİF***

# Bakıda Qazaxıstan Respublikasının Vətən Müdafiəçisi Günü qeyd olunub



**Qazaxıstanın Azərbaycandakı səfirliyində Qazaxıstan Respublikasının Vətən Müdafiəçisi Gününə həsr olunmuş rəsmi qəbul mərasimi keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı, I dərəcəli kapitan Şahin Məmmədov və Azərbaycan Ordusunun digər zabitləri, həmçinin Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri iştirak ediblər.

Qazaxıstan Respublikasının Azərbaycandakı səfiri Alim Bayel tədbir iştirakçılarını Azərbaycan dilində salamlayaraq bildirib: "Bu gün Qazaxıstan və Azərbaycan strateji tərəfdaş və müttəfiqdirlər. Sevindirici haldır ki, əməkdaşlığımız digər sahələrdə olduğu kimi, hərbi sahədə də intensiv və uğurlu şəkildə inkişaf edir. Qeyd etmək istəyirəm ki, Qazaxıstan-Azərbaycan qardaşlığı əbədi olacaq".

O, çıxışını ingilis dilində davam etdirib: "1992-ci il mayın 7-də Respublika Prezidenti suveren Qazaxıstanın Silahlı Qüvvələrini təsis etdi. Həmin gündən bu tarix hərbi vəzifəyə sədaqətin, igidliyin, vətənpərvərliyin və xalqa xidmətin rəmzinə çevrilib. Bu gün biz Qazaxıstan Respublikasının müstəqilliyinin və suverenliyinin keşiyində dayananları hiss edirik. Biz Türk xaqanlığından, Qızıl Orda və Qazax xanlığından başlayaraq müasir Qazaxıstana qədər ölkəmizin müdafiəsinə həyatını həsr edən hər kəsə və bu missiyanı bu gün şərəflə yerinə yetirənlərə hörmətimizi bildiririk. Bizim strateji məqsədimiz heç vaxt qarşıdurma olmayıb. Məqsədimiz etimada əsaslanan, qarşılıqlı anlayış və bərabərhüquqlu tərəfdaşlığa əsaslanan davamlı əlaqələrin inkişafıdır. Qazaxıstan Respublikası beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və kollektiv təhlükəsizlik prinsiplərinə əsaslanan sülhpərvər, balanslaşdırılmış və praqmatik xarici siyasət yürüdür. Bu gün ölkəmiz beynəlxalq sülh və sabitliyə töhfə verir".

Diplomat həmçinin bildirib ki, 80 il əvvəl bəşər tarixinin ən dağıdıcı müharibəsi başa çatıb: "Həmin müharibə zamanı Qazaxıstandan 1 milyon 200 mindən çox vətəndaş səfərbər olunmuşdu. Onlardan 600 mindən çoxu döyüş meydanlarında həlak oldu. Bu gün həmin müharibənin qəhrəmanlarını yad edərkən hər birinizə sülh və firavanlıq arzulayıram".

***XQ***

**Faşizm üzərində Qələbə – 80**

**İkinci Dünya müharibəsi Azərbaycandan çox uzaqlarda başlamışdısa da, onun dəhşətli təsiri hər bir ailəmizdən, hər bir həmvətənimizdən yan keçmədi.**

**Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının rolu çox böyük idi. Bir daha təkrar edirəm, bizim insanların cəbhədəki mərdliyi, həmçinin Azərbaycan xalqının neft hasilatı cəbhəyə lazım olan bütün məhsulların istehsalı sahəsindəki xidmətlərinin misli, qiyməti yoxdur. Bu, böyük tarixi əhəmiyyətə malikdir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

# Qayınanam ön cəbhədə vuruşurdu, anam isə arxa cəbhədə çalışırdı

## Odlu-alovlu müharibə illərinin hələ də soyumayan xatirələri

Vətənimizin 700 mindən çox övladı ön cəbhəyə yollandı. Onların təqribən yarısı ölüm-dirim savaşında qəhrəmancasına həlak oldu. 170 mindən çox soydaşımız şücaətlərinə görə orden və medallara layiq görüldü. Onların arasında öz dəyanəti, sədaqəti, cəsurluğu və qeyrəti ilə fərqlənən Azərbaycan qadınları, qızları da az deyildi. Onlar kişilərlə çiyin-çiyinə həm ön, həm arxa cəbhələrdə hər cür çətinliklərə sinə gərirdilər.

Həm qürur, həm də qəlb sızıltıları ilə qələmə aldığım bu qeydlərdə zərif, incə, həm də mətin Vətən qızlarımızdan ikisinin çətin müharibə dövrü gənclik həyatları haqqında bəzi məqamları qısaca çatdırmaq istəyimdən ərsəyə gəlib. Və bu, mənim həm hardasa bir vətəndaşlıq, həm də övlad kimi vəfa borcumdur.

### Ön cəbhədə

1941-ci ilin müdhiş iyun ayı...

Bakıda orta məktəbi bitirdikdən sonra o vaxtkı V.İ.Lenin adına Ali Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinin birinci kursunu başa vuran Həlimənin 20 yaşı yenicə tamam olmuşdu... Milyonlarla cavanlarımız kimi qanlı-qadalı döyüşlərə çağırışçılardan biri olduğundan ali təhsilini başlanğıcdaca "dondurmalı" oldu. Çünki vətəndaşlıq borcu daha alidir!

1942-ci il, iyulun 16-da ailəsindən, Vətənindən ilk dəfə ayrılaraq birbaşa ön cəbhəyə yollananlardan biri də ağ bənizli, gur siyah telli, bəstə boylu gənc Həlimə oldu. O, beş gündən sonra amansız hərb meydanı olan Stalinqrad (indiki Volqoqrad) şəhərinin 70 km məsafəsində döyüşlərə qatıldı. Bir gün Həlimə onların yerləşmiş olduqları Sovetskaya kəndində, qızlar yaşayan kazarmanın lap yaxınlığında qırıcı təyyarənin tüstülər içində burnu üstə yerə çırpıldığının şahidi olur. Böyrü üstə çevrilən təyyarənin motor tərəfindən yüksələn şiddətli alov dilləri arasından qanadlar üzərindəki qırmızı ulduz nişanəsi görünürdü. Cəsur təyyarəçi ağır hava döyüşündə dəlik-deşik olmuş təyyarəsini və özünü düşmən əlinə keçməkdən bu həmlə ilə qurtara bilmişdi. Həlimə bir an belə düşünmədən kabinədən çətinliklə çıxmağa cəhd edən, qüvvədən düşmüş pilota yardıma atılır. Alov onun saçlarını, üz-gözünü qarssa da qıvraqlıq göstərərək yaralını yanan təyyarədən uzaqlaşdıra bilir. Ölümdən qurtulmuş təyyarəçi gözlərini açaraq minnətdarlığını bildirir...

Düşmənə mərdliklə sinə gərən qəhrəman şəhərin müdafiəsi hərəkatlarında verilən tapşırıqları yerinə yetirdikcə bu azərbaycanlı qızın mətinliyi döyüşdən-döyüşə özünü büruzə verirdi. Ağır hücumlarımızın birində yaralansa da, Volqa çayının sol sahilində müalicəsindən sonra yenidən faşistləri təqib edən hərbi hissəyə dönür.

Dünya hərb tarixinin şərəf səhifələrindən sayılan Stalinqrad divarları yanında vuruşan insanlarımız düşmənin bəd niyyətindən həm də doğma Bakımızı qoruyurdular. 1942-ci ilin 19 noyabrında qoşunlarımız şəhər ətrafında əks-hücuma keçərək, almanları 1943-cü ilin fevralına qədər mühasirədə saxlayır və fevralın 2-də təslim olmağa vadar edir. Əlbəttə, düşmən asanlıqla təslim olmaq fikrində deyildi, bu məqsədlə də hava hücumlarını intensivləşdirirdi.

Alman təyyarələrinin Kalaç şəhərinə hücumlarının birində düşmən bombası hərbçi qızların olduğu qazarmaya düşür. Bu ölüm-dirim cəngində dostlaşıb ünsiyyət qurduğu sarışın hərbçi qızları əbədilik itirən Həliməni aldığı ciddi qəlpə yaraları səbəbindən hərbi hospitala yollayırlar. Necə deyərlər, anası Alimə xanım "namaz üstündəymiş!"... Həkimlərin də səyi ilə həyata qaytarılan Həlimə elə müalicəxanada ikən xüsusi hissənin komendantlığından gözlənilməz xoş müjdə alır: Müharibədə göstərdiyi şücaətlərə, cəsurluq və mərdliyə görə Rzayeva Həlimə Miri qızı "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olunur!

Kiçik leytenant qız anasını görmək üçün qısa müddətə doğma Bakıya ezamiyyətə gəldikdə sinəsini bəzəyən medalla bərabər hələ də vücudunda gəzdirdiyi o müdhiş bombadan qalma qəlpələri də gətirmişdi. İllərlə onu sızıldadan axırıncı qəlpələrdən qurtulmaqsa hərb başa çatandan sonra – 1946-cı ildə paytaxtımızdakı Semaşko adına xəstəxanada, nəhayət ki, mümkün olur.

Amma əmin-amanlıq, sülh və həyat naminə yad torpaqlarda mərdlik göstərərək əbədiyyətə qovuşan minlərlə övladlarımızdan olan bir qardaşının həlak olması ömrü boyu bacı ürəyinə vurulan sağalmaz yara oldu. Həlimənin bütün yaralarının ən yaxşı məlhəmi isə digər qardaşı Seyidnağının qalib qazilər kimi cəbhədən dönüşü oldu.

...1945-ci ildə Partiya Tarixi İnstitutu tərəfindən nəşr edilən "Azərbaycanın şanlı oğulları" adlı üçcildliyin 3-cü kitabında "Medallı qız Həlimə Rzayeva" başlıqlı bir məqalə yer alıb. Yazının müəllifi gənc qələm sahibi, sonrakı illərdə Həlimə xanımla taleyini bağlayan, sonradan isə tənqidçi-alim, geniş və dərin bilikli professor kimi məşhurlaşan Əkbər Ağayev olub.

Qələbənin 40 illiyi münasibətilə radionun "Gənclik" redaksiyasına verdiyi müsahibədə uşaqlıq və ilk gənclik illərinin nə qədər şirin və fərəhli keçdiyindən söz açan Həlimə xanım müharibənin silinməz izlər qoymuş acı təəssüratlarından, əsgərlərə tibbi yardım göstərməklə yanaşı, öz öhdələrinə düşən xüsusi tapşırıqları yerinə yetirmələrindən danışarkən deyir ki, həyatının o keşməkeşli illərini, günlərini xatırlamaq onları yenidən yaşamaq kimi ağır və çətindir. Döyüşçülərimizin, xüsusən də Azərbaycan qızlarının qəhrəmanlıqlarından iftixar hissi ilə bəhs edən Həlimə xanım deyir: "Hünərlə, cəsarətlə, əsasən də inamla vuruşaraq hər an qələbəmizi ümidlə gözləyirdik. Nəhayət, o günə qovuşduq!.. Amma, həmin gün üçün candan keçənlər də çox oldu... Bütün qız, gəlinlərə arzu edirəm ki, onların həyatı həmişə sakit, dinc–firavan olsun!.."



Soldan sağa: Həlimə xanım və Asiyə xanım

### Arxa cəbhədə

Qan-qadalı müharibənin bir də "arxa cəbhə"si var...

"Hər şey cəbhə üçün, hər şey Qələbə üçün!" devizli ellərimizdə boynu bükük qalanlar: neçə-neçə itkilər yaşamış, qıtlıqlara qatlaşmış ahıl insanlar; ata və böyük qardaşlarının yoxluğunda onları əvəz etməyə fədakarlıq göstərən, birdən-birə böyüyən azyaşlı yeniyetmələr; sovet hakimiyyətinin var-yoxdan etdiyi böyük oğlunu itirmiş, ümidi sonbeşiyi olan övladının ali təhsillə geri dönüşünü bayram edib, gəlin gətirəcəyinə ümidli ananın əllərindən çıxıb uzaq diyarlardakı hərbə göndərilən övlad yolu gözləyən əzəmət nümunəsi qadınlar; ata həsrətli məsum övladları hər mərhumiyyətlə sinə gərərək ovundurmağı bacaran dəyanətli gənc gəlinlər; gözləri gecə-gündüz uzunluğu illərlə ölçülən yollarda qalan nişanlı gözəllər; sap-sağlam yola salanda arxalarından su səpilən igidlərinin əvəzində üstlərinə "qara kağız"lar ələnən ana-bacılar; ömrünün sonuna qədər heç o kağızlara da inanmayan, qulağı səksəkədə olan, baxışları yollardan çəkilməyən nis-killi insanlar – saysız-hesabsız dərdlərə duruş gətirib, qalib olanlar hər cür çətinlikləri adlamağa çalışırdılar.



Asiyə Ələkbərova



Həlimə Rzayeva

... Acı müharibə elanı veriləndə Peterburqda ali təhsil almış Babakişi müəllimin ilk övladı Asiyə 7-ci sinfi bitirmişdi. Lalə yanaqlı, uzun qoşa xurmayı hörüklü 16 yaşlı bu göyçək qız Salyan Pedaqoji Texnikumunda iki illik təhsildən sonra 1942-ci ildə ibtidai sinif müəllimi kimi həvəslə əmək fəaliyyətinə başlayır. Amma, o vaxtkı Puşkin, indiki Biləsuvar rayonunun Xırmandalı orta məktəbinin müdiri vəzifəsində can-başla çalışan atasının Peterburq mühitinin səhhətində yaratdığı fəsadların təsirindən gözlənilmədən qısa müddətdə dünyasını dəyişməsi ailəni sarsıdır. Son illərə qədər də camaat o məktəbi "Babakişi müəllimin məktəbi" olaraq nişan verirdi... Axı Babakişi müəllim özü bir-bir evlərə gedərək, məktəbə göndərilməyib yük arxasında gizlədilən (!) qız övladlarını təhsilə cəlb edərdi. Həmin o balaca qızlar arasında sonradan el-obasına şöhrət gətirmiş, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş kolxoz sədri Qızqayıt Həsənova və neçə-neçə tanınmış ziyalı xanımlarımız ərsəyə gəlib.

Faşistlər 1942-ci ilin iyulunda əsas diqqəti Cənuba, Qafqaza yönəltmişdilər. "Edelveys" adlı işğal əməliyyatı ilə Bakını nə olursa-olsun, ələ keçirmək, torpaqlarımızla bərabər neftimizə də sahiblənməyə iştahlanmışdılar. O dar zamanlarda cəbhəyə getmiş kişiləri onların ana-bacıları, həyat yoldaşları, yeniyetmələr, təqaüdçülər belə əvəz edirdilər. Qadınlarımız heç bir işdən qorxmur, cəbhədən gələn hər xoş xəbərə əmək cəbhəsindəki yeni uğurlarla qarşılıq verirdilər.

Asiyə də atasının yolunu davam etdirərək körpə fidanlarımıza yazıb-oxumağı həvəslə aşılayır, balaca övladlara biliklər gedən yollarda səylə cığırlar açırdı. Bu uşaqlar arasında özündən kiçik bacısı Təyyibə və ailələrinin sonbeşiyi, qardaşı Vasif də vardı...

Əlində elm məşəli tutanlar bütün zamanlarda cəng meydanlarından kənar tutulan bayraqdarlar sayılıblar! Belə ki, "elm fədailəri müqəddəs müharibədə döyüşən döyüşçü mislindədir," – buyurub Həzrəti Əli əleyhəssalam.

Yeniyetmə yaşlı Asiyə müəllimə təkcə biliklər vermirdi. O, öz zərif çiyinlərinə həm də odlu-alovlu müharibəyə gedib uzaq diyarlardan əbədiyyətə qovuşanlarımızın ard-arda qorxunc "qara kağız"ları gələn o dövrlərdə, gözləri yol çəkən balacaların körpə qəlblərini ələ alıb ovundura bilmək, onlarda gələcəyə mütləq ümid çırağını da yandırmaq missiyasını götürmüşdü.

Gecələri, gündüzləri sərasər uzanan 5 il soyuq-sazağı bitməz kimi görünən 5 qış, bir də acıları, itkiləri tükənmək bilməyən 5 uzun yay, balacalarımızın uşaqlıqlarını, yeniyetmələrimizin gəncliklərini, cavanlarımızın ömürlərini, yaşlılarımızın səbrini alıb apardı... Sevincin solub-sönükləndiyi o illərdə gələcək soraqlı nur, ümidləri sönmüş ürəklərdə bir qığılcım, hərarət yaradan bir arxa-dayaq ola bilmək nəsib oldu fitrətdən xoş xasiyyətli, gözəl təbiətli, səbrli və yüksək tərbiyəli Asiyə müəllimə.

... Asiyənin ala gözləri isə 1939-cu ildən Bakıda ali təhsil alıb qayıdacaq nişanlısının yolundaydı. Amma, necə deyərlər, "sən saydığını say..."

İnstitutu başa vuran kimi Sultanı Orta Asiya respublikalarından birinə bir illik komandir kurslarına göndərirlər. Elə oradan da hərbçi kimi İrana ezam olunur. 1941-ci ildə ölkəmizdə müharibə elan olunanda ailəsi, yaxınları ilə görüşüb-vidalaşma izni ilə ancaq bir neçə günlük vətənində olur və anasını bacısının ailəsinə əmanət edərək bir zabit kimi səfərbərliyə qatılır. Onun uzaq döyüş mövqe ünvanlı məktubları Asiyəyə təsəlli olurdu. Bir dəfə isə... Sultanın "qara kağız"ı xəbərilə ağır zərbə də almışlar. Amma, yanlışlıq olduğu bilinəndə ürəklər xeyli toxdadı.

Qələbəmizlə sona yetən müharibədən dönənlərimiz vardısa da, Asiyənin nişanlısı hələ Karpat dağlarında davam edən şiddətli döyüşlərdə hərbi birləşmələrimizin tərkibində düşmənlərlə vuruşurdu. Heç vaxt, heç nədən narazılıq edib gileylənmək bilməyən dözümlü, mərd Sultan həmin o döyüşləri xatırlayanda, bunu da əlavə edərdi: "... Çox ağır idi, artıq qələbə əldə olunduğu halda, sülh bağlanmış olduğu bir zamanda faşistlər ölmək istəmirdilər...". Yeddi həsrətli ildən sonra el-obasına, vətəninə, intizarda qalanlarına – anasına, bacılarına, Asiyəsinə qovuşan, igidlik, şücaət, cəsurluq nişanəsi olan Sultanın kapitan geyiminin sinəsini orden və medallar bəzəyirdi. Bədənindəki çox ağır cərrahiyyə əməliyyatlarının izi ölümdən dönüşlərinin ömürlük nişanələrindən idi...

Müharibə dövrünə düşən beş illik uğurlu müəllimlik fəaliyyətinə görə 21 yaşlı Babayeva Asiyə Babakişi qızı "Arxa cəbhədəki igidliyə görə" medalı ilə təltif edilərək, öz vətəninə medal qazandıran qızlarımızdan biri idi. Sultanla ailə qurandan sonra təhsilini davam etdirmək üçün 1946-cı ildə Bakı Ali Pedaqoji İnstitutun ədəbiyyat fakültəsinə daxil olur. Bu "igidlər" ailəsi dörd övlad sahibi olur.

**P.S.** Sonda onu deyim ki, müharibənin sərt üzü ilə göz-gözə gəlib sərtləşməyən, zərif vücudları ilə çətinliklərə sinə gərib mətinləşən ön cəbhə qəhrəmanı – Həlimə xanım mənim fədakar qayınanam, arxa cəbhə qəhrəmanım Asiyə xanım isə məni dünyaya gətirən anamdır!.. Nə xoş ki, qızlarımın da əziz, unudulmaz gözəl qəlbli, mehriban nənələridirlər. İlk övladım – Həlimə də nənəsinin adını qürurla daşıyır.

*Alma SULTANQIZI*








# "Baku Open-2025" Beynəlxalq Şahmat Festivalı başa çatıb

**Azərbaycan Şahmat Federasiyası, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə təşkil edilən "Baku Open-2025" Beynəlxalq Şahmat Festivalının bağlanış mərasimi keçirilib.**




Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, gənclər və idman naziri Fərid Qayıbov, FIDE-nin VI prezidenti Kirsan İlyumjinov, Azərbaycan Şahmat Federasiyasının (AŞF) prezidenti Mahir Məmmədov mərasimdə iştirak ediblər.

İlk olaraq Azərbaycan şahmatının unudulmaz anlarına həsr olunan videoçarx nümayiş etdirilib. Sonra Mahir Məmmədov çıxış edərək, Azərbaycanın dünyada həm də şahmat ölkəsi kimi tanındığını bildirib. AŞF rəhbəri göstərilən diqqət və qayğıya görə şahmatçılar adından Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Ardınca "Baku Open 2025"ə həsr olunan qısa icmal videosu nümayiş etdirilib.

FIDE-nin VI prezidenti Kirsan İlyumjinov Azərbaycan şahmatçılarının daim mötəbər yarışlarda uğur qazandığını söyləyib. O, dünyada ilk dəfə məhz Azərbaycanda şahmatın inkişafına dair dövlət proqramının imzalandığını xatırladıb və şahmatçıların uğurunun Prezident İlham Əliyevin göstərdiyi qayğının nəticəsi olduğunu deyib. FIDE-nin VI prezidenti 2016-cı ildə Bakıda təşkil edilən Ümumdünya Şahmat Olimpiadasının şahmat tarixinin ən yaxşı olimpiadası olduğunu bildirib.

Sonra yarışın yekun nəticələri açıqlanıb. 8 yaşadək qızların yarışında Nazlı Rüstəmli, oğlanlarda isə Daniel Konovalov birinci yeri tutub. 10 yaşlılar arasında turnirdə Yang Youpinq (Çin) və Yusif Əhədzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 12 yaşadək iştirakçılar arasında Əsnad Baxşızadə və Əkbər Mirzəyev birincilik qazanıb.

B qrupunda qadınlarda Dinara Hüseynova, oğlanlarda isə Nikolaz Çikalidze (Gürcüstan) hamıdan çox xal toplayaraq qalib olub. U-16 nominasiyasında Roman Şoqdziyev (FIDE) mükafata layiq görülüb. "Baku Open" yarışının A qrupunda Ayan Allahverdiyeva və Aleksandr İndciç (Serbiya) yarışın qalibi adını qazanıb.

"Baku Open 2025" çərçivəsində veteran şahmatçılar arasında Azərbaycan çempionatı da keçirilib. Vüqar Bayramov ölkə çempionu olub. Asəf Abdullayevlə Mehman Abbasov müvafiq olaraq 2-3-cü yerləri bölüşdürüb. 90 yaşlı Şərail Avazova ən yaşlı iştirakçı kimi xüsusi mükafat təqdim olunub.

Xatırladaq ki, festivalın mükafat fondu 55 min ABŞ dolları təşkil edib. Yarışda 16 ölkədən 700-dən çox şahmatçı mübarizə aparıb.

*XQ*

---

Musa Rüstəmov – 95

# Neft-kimya elminin görkəmli siması

**Böyük dühaları ilə tanınan Vətənimiz Azərbaycana böyük mütəfəkkirlər, elm və sənət adamları bəxş edən Naxçıvan Muxtar Respublikasının yetirmələrindən biri də əslən Ordubaddan olan kimyaçı-alim, akademik Musa İsmayıl oğlu Rüstəmovdur.**



Bu il tanınmış kimyaçı alim, Əməkdar elm xadimi, "Şöhrət" ordenli, Dövlət mükafatı laureatı, Prezidentin fərdi təqaüdçüsü olan Musa Rüstəmovun anadan olmasının 95, elmi fəaliyyətinin 70 ili tamam olur.

Akademik Musa Rüstəmov 1930-cu il mayın 8-də dünyaya göz açmış, 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun kimya-texnologiya fakültəsini bitirmiş, Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutunda elmi fəaliyyətə başlamışdır.

İlk illərdən böyük nüfuz qazanan alim 1959–1988-ci illərdə Azərbaycan Elmlər Akademiyası akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda kiçik və böyük elmi işçi, laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1961-ci ildə "Xırda dispers materialların "yarımaxın" xətti tətbiq olunmaqla kontakt-katalitik heterogen proseslərin aparılması üçün yeni yüksək səmərəli sistemlərin işlənib hazırlanması" mövzusunda namizədlik, 1968-ci ildə isə "Yarımaxın xətli reaktorlarda neft xammallarının katalitik krekinq proseslərinin texnologiyasının tədqiqi və işlənib hazırlanması" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edərək 1971-ci ildə professor elmi adına layiq görülmüşdür. 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1989-cı ildə isə həqiqi üzvü seçilmişdir. 1988–2011-ci illərdə həmin institutun direktoru olmuş, bu elmi müəssisənin Neft və qazın kimyası və texnologiyası şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O, neft emalı və neft kimyası proseslərinin texnologiyası, kimyəvi kinetika və kataliz sahələrində tanınmış mütəxəssisdir.

Akademik neft emalının dərinləşməsi üçün heterogen katalitik proseslərin yaradılması sahəsində xüsusi iz qoymuşdur. Onun rəhbərliyi ilə ilk dəfə olaraq yüksək dispersli (kiçik ölçülü) bərk hissəciklərin birbaşa axını və yarımaxını sistemlərində qaz fazası ilə qarşılıqlı təsir prinsiplərini öyrənməkdə, yeni reaktorların konstruksiyalarının hazırlamasında, xırda dispers katalizatorlar üzərində katalitik prosesləri aparmaq üçün yeni texnoloji sistemi yaratmağa imkan verən əsas nəzəri təkliflərin işlənib hazırlanmasında böyük xidmətləri olmuşdur. Məhz bu işlər buxar fazada heterogen kataliz proseslərinin həyata keçirilməsinin bir sıra yeni, daha səmərəli texnologiyaların yaradılmasına imkan vermişdir. Qeyd edək ki, bu yüksək səmərəli sistem keçmiş SSRİ-nin bir sıra zavodlarında və "Azərneftyanacaq" İstehsalat Birliyində (Q-43-107) tətbiq olunmuşdur.

Musa Rüstəmovun rəhbərliyi altında respublikamızda hidrogen energetikası sahəsində ilk tədqiqat işləri aparılmış, respublikamızda enerji daşıyıcılarının gələcək istifadəsi konsepsiyası, Azərbaycan neft emalı və neft-kimya sənayesinin kompleks inkişaf sxemləri işlənib hazırlanmışdır.

M.Rüstəmovun apardığı çoxcəhətli elmi tədqiqatların nəticələri 800-dən artıq elmi əsərdə, o cümlədən 4 monoqrafiya, 137 müəlliflik şəhadətnaməsi və patentdə əksini tapmışdır. Elmi kadrların yetişdirilməsinə xüsusi diqqət yetirən akademikin rəhbərliyi ilə 15 elmlər doktoru və 51 fəlsəfə doktoru hazırlanmışdır.

O, Şərqi Avropa ölkələri akademiyalarının neft kimyası problemi üzrə birgə işlənilən katalitik və destruktiv izomerləşmə mövzusunun rəhbəri, Ümumdünya Hidrogen Energetikası üzrə Assosiasiyasının üzvü və 1976–1982-ci illərdə keçmiş SSRİ EA Rəyasət Heyətinin Hidrogen energetikası üzrə komissiyasının üzvü olmuşdur.

Akademik M.Rüstəmov AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun nəzdində fəaliyyət göstərən "Neft kimyası" və "Yanacağın kimyası və texnologiyası" üzrə elmlər və fəlsəfə doktorluğu dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın üzvü, "Neft kimyası və neft emalı prosesləri" adlı jurnalın baş redaktoru, eləcə də "Azərbaycan kimya jurnalı"nın redaksiya heyətinin üzvü olmuşdur.

Alim əldə etdiyi nailiyyətlərinə və elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərinə görə 1979-cu ildə Əməkdar elm xadimi, 1982-ci ildə isə "Azərbaycan SSR Dövlət Mükafatı Laureatı" adlarına layiq görülmüş, 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Eyni zamanda 2002-ci ildə İslam Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Sammitində "Elm və texnologiya" mükafatına layiq görülmüşdür.

Ömrünü bütünlüklə elmə həsr etmiş, zəngin bir irs qoymuş Musa Rüstəmov 2022-ci il noyabrın 29-da dünyasını dəyişmişdir. Alimin vəfatı ilə bağlı Prezidenti İlham Əliyevin imzası ilə nekroloq verilmişdir. Mərhumla vida mərasimi AMEA-nın əsas binasında elm və təhsil ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə keçirilmiş, nəşi isə 2-ci Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

Yaddaşlarda iz salmış dəyərli akademik Musa Rüstəmov bu ilin sonunda 120 illik yubileyi keçiriləcək dahi azərbaycanlı alim Yusif Məmmədəliyev məktəbinin parlaq yetirməsi və layiqli davamçılarından biri olub.

Gərgin elmi fəalityyəti ilə yanaşı, akademik Musa Rüstəmov ictimai işlərlə, xeyriyyəçilik və maarifçilik fəaliyyəti ilə də məşğul olmuşdur. O, Vətəninə, elinə-obasına bağlı bir ziyalı kimi seçilmiş və sevilmişdir. Məhz 1991-ci ildə Azərbaycanın böyük mütəfəkkiri Nəsirəddin Tusinin adını daşıyan "Tusi" Xeyriyyə Cəmiyyətinin yaradılmasına təşəbbüs göstərməklə onun adının yaşadılmasına və elmi xidmətlərinin yeni nəsillərə çatdırılması işinə böyük dəstək vermişdir.

Akademik Musa Rüstəmov böyük ziyalı adını daşımaqla, qəlblərdə və yaddaşlarda müdriklik və xeyirxahlıq heykəli ucaltmışdır. O, dünyaya xüsusi missiya üçün gəlmiş nadir insanlardan biri idi. "Əməkdar elm xadimi" fəxri adına və "Şöhrət" ordeninə layiq görülməsi görkəmli alimin sanbalının göstəricisi idi. Ən başlıcası, Musa Rüstəmov müdrik insan və görkəmli ziyalı kimi hər zaman minnətdarlıqla xatırlanır.

***Vaqif ABBASOV,***
***ETN-in Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, akademik***

***Yəhya BABANLI,***
***"Tusi" Xeyriyyə Cəmiyyəti İdarə Heyətinin sədri, fəlsəfə doktoru***

---

# Göytürkün ulu söz abidəsi

**Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdullanın təşəbbüsü ilə Türk Dünyası Araşdırmaları Mərkəzinin hazırladığı "Bilgə Xan sözləri" adlı kitab "Füyuzat" nəşriyyatında çap olunub.**




Kitabda Göytürk dövlətinin hökmdarı Bilgə xanın Türk millətinə etdiyi xəbərdarlıqlar, verdiyi tövsiyələr və milli ideyaları yer alır. Bilgə xanın qardaşı Kültigin və ataları ilə birlikdə apardığı azadlıq mübarizəsi, dövlətin güclənməsi və xalqın rifahı uğrunda göstərdiyi səylər təsvir edilir. O, xalqını yadellilərin təsirindən uzaq durmağa, birliyə və müstəqilliyə səsləyir. Əsər Bilgə Xanın yalnız döyüşçü və dövlət başçısı kimi deyil, həm də müdrik bir lider, uzaqgörən şəxsiyyət kimi portretini təqdim edir.

ADU-nun Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri Cəlal İbrahimlinin müəllifliyi ilə təqdim olunan kitab Bilgə xanın ideya və mübarizəsi haqqında bilgilər almaq istəyənlər üçün dəyərli mənbədir. Cəlal İbrahimli Türkiyənin Egey Universitetində təhsil alıb, "Mikayıl Müşfiq", "Dünyaya doğan günəş" və başqa kitabların müəllifidir.

*XQ*

---

# "Azərbaycan İrsi" Kanadada



**Toronto şəhərində fəaliyyət göstərən "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin təsis edilməsinin 10-cu ildönümünə həsr olunmuş gecənin moderatoru – Kanadanın keçmiş Multikulturalizm və Vətəndaşlıq naziri Toni Ruprext "Vətən" təşkilatının səmərəli fəaliyyət göstərdiyini söyləyib və hər belə məclisdə Azərbaycanla bağlı yeni, maraqlı məlumatlar öyrəndiyini bildirib.**

Mərkəzin rəhbəri Lalin Həsənova təşkilatın tarixindən söz açıb. O, həmçinin Toronto şəhərindəki Kanada Azərbaycan Evinin fəaliyyətini də diqqətə çatdırıb. "Biz elə bir ölkədə məskunlaşmışıq ki, köklərimizə bağlılığımızı itirməmək üçün bizə hərtərəfli imkanlar yaradılıb və bunu dəyərləndiririk", – deyə mərkəzin rəhbəri vurğulayıb.

Məclisdə Ontario parlamentinin millət vəkilləri Rudy Cuzzetto (Rudi Kuzetto), Mohamed Firin (Mohamed Firin), Michael Tibbolo (Maykl Tibbolo), Sheref Sabavi (Şerif Sabavi), Kris Glover (Kris Qlover), Jamie Vest (Ceymi Vest), Kristin Vong-Tam (Kristin Vonq-Tam), Stefani Bouman (Stefani Buman), Andrea Hazell (Andrea Hezel) də çıxış edərək, mərkəzin böyük işləri sayəsində Azərbaycana daha yaxından bələd olduqlarını qeyd ediblər. Yubiley münasibətilə rəsmi təbrik məktubu Lalin Həsənovaya təqdim olunub.

Azərbaycan Evinin nəzdində fəaliyyət göstərən "Mənim Azərbaycanım" həftəsonu məktəbinin rəqs müəllimi Orxan İslamovun rəhbərliyi ilə şagirdlərin rəqsləri və nağara müəllimi Cəmhur Hüseynovun rəhbərliyi ilə nağara qrupunun ifaları alqışlarla qarşılanıb. Günel İsmayılovanın piano müşayiəti ilə "Təbriz" Azərbaycan Musiqi və Rəqs Ansamblının rəhbəri Şervin Şadpurun ifasında səsləndirilən "Vətən" mahnısı gecəyə xüsusi ahəng qatıb.

Mərasimdə Türkiyə, Özbəkistan, Başqırdıstan, Krım Tatarları, Türkmənistan və s. türk xalqlarının icma rəhbərləri də iştirak ediblər.

*XQ*

---

# Xaçmazın ədəbi "Ulduzlar"ı



**Xaçmaz Rayon İH və Quba–Xaçmaz Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Murad Qudyalçaylı adına "Ulduzlar" ədəbi məclisinin 65 illik yubileyi qeyd edilib.**

Mərasim Xaçmaz Tarix Diyarşünaslıq Muzeyində "Ulduzlar"ın üzvlərinin əsərlərindən ibarət sərgiyə baxışla başlayıb. Muzeyin konfrans zalında məclisin fəxri üzvü, "Bayraqdar media"nın baş redaktoru, Əməkdar jurnalist Azər Həsrətin aparıcılığı ilə davam edən tədbirə Azərbaycan Yazıçılar Birliyinin (AYB) təmsilçiləri də qatılıblar.

Əvvəlcə "Ulduzlar"ın sədri, şair Fərzalı Ziyanur məclisin yaranma tarixi və bugünədək keçdiyi yol barədə məlumat verib. Sonra çıxış edən RİH başçısının müavini Günel Nürəddinova "Ulduzlar"ın yubileyi münasibətilə rayon rəhbərliyinin fəxri fərmanını məclis sədri Fərzalı Ziyanura təqdim edib. Regional Mədəniyyət İdarəsinin nümayəndəsi Fərid Musayev də məclisə təbriklərini çatdırıb.

AYB sədrinin müavini, Əməkdar mədəniyyət işçisi Rəşad Məcid birliyin sədri Anarın yazılı təbrikini "Ulduzlar"a təqdim edərək, məclisin timsalında bölgədə ədəbiyyatın inkişafından, bu işə dövlətin dəstəyindən danışıb, Xaçmazın qaynar ədəbi həyatı ilə fərqləndiyini vurğulayıb. "Ulduzlar"ın ədəbi məclsinin sədri Fərzalı Ziyanurun Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edildiyi bildirilib və ona vəsiqə təqdim edilib.

Tanınmış şair, AYB Quba bölməsinin rəhbəri Ramiz Qusarçaylının da çıxışı maraqla dinlənilib. O, həm məclisin adını daşıdığı Murad Qudyalçaylı, həm də "Ulduzlar"la bağlı fikirlərini bölüşüb, bu məclisin Şimal bölgəsində ən fəal ədəbi birlik olduğuna diqqəti cəlb edib.

Daha sonra Xaçmaz rayon Ağsaqqallar Şurasının sədri Məhərrəm Abasov, "İlham çeşməsi" ədəbi məclisinin sədri Böyükağa Ağa, "Söz işığında" ədəbi məclisinin sədri Səyyad Sərraf, "Ulduzlar"ın yaxın dostu, həkim-şair Nazilə Gültac, Şabrandakı Xaqani adına Poeziya Evinin rəhbəri Aybəniz Əliyar, Qubadakı "Gülüstan" ədəbi məclisinin sədri Şixəmməd Seyidməmmədov, şairlər Səbuhi Hacıxanlı, Güləli Bağban, Ayaz Səlimxanoğlu və muzey direktoru Pakizə Mehdiyeva ürək sözlərini dilə gətiriblər.

*XQ*

# Ulu öndərə ehtiramla

## “Neftçi”nin veteran futbolçuları Tbilisidə Heydər Əliyevin abidəsini ziyarət ediblər

**İstər Azərbaycan KP MK-nın birinci katibi, istərsə də ölkə Prezidenti kimi respublikamıza rəhbərlik etdiyi uzun illər ərzində insan həyatının çox mühüm sahəsi – bədən tərbiyəsi və idmanın inkişafına müstəsna əhəmiyyət verən Heydər Əliyev əbədiyyətə idmanımızın ən yaxın dostu kimi qovuşub.**

Ümummilli liderin gümrahlıq və sağlamlıq məşğələlərinə, yüksək nailiyyətlər idmanına böyük qayğı və diqqəti idman adamlarımızı qələbə və rekordlarla ölkənin beynəlxalq nüfuzunu daha da artırmağa səfərbər etmişdi. Azərbaycan idmanının ən yaxşı yetirmələri dünya və Avropa çempionatlarında, Olimpiya və Paralimpiya oyunlarında, digər mötəbər yarışlarda qazandıqları uğurlarla respublikamızı qüdrətli idman ölkəsinə çevirmişlər.

Bugünlər bütün ölkəmiz kimi, bədən tərbiyəçiləri və idmançılar da Ulu öndərin anadan olmasının 102-ci ildönümü münasibətilə keçirilən müxtəlif tədbirlərdə dərin minnətdarlıq hissi ilə iştirak edirlər.

Ötən əsrin 70–80-ci illərində Sovet İttifaqı çempionatlarında “Neftçi”nin şərəfini qoruyub, idman tariximizdə özlərinə layiqli yer etmiş bir qrup veteran futbolçu – İsgəndər Cavadov, Maşallah Əhmədov, İqor Ponomaryov, Asif Əliyev, Asim Xudiyev və Oqtay Abdullayev mayın ilk günlərində Tbilisidə səfərdə olarkən Gürcüstan paytaxtındakı gözəl parkda Heydər Əliyevin abidəsini ziyarət edərək, Ulu öndərin xatirəsini böyük hörmət və dərin ehtiramla yad etmişlər.




*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Dəli Kürün şıltaqlığı...

**Son günlər yağan yağışlar Kür çayında sululuğun artmasına səbəb olub. Çayın Qazax rayonu ərazisindən keçən hissəsində Kürün daşması nəticəsində əkin sahələri və təsərrüfatlara ziyan dəyib.**

Kür çayında suyun səviyyəsinin qalxması nəticəsində hektarlarla örüş və əkin sahələrinə ziyan dəyib.

Son günlər yağan yağışlar nəticəsində Kürdə suyun həcmi artıb, Aşağı Salahlı kəndində 5 hektar örüş və Orta Salahlı kəndində sakinlərə məxsus 15 hektar biçənək sahələrinə ziyan dəyib.

Qeyd edək ki, Kürdə suyun səviyyəsində ötən günlərə nisbətən enmə müşahidə olunur.

*XQ*



Beynəlxalq həyat

# Hindistan–Pakistan: “hərbi zərbələr mübadiləsi” fəlakət saçır



**Hindistan və Pakistan arasında müşahidə edilən hərbi zərbələr mübadiləsi və Hindistanın “Sindoor” əməliyyatı ilə nəticələnən gərginliyin yenidən artması özündə regional və qlobal sabitlik üçün ciddi geosiyasi təsirlər daşıyır. Kəşmir üzərində uzun müddət davam edən mübahisə yenidən münaqişənin katalizatoru rolunu oynayır və ekspertlərin fikrincə, nüvə eskalasiyası riski də daxil olmaqla, geniş iqtisadi, humanitar və strateji nəticələrə səbəb ola bilər. Artıq böyük güclər tərəfləri sakitləşməyə çağırırlar, ABŞ isə Hindistanın hücumunu utancverici adlandırır.**

Son eskalasiya 2025-ci ilin aprelində Hindistanın Kəşmirində turistlərin ölümü ilə nəticələnən terror aktı ilə bağlıdır. Hindistan Pakistanda yerləşən qrupları günahlandırır və 6–7 may 2025-ci il tarixlərində Pakistan ərazisində “terror infrastrukturu” olduğunu söylədiyi obyektlərə zərbələr endirdi. Ancaq Pakistan raket zərbələrinin mülki obyektlərə zərər verdiyini, əhali arasında itkilərə səbəb olduğunu bildirdi. Bundan başqa, İslamabad Hindistan təyyarəsinin vurulduğunu da açıqlayaraq, qonşu ölkə ərazisinə cavab zərbələri endirdi.

Hər iki tərəf itkilər barədə məlumat verir. Hərbi münaqişənin başlanması iki ölkə arasında hava və ticarət əlaqələrinin dayanmasına gətirib çıxardı. Hindistan da Hind Suları Müqaviləsini birtərəfli qaydada dayandırdığını elan edərək, Pakistanda ciddi narahatlıq doğurdu. Çünki Hindistanın 1960-cı ildə imzalanmış Hind Suları Müqaviləsi ilə bağlı hərəkətləri Pakistanda milyonlarla insana təsir edən ciddi su çatışmazlığına səbəb ola bilər.

Pakistanın baş naziri Şahbaz Şərif Hindistanın hücumunu müharibə aktı kimi qiymətləndirdi. O, Hindistanın zərbələrindən sonra orduya lazımi tədbirlər görmək səlahiyyətinin verildiyini açıqladı. CNN televiziya kanalı cənab Şərifin Milli Təhlükəsizlik Komitəsinin (MTK) fövqəladə iclasından sonra Pakistan Silahlı Qüvvələrini günahsız pakistanlıların itkilərinin qisasını almağa çağırdığını yazır. Hindistanın hücumu nəticəsində 26 dinc sakinin həlak olduğu bildirilir.

Pakistan MTK-nin bəyanatında vurğulanır ki, “Pakistan günahsız pakistanlıların həyatını itirməsinə və onun suverenliyinin açıq-aşkar pozulmasına görə qisas almaq üçün özünümüdafiə məqsədilə seçdiyi vaxtda, yerdə və tərzdə cavab vermək hüququnu özündə saxlayır”. Bununla yanaşı, Pakistanın müdafiə naziri Xavaca Asif Bloomberg-ə müsahibəsində bildirir ki, İslamabad Hindistana qarşı heç vaxt düşmənçilik etməyəcək: “Amma Hindistan hücum edərsə, cavab verəcəyik. Hindistan geri çəkilsə, biz mütləq dayanacağıq”.

Təbii ki, Hindistanın Pakistan ərazisinə raket zərbələri endirməsi beynəlxalq ictimaiyyətdə kəskin reaksiya doğurur. Çünki belə hallar, adətən, regionda nüvə silahlarına sahib iki ölkə arasında gərginliyin artması təhlükəsini doğurduğundan, beynəlxalq təhlükəsizlik üçün böyük əndişə yaradır. BMT Baş katibi Antonio Quterreşin sözçüsü Stefan Dujarrikin sözlərinə görə, qurum rəhbəri Hindistanın hərbi əməliyyatından son dərəcə narahatdır: “Baş katib hərbi əməliyyatlardan son dərəcə narahatdır. O, hər iki ölkəni maksimum hərbi təmkin nümayiş etdirməyə çağırır. Dünya Hindistan və Pakistan arasında hərbi qarşıdurmaya tab gətirə bilməz”.

ABŞ prezidenti Donald Tramp isə Hindistan və Pakistan arasında münaqişənin genişlənməsini “utancverici” adlandırdı: “Bu, utancvericidir. Bu barədə indicə eşitmişəm. Düşünürəm ki, insanlar bir az tarixə əsaslanaraq nəyinsə baş verəcəyini bilirdilər. Onlar uzun müddətdir mübarizə aparırlar. Onlar çox, onilliklər boyu mübarizə aparırlar. Ümid edirəm ki, bu, çox tez bitəcək”. ABŞ dövlət katibi Marko Rubio isə vəziyyəti izlədiyini bildirir. O, həmçinin “bunun tez bitəcəyinə, Hindistan və Pakistan rəhbərliyinin sülh yolu ilə həll istiqamətində birgə işləməyə davam edəcəyinə” ümid etdiyini də açıqladı.




Hindistanla sərhəd münaqişəsi olan Çin Xalq Respublikası da Hindistanın Pakistana zərbə endirmək qərarının təəssüf doğurduğunu bildirdi. Ölkənin Xarici İşlər Nazirliyinin nümayəndəsinin sözlərinə görə, Çin yaranmış vəziyyətdən narahatdır və hər iki tərəfi təmkinli olmağa çağırır.

Qeyd edək ki, Çin Pakistanla müttəfiqlik münasibətlərini qoruyub saxlayır və bu da bir sıra əsas amillərlə müəyyən edilir. Hər iki ölkəni güclü iqtisadi əlaqələr birləşdirir. Çinin Hindistanla münasibətləri hamar deyil, iki ölkə arasında sərhəd mübahisələri baş verir, regionda iqtisadi rəqabət aparırlar. Buna görə də, Çin Cənubi Asiyada müəyyən güc balansını saxlamağa çalışır.

Türkiyə Xarici İşlər Nazirliyi isə Hindistanın Pakistana hücumunun hərtərəfli müharibə riski yaratdığını açıqladı. Nazirliyin Pakistan və Hindistan arasında yaşanan son hadisələrlə bağlı yaydığı bəyanatda bildirilir ki, Türkiyə Pakistan və Hindistan arasında baş verən hadisələri narahatlıqla izləyir. “Ötən gecə (6 may) Hindistanın hücumu hərtərəfli müharibə riski yaradıb. Biz mülki şəxsləri və mülki infrastrukturu hədəf alan bu cür təxribatçı addımları və hücumları pisləyirik”. Rəsmi Ankaranın tərəfləri sağlam düşüncəyə və birtərəfli hərəkətlərdən çəkinməyə çağıran bəyanatında vurğulanır ki, Türkiyə bölgədəki gərginliyi azaltmaq üçün ən qısa zamanda lazımi tədbirlərin görüləcəyinə və oxşar hadisələrin təkrarlanmaması üçün terrorla mübarizə də daxil olmaqla, lazımi mexanizmlərin yaradılacağına ümid edir. “Biz Pakistanın aprelin 22-də baş vermiş terror aktının araşdırılması çağırışını dəstəkləyirik”, – bəyanatda əlavə olunur.

Azərbaycan da Hindistanın son hərbi hücumuna münasibətini açıqladı. Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, Azərbaycan Hindistan ilə Pakistan arasında gərginliyin daha da artması ilə bağlı narahatlığını bildirir: “Pakistan İslam Respublikasına qarşı bir neçə mülki şəxsin ölümü və yaralanması ilə nəticələnən hərbi hücumları pisləyirik. Pakistan xalqı ilə həmrəy olaraq, günahsız qurbanların ailələrinə başsağlığı verir və yaralananların tezliklə sağalmasını arzu edirik”. Bəyanatın sonunda bütün tərəfləri təmkinli olmağa və münaqişəni diplomatik yollarla həll etməyə çağırış edilir.

Beynəlxalq mediada iki ölkənin qarşıdurması ilə bağlı müxtəlif ehtimallar və proqnozlar səsləndirilir. Ən maraqlı və diqqət şəkən şərhlər arasında ABŞ-ın “The New-York Times” qəzetini göstərmək olar. Tanınmış media orqanı Hindistan–Pakistan toqquşmasını Qərb–Çin qarşıdurması kimi qiymətləndirir. Qəzet yazır ki, tarixən Alyansdan kənarda qalan Hindistan ABŞ və müttəfiqləri ilə yaxınlaşıb, Rusiya silahlarından asılılığını kəskin şəkildə azaldıb, Pakistan isə Çinin müdafiə sənayesinin əsas müştərisinə çevrilib. ABŞ qəzeti əlavə edir ki, Hindistan hazırda silahlarının böyük hissəsini ABŞ, Fransa və İsraildən alır, 2010-cu ildən bəri Rusiyadan tədarükünü 50 faizdən çox azaldır. Pakistan isə silahlarının təxminən 80 faizini Çindən alır. Hindistan ordusu Amerika və Qərb platformaları ilə sürətlə modernləşir, Pakistan isə Çin texnologiyasından, o cümlədən J-10C reaktivləri və uzaq mənzilli raketlərdən istifadə edir.

Bir sözlə, vəziyyət son dərəcə gərgin olaraq qalır. Beynəlxalq ictimaiyyət münaqişənin gözlənilməz nəticələrlə daha da genişlənməsinin qarşısını almaq üçün dərhal gərginliyi azaltmağa və dialoqu bərpa etməyə çağırır. Bu çağırışa, ilk növbədə, Hindistanın qulaq asması vacibdir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*


# “Bakı Tələbat Qabları” ASC səhmdarlarının nəzərinə!

21 iyun 2025-ci il saat 11:00-da “Bakı Tələbat Qabları” ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. Cəmiyyətin illik fəaliyyətinin nəticələrinin təhlili və maliyyə hesabatının təsdiqi.
2. Digər məsələ.

Ümumi yığıncaqda səhmdarların iştirakı vacibdir.

Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi, məhəllə 2578, döngə 903.

Əlaqə telefonu: 012-425-10-11

**“Bakı Tələbat Qabları”ASC-nin Direktoru S.Kazımov**



# “Gəncə Şərab – 1” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 11.00 da “Gəncə Şərab – 1” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2024-cü ilin yekunları üzrə cəmiyyətin maliyə-təsərrüfat fəaliyyəti barədə təftiş komissiyasının hesabatı.
2. Cəmiyyətin illik balansının (hesabatının) müzakirəsi və təsdiqi (baş direktorun hesabatı).
3. Digər məsələlər.

Ünvan – Gəncə şəhəri, Z.Hacıyev küçəsi 56.

*Direktorlar şurası*



# “Moskviçtexxidmət” ASC səhmdarlarının nəzərinə!

“Moskviçtexxidmət” ASC səhmdarlarının 2025-ci il mayın 3-də keçirilmiş növbəti ümumi yığıncağında aşağıdakı qərarlar qəbul edilmişdir:

1.“Moskviçtexxidmət” ASC-nin 2024-cü ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlaırının hesabatı təsdiq edilərək qənaətbəxş hesab olunmuşdur.

2.“Moskviçtexxidmət” ASC-nin 2024-cü ilə aid fəaliyyətinin nəticəsində yaranmış mənfəətdən səhmdarlara dividend verilməsi qərara alınmışdır.

3. Digər məsələlər barədə qərar qəbul edilməmişdir.

*Rəhbərlik*


# “Sumqayıt Sənayetikinti Avtonəqliyyat” ASC-nin 2024-cü il dekabrın 31-nə mühasibat balansı

(manatla)

| AKTİVLƏR | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 63487.05 | 83336.96 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | 63487.05 | 83336.96 |
| Ehtiyyatlar | 5314.88 | 2089.88 |
| Qısamüddətli debitor borcları | 261491.00 | 260960.30 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11508.84 | 1142.76 |
| Sair qısamüddətli aktivlər | 33921.75 | 20484.62 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | 312236.47 | 284677.56 |
| **CƏMİ AKTİVLƏR** | 375723.52 | 368014.52 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 214881.20 | 214881.20 |
| Kapital ehtiyyatları | 87907.67 | 87907.67 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 32438.79 | 6170.57 |
| **CƏMİ KAPİTAL** | 335227.66 | 208959.44 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1686.05 | 936.05 |
| Qısamüddətli kreditor borcları | 36531.07 | 56070.13 |
| Qısamüddətli öhdəliklər | 2278.74 | 2048.90 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 40495.86 | 59055.08 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | 40495.86 | 59055.08 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 375723.52 | 368014.52 |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyəti üzrə)**

| | | |
|---|---|---|
| Satış | 116560.0 | 88520.00 |
| Sair əməliyyat gəlirləri | 38158.70 | 55213.01 |
| **İşçi heyəti üzrə xərclər** | 23125.00 | 22200.00 |
| Amortizasiya xərcləri | 19849.91 | 18800.45 |
| Sair əməliyyat xərcləri | 77597.69 | 96237.22 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 34146.10 | 6495.34 |
| Mənfəət vergisi | 1707.31 | 324.77 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 32438.79 | 6170.57 |
| Bazis hər bir səhmin mənfəəti | 0.301925 | 0.057432 |

Qeyd-2024-cü il yanvarın 1-dən 2024-cü il dekabrın 31-dək olan dövr üzrə maliyyə hesabatlarının düzgünlüyünün auditi sərbəst auditor Ş.Y.Gülməmmədov tərəfindən 2025-ci il martın 12-dən 14 -dək aparılmış və müvafiq rəy verilmişdir.

**Əlaqə telefon- 051-271-32-45.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 93 (30787) 8 may 2025-ci il, cümə axşamı

Bahar düşüncələri

# Güllər təbiətin gülüşüdür...

**Rəngbərəng güllər həmişə və hər yerdə gözəllik saçır. Onlar öz rəngi, ətri və görkəmi ilə dünyamıza əlvanlıq gətirir. Bənövşənin, qızılgülün, yasəmənin ətrini sinə dolusu ciyərlərinə çəkəndə özünü cənnətdə hiss etməyən varmı?**

Bəs gül-çiçəksiz ötüşən məclis, xeyir-şər varmı? İlk dərs günü məktəbə qədəm qoyan da, son zəng günündə gedən də, ad gününə dəvət edilən də, sevgilisi ilə görüşə tələsən də əlində gül-çiçək dəstəsi aparır. Gül-çiçək bəlkə də elə həmin tədbirlər üçün ən yaxşı hədiyyədir.

Çiçəklər həyatımızda vacib rol oynayır. Amma çox vaxt onların hansı məna ifadə etdiyi barədə heç düşünmürük də. Əslində isə, hər bir gül müəyyən məna ifadə edir. İnsanlar çox vaxt güllərin və çiçəklərin vasitəsilə öz hisslərini büruzə veriblər. Qızılgül ən incə hisslər, qərənfil ilk məhəbbət, süsən təmizlik, səhləb ailə xoşbəxtliyi, astra bağlanma istəyi, xrizantema dostluq, zanbaq məhəbbəti büruzə vermək, yasəmən ilk məhəbbət rəmzi hesab olunur.

XVIII əsrin əvvəllərində İsveç kralı II Karl Fars körfəzindən Avropaya çiçəklərin "şərq dili"ni gətirib. Zanbağın, yasəmənin sirlərindən və çiçəklərlə bağlı digər bölmələrdən bəhs edən çiçək lüğətləri XVIII əsrdə geniş yayılmağa başlayıb.

Çiçəklərin rəngi də müxtəlif əlamətlərdən soraq verir. Məsələn, qızılgülün qarası hüzn və kədər, qırmızısı isə sevginin rəmzidir. Yapon mədəniyyətində sarı rəng işığın və günəşin rəmzidir, ona görə də yaponlar sarı rəngli gülü xeyir və aydınlıq arzulayarkən bağışlayırlar. Narıncı rəng güc, qüdrət və qürur anlamındadır. Göy rəngli çiçəklər həsrət





və vəfa mənasını verir. Həmin rəngdə olan çiçəkləri adətən hərbi xidmətə yola düşənlərə bağışlayırlar. Bənövşəyi rəng dostluğun, yaşıl isə sülhün rəmzidir. Ağ rəng təmizlik, incəlik və hüznü anladır.

Hər bir gül fərdi olaraq hansısa hissin rəmzi kimi qəbul edilir. Məsələn, akasiya platonik sevgi, jasmin nəzakət, çəhrayı akasiya zəriflik, zəngçiçəyi deyingənlik, amarant ölməzlik, amarillis gözəlliyə heyranlıq, lavanda etibarsızlıq, anemon kövrəklik, inciçiçəyi qayıtmış xoşbəxtlik, astra qəm, ağ zanbaq ciddilik, reyhan nifrət, ikrah, narıncı zanbaq güclü nifrət, maqnoliya sevgi istəyi, məxmərgülü qısamüddətli səadət, beqoniya təhlükə və şübhə, mimoza utancaqlıq, yemişan çiçəyi ümid, mərsin itmiş sevgi, nanə isti hisslər, minaçiçəyi həssaslıq, nərgiz eqoizm, həmişəbahar narahatlıq, su zanbağı qəlb təmizliyi, orxideya gözəllik, sarmaşıq barışıq, pion utancaqlıq, qırmızı qərənfil ehtiras, ağ qərənfil kədər, sarı qərənfil nifrət, qarçiçəyi təsəlli, ağ qızılgül sükut, qırmızı qızılgül sevgi, soğangülü etiraf, sarı qızılgül vəfasızlıq, rozmarin birgəlik, yasəmən ilk sevgi həyəcanı, lalə sevgi etirafı, bənövşə ciddilik, qortenziya soyuqluq, xrizantem salamlama anlamını verir.

Şair yaxşı deyib:

**Bir rəngdə olsaydı güllər-çiçəklər**
**İnsanın gözləri yorulmazdımı?**
**Bir eşqi ötsəydi bütün ürəklər**
**Dünyaya bir nəfəs bəs olmazdımı?**

Amma yaxşı ki, nə güllər bir deyil, nə də ürəklər... Bir-birindən yaraşıqlı və bir-birindən fərqli güllər ömrümüzə-günümüzə gözəllik və təravət bəxş edir.

*Süleyman QARADAĞLI*

İdman

## Paraüzgüçümüzün Paris uğuru




**Azərbaycanın yeniyetmə paraüzgüçüsü Əli Vəliyev Parisdə keçirilən Dünya Seriyasında şəxsi rekordunu yeniləyib.**

Milli Paralimpiya Komitəsinin mətbuat xidmətinin məlumatına görə, paralimpiyaçı (S10) qarışıq kateqoriyalardan olan gənc paraüzgüçülərlə birlikdə çıxış etdiyi 100 metr məsafəyə sərbəst üsulla üzmədə 1:00.90, 100 metr məsafəyə kəpənək üsulla üzməkdə isə 1:04.60 nəticə göstərərək şəxsi rekordunu yeniləyib.

Mübarizə apardığı bütün üzmə üsullarında şəxsi kateqoriyasında finişə birinci çatan Ə.Vəliyev, həmçinin ilk dəfə beynəlxalq yarışda 400 metr məsafəyə sərbəst üsulda da gücünü sınayıb.

## 3x3 Dünya basketbolunun Bakı mərhələsi




**3x3 basketbol üzrə Dünya Qadın Seriyasının Bakı mərhələsində yarışa qatılacaq 16 komanda dəqiqləşib.**

Turnirdə Azərbaycan, Niderland, Çin, Tailand, Avstriya, Filippin, Latviya, Rumıniya, Qazaxıstan, Madaqaskar, Çili, Misir, İtaliya milliləri və "Roma" (İtaliya), "Praqa" (Çexiya), "Takasaki" (Yaponiya) klubları iştirak edəcək.

Qeyd edək ki, yarış mayın 26-27-də "Sea Breeze"də təşkil olunacaq. Mayın 24-25-də dünya çempionatının seçmə mərhələ oyunları da eyni məkanda keçiriləcək.

## Hidayət Heydərov Dünya 2-cisidir



**Beynəlxalq Cüdo Federasiyasının ümumi siyahısında həm kişilər, həm də qadınlar arasında dünya reytinq liderlərinin göstəriciləri əks olunub.**

Olimpiya çempionu Hidayət Heydərov (73 kq) bütün çəki dərəcələrindəki cüdoçular arasında qazandığı reytinq xallarının sayına görə mövqeyini qoruyub. Cüdoçumuz 6 min 544 xalla 2-ci yerdədir.

H.Heydərov ümumi cədvəldə yalnız Olimpiya çempionu Krista Dequçidən (Kanada, 7300) geri qalır. Digər olimpiya çempionumuz Zelim Kotsoyev (100 kq) 6046 xalla 5-ci yeri tutur.

*LA ZAD*
*XQ*

Bölgə teatrları

## "Cəmilə" Qusar səhnəsində

**Qusar Dövlət Ləzgi Dram Teatrında Qırğızıstanın Xalq yazıçısı Çingiz Aytmatovun "Cəmilə" povesti əsasında hazırlanan tamaşanın premyerası keçirilib.**



Tamaşanın quruluşçu rejissoru Əməkdar mədəniyyət işçisi Faiq Qardaşov, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı isə Fərəh Pirməmmədovadır.

"Cəmilə" əsəri qırğız yazıçısı Çingiz Aytmatovu, doğulub boya-başa çatdığı Talas vadisinin tarixi xüsusiyyətlərini və mədəniyyətini özündə əks etdirir. Tamaşada cərəyan edən hadisələr İkinci Dünya müharibəsi illərini əhatə edir.

*XQ*

## Naxçıvanda vitamin aksiyası



**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində uşaq bağçalarında D vitamininin profilaktik məqsədlə paylanması üzrə xeyriyyə aksiyası keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, layihə çərçivəsində əsas məqsəd uşaqların sağlam inkişafının dəstəklənməsi, immun sistemlərinin möhkəmləndirilməsi və D vitamini çatışmazlığı ilə bağlı risklərin azaldılması olub. Aksiya, həmçinin raxit və digər hipovitaminoz hallarının profilaktikasında mühüm rol oynayıb.

Naxçıvan şəhərində yerləşən məktəbəqədər təhsil müəssisələrində 1670 uşaq müayinədən keçirilib, onlardan 233 nəfər dispanser qeydiyyatına götürülüb və ümumilikdə, 2249 doza D vitamini paylanılıb.

Aksiya zamanı muxtar respublikada rayonlar üzrə fəaliyyət göstərən uşaq bağçalarında isə ümumilikdə 1241 uşaq tibbi nəzarətə cəlb olunub, onlardan 955 nəfəri ilkin tibbi müayinədən keçib, 151 nəfər dispanser qeydiyyatına alınıb. Eyni zamanda, 1241 uşağa D vitamini paylanılıb.

*XQ*

HAVA

## Yağmursuz və dumanlı bir yaz günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 8-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 16-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq.**

Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 15-19°, gündüz 24-29°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

*Q.QASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3442
SİFARİŞ 931
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00